AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

Əliabbas Müznib

# SEÇİLMİŞ ƏSƏRLƏR

Bakı – Nurlan – 2007

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 19 sentyabr 2007-ci il tarixli 8 №-li iclasının qərarı ilə nəşr olunur.

*Nəşrə hazırlayan və ön sözün müəllifi:*
**Sona Xəyal**

**Əliabbas Müznib. Seçilmiş əsərlər.**
Bakı, Nurlan, 2007, 163 səh.

Kitaba repressiya qurbanlarından görkəmli şair, nasir, publisist və ədəbiyyatşünas Əliabbas Münzibin 1910-1919-cü illərdə əski əlifbada çap olunmuş 16 kitabının transfoneliterasiyası daxil edilmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ƏLİABBAS MÜZNİB VƏ ƏSKİ NƏŞRLƏR

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, nasir, publisist və ədəbiyyatşünas Əliabbas Müznib Mütəllibzadənin olduqca zəngin ədəbi irsi vardır. 1924-cü ildə Ədəbiyyat Cəmiyyətinin, 1934-cü ildən Yazıçılar Birliyinin üzvü olan, həqiqi ədəbiyyat adamı kimi ömrünü faydalı bir işə sərf etmiş, onlarla azərbaycanlı şairin ədəbi irsini toplamış, haqqında materiallar arayıb-axtarmış, əsərlərinin çapına çalışmışdır. Ədəbiyyat tariximizə düşən bir sıra yazıçılar haqqında ilkin məlumatı Müznibin arxivindən tapmaq olar. Eləcə də Azərbaycan tarixi ilə, mədəniyyəti ilə bağlı dəyərli məlumatları, elm tariximizlə, görkəmli adamlarımızla bağlı bir sıra fikirləri də ilkin olaraq Müznibin əlyazmalarından alırıq. Belə ki, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Müznibin zəngin arxivi saxlanılır. Bundan başqa müxtəlif formatlarda saxlanılan Müznibin əl yazısı ilə xeyli əsərlər vardır. Tədqiqatçıların məlumatına görə Əliabbas Müznib altmışdan artıq kitab nəşr etmişdir. İnstitutun əski kitablar bölümündə bunlardan bəzilərini tapmaq olar.

Bizi Müznibin arxivinə aparıb çıxaran bakılı şairlərlə bağlı tədqiqatlarımız oldu. Belə ki, Əlyazmalar İnstitutunda

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

hansı şairin əsərlərini axtardıqsa, bir ucu gedib Müznibin arxivinə çıxdı. «Əlli yaşlı xəzinədən əlli məqalə» kitabını çapa hazırlayarkən 15 məqaləni onun arxiv materialları əsasında yazmışdıq. Burada Mirzə Əbdülxaliq Yusif, Cəfər Cabbarlı, Əmin Abid, Səməd Mənsur, Əbdülhəmid Mina, Mikayil Seydi, Mirmahmud Nuri, Hacəli Pərişan, Mirzə Abbas Şahin, Ağadadaş Müniri, Möhnəti Bakuyi, Nəsir Baküyi, Əli Ağa Aləm haqqında məlumatlar, habelə folklorumuzla, qədim oğuzlarla və s. bağlı yazılar vardır.

Müznibin arxivində on altı bakılı şair haqqında məlumat və əsərlərindən nümunələr əldə etdik ki, bunları da "Əliabbas Müznib Bakı və bakılı şairlər haqqında" adlı kitabımıza daxil elədik. Burada Bakı haqqında Müznibin iki hissəli "Bakı" və Müznibin xətti ilə yazılmış Fuad Köprülüzadənin "Tarixdə Bakı" adlı yazıları da verilmişdir.

Mirzə Əbdülxalıq Yusifin, Səməd Mənsurun, Mirzə Həsib Qüdsinin, Mirzə Əbdülxalıq Cənnətinin, Hacəli Pərişanın şeir kitablarını da institutda müxtəlif formatlarda saxlanılan əlyazmalar əsasında nəşrə hazırlayıb, çap etdirmişik.

Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə çap olunacaq kitabların siyahısı tutulanda Anar müəllim mənim xahişimlə bakılı şairlərdən bir neçəsini nəzərdə tutmuşdu və onlardan Səməd Mənsur, Əmin Abid və Əliabbas Müznibin adı siyahıya salınmışdı. Həmin şairlərin kitabını çapa hazırlamaq Əlyazmalar İnstitutunun planına düşdü və mənə həvalə olundu. Bu kitabı çapa hazırlamaq üçün Müznibin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bütün çap kitablarını da araşdırmalı oldum və 20 kitab əldə etdim. Çapa hazırlayacağım kitaba onun şeir və hekayələrini daxil etmək qərarına gəldim. Əski kitabları ərəb qrafikalı əlifbadan müasir əlifbamıza çevirdim.

Əlyazmalar İnstitutunda çap kitabları xəzinəsində Müznibin nəşr etdirdiyi kitablardan dördü müəllif kitabıdır. "Ənbiya və islam tarixi" adlı kitabı vaxtilə Cahangir Qəhrəmanov çapa hazırlamış və nəşr etdirmişdir. "Tikan kolu" adlı şeirlər kitabını isə Samirə Gəncəli çapa hazırlayır. "Hürriyyəti-bəşəriyyə" otuz altı səhifə həcmində bir poemadır. Burada mürtəce qüvvələr, yalançı din xadimləri əsas hədəfdir. Müəllif millətimizin başına gələn bəlalardan söz açaraq, burada müsəlman adına, türk adına layiq olmayan işlər görən vətənsizləri tənqid atəşinə tutur. Əsərin qəhrəmanı həqiqi bir türk oğludur. O, vətənini sevir, millətinin tapdanmış hesiyyətini, əyilmiş vüqarını, talanmış varını görüb hayqırır, türk övladlarını keçmişə dönməyə, babalarının keçdiyi şanlı yola baxmağa, onları layiqli övlad olmağa çağırır. Əsərin dili müasir oxucu üçün qəlizdir. Kitabın əvvəlində «Əfkari-pərişan yaxud müzləm bir xəyal» adlı şeir verilmişdir:

Açdı əyyami-şəbabimdə şu dəhrü pirəzal,
Əğtər ara ruyimə bir rif'eyi-möhnəti-mal.
Mübtəsəm bir dilbər vicdanı etmiş mübtəni,
İştə qəm, iştə ələm, iştə kədər, iştə məlal.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qəmfəza bir mənzərə olmuşdu işbu kainat,
Ah!.. Çərx etmişmi kəndi mehvərindən intiqal?
Haizi-həsəm olur firdovsi-əlhamat həp
Şöylə əfkari-pərişan, şöylə bir müzləm xəyal.
Kövkəbi-tale gözümdə üfqi-atəşgahdır
Fəqrinə insanların tökməkdə nari-ixtilal.
İxtişaşati-zaman şol rütbə olmuş cilvədar!
Qərğeyi-zülmati-qəm olmaqda xurşidü hilal.
Həndəvər fəcri-şəbabim fərti-təqdiratdən
İxtiyarasa cəhani cəlb edər tirə ləyal.
İnsilalarçun nasıl bax, dari-işrətdardır,
İktisab eylər benəfsə şövkətü şanü cəlal.
Etilayi-şanını zahid şəriət zənn edüb
Didəduzi-dəsti-ədnadır edər sail misal.
Mənbesət etmişdi məscidlərdə kalayi-qərəz
Ah!.. etməzmi əxa fəh ani qəhri-Zülcəlal.

«Ürək yanğısı» kitabında bir hekayə verilmişdir. Bədii cəhətdən o qədər yüksək olmasa da, tərbiyəvi cəhətdən, dövrün ab-havasını əks etdirmək baxımından maraqlıdır. Burada varlı bir atanın oğluna məktubu və kasıb bir ananın-oduna getmiş oğlunu axtaran, tapa bilməyəcəyindən və çörəksiz, sahibsiz qalacağından qorxan bir qadının acıları paralelində varlı-kasıb problemi diqqəti çəkir.

Əlyazmalar İnstitutunda Müznibin 23 saylı fondunda iki kitabını əldə etdik. “Uşaqlara ibrət” adlı mənzum əsər

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

“Sabirin yadigarına ithaf” olunmuşdur. 1911-ci ildə çap olunmuş bu kitabın 1919-cu ildə çap olunmuş variantının mikrofilmi M.F.Axundov adına Milli Kitabxanada saxlanılır. Birinci çapda əsər 19 hissədən ibarətdir. İkinci çapda əsər olduğu kimi saxlanmaqla əvvəldə və sonda ayrıca şeir, kitabın üz qabığında aşağıdakı üç beyt verilmişdir:

Önümdə çeşmimin durmuş həyatü bisəbatimdən
Bir imanü xüruşan ki, əsər görməm nicatimdən.
Həlakətlər, fəlakətlər ötər həp xatiratimdən
Kədərləndim də incindim o rütbə sanihatimdən.
Həyatımdən küsüb getmək rica etdim məmatimdən
Məmati ən gözəl bir məkrəmət sandım həyatimdən.

Əsərin əsas ideyası mollaxana təhsilindən qurtulub yeni üsullu məktəbdə təhsil almağın gərəkliliyidir. İki nadinc uşaq qonşuları cana gətirdikdə ataları onları mollaya tapşırır. Uşaqlar quranın bir hissəsini öyrənirlər, sonra molla onları əvvəlki şagirdlərə tapşırır. Özbaşına buraxılan uşaqlar dərsdən qaçır, bağa gedirlər və bir sıra macəra yaşayırlar. Uşaqlar bir dəfə tövbə edib dərsə davam etsələr də, yenə də təhsilin yarıtmazlığından bezib təkrar dərsdən qaçırlar. Sonunda ataları «ağıla gəlir» və uşaqları üsuli-cədid məktəbinə verirlər. Onlar oxuyub biri mühəndis, digəri həkim olur. Müəllif bununla uşaqların nadicliklərini onların düzgün istiqamətləndirilməməsində görür. Köhnə fikirli ataların

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

zəmanəyə uyğun düşünmələrinin övladlar üçün gərəkli olduğunu diqqətə çatdırır.

Fondda saxlanılan "İbrət taziyanəsi" 1916-cı ildə çap olunub, həcmcə çox kiçik əsərdir. Bu əsərdə oruc tutub, namaz qılan ruhani bir ata, oğlunun bütün istədiklərini edir, onu ərköyün böyüdür. İyirmi iki yaşına çatan bu gənc taylarını başanı yığıb evləri talıyır, qohum-qonşu onun əlindən təngə gəlir. Dağısatana vəlvələ salan bu cinayətkarı hökümət də tuta bilmir. Lakin bir gün oğurluq malı bölərkən dava düşür və bir-birini vurub öldürülrər. Müəllif göstərir ki, sadədil bir insan elmsizliyi üzündən övladına pis tərbiyə verir. Ona elə gəlir ki, övlada məhəbbət onun bütün istəklərini yerinə yetirməkdir. Əsərin sonunda müəllif bütün Qafqaz əhlini ibrət etməyə çağırır və yeganə çıxış yolunu elm öyrənməkdə görür:

Aman Qafqaz övladı, ibrət edək!
Ülumə tərəf səyü qeyrət edək!

Milli kitabxanamızda "İbrət taziyanəsi"nin mikrofilmi saxlanılır.

Əlyazmalar İnstitutunda Müznibin əlyazması saxlanılan B formatlı bir qovluqda onun "Qazi Ənvər paşa" adlı bir kitabına da rast gəldik. Kitabçanın üstündə "Hürriyyət qəhrəmanı, Ədirnə fatehi, Dardanil müdafei" Qazi Ənvər Paşa" yazılmış və bir beyt şeir verilmişdir:

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Türkün əli, türkün gücü, türkün qılıncısan,
Minlər yaşa bu şanilə, ey sevgili Ənvər!

Kitab 1912-ci ildə çap olunmuş, cəmi səkkiz səhifədir. Əsərdə Ənvər paşanın mədhi və sonda "Hilallı Suyəmbikə qarşısında əməlpərvəranə bir xatirə" adlı şeirdə türklüyün tərənnümü verilmişdir.

M.F.Axundov adına Milli kitabxanamızda Müznibin xeyli əsəri saxlanılır. 1911-ci ildə çap olunmuş "Çəkməsilən" adlı əsərdə də maarif, elm və təhsil ön plana çəkilir. Kasıb bir oğlan anasını və bacısını dolandırmaq üçün çəkməsilən olur, amma arabir aldığı şəkilli kitabı da oxuyurmuş. Bir varlı onu görüb maraqlanır, kimsəsi olmadığını bilib onun məktəbə getməsi üçün imkan yaradır, həm təhsil haqqını ödəyir, həm də ailəsinə yardım edir. Əsər həm maariflənməyin gərəkliyini, həm də varlıların kasıblara kömək etməsini vurğulayır:

Kişi alim edincə bir kiçiyi,
Dərdi ömründə min «əməl çiçəyi»
Bəli, olsa cahanda himmət edən,
Xazini-elm olur ki, çəkməsilən.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əsərin sonunda müəllifin kiçik qeydi var: «Üzr: əsər üç saətdə yazıldığına görə səhvi-nisyanından qarelərin sərf-nəzər etməsini təmənna edirəm!..»

1913-cü ildə çap olunmuş "Sibirya məktubları" müəllifin oğlu Hüseynə hədiyyəsidir. Sibirdə sürgündə olarkən oğlu Ağahüseyndən məktub alır və oğluna "əşari-nasihanə" yazmağı qərara alan müəllif burada ayrı-ayrı anlayışları açıqlayır və bunu "vəzifeyi-bəşəriyyə" hesab edir. Burada «Ədəb», «Məktəb», «Elm», «Müəllim», «Əxlaq», «Vətən», «Əsgər» və bir sıra etik kateqoriyaların şərhi verilmiş şeirlər var. Təbii ki, bu nəsihətlər təkcə bir övlad üçün deyil, bütün vətən övladları üçün nəzərdə tutulmuşdur. Əsərin birinci hissəsində  Müznibin «Bəyani-məqsəd»i verilmişdir:

Bir şeyri-şairanə ilə gəzdi büsbütün
Ərzü səmayi fikr, xəyalım xəfiyyəsi.
Layiqli töhfə bulmadığından ki, etdi qəsd,
Oğlu Hüseynə göndərə "mənfa hədiyyəsi".

Bəyani-məqsəd

Sibiryada "Muxtəvi" adlı bir kənddə oğlum Ağahüseyndən aldığım məktubdur:

Gözümə görünməyən əziz atam! Mən tərəfdən sənə ziyadə ərzi-salam. Məni burada neçin qoyub getmişsən? Bəs nə vəqt gələcəksən? Məndən nigaran qalma, sübh

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əmim Əbülfəzllə gedirəm və dərsimi oxuyuram. Allah məni sənsiz etməsin. Həmişə ata deyərək gəzirəm.

*Oğlunuz Ağahüseyn*

Mənim dəxi atalıq naminə olaraq cavaba bu əşari-nasihanəyi ona yazdım. Lakin bu əşar yalnız onun namına yazılmışsa da mənfəəti-ümumiyi gözləyib yazdığımdan oxucu arkadaşlarımın dəxi məhəli-etinası olmasına ziyadə ümidavaram.

*Əbədi sürgün: Əli Abbas Müznib*

1913-cü ildə çap olunmuş "Dərviş Kəhkəşan" da maraqlı əsərdir. Əsər nəsrlə yazılmışdır, arada bir-iki nəzm parçaları vardır. Müəllif məqsədini sonda anladır. Dərviş oxuyub qurtarandan sonra camaat ona pul verir və dərviş bunu qiymətləndirir, deyir ki, siz hərəniz qəpik-quruş verməklə kasıblamadız, amma mənim bir həftəlik çörəkpulum yığıldı. Müəllif burada əl tutmağın faydasını göstərir. Həm də dərviş dilənmir, oxuyub camaatı şənləndirir və öz zəhmətinin qarşılığında yığılan pulu götürür.

"Qiraət" kitabı iqtibasdır, 1914-cü ildə çap olunmuşdur. Bu əsər nəzm və nəsrlə yazılmışdır, əsasən heyvanların diliylə təqdim olunmuşdur. Kitabın əvvəlində müəllifin qeydi var: «Bu kitabçada iyirmi altı ibrətli hekayələr cəm edilmşdir, yarısı nəsr, yarısı nəzmdir, ən açıq, ən sadə bir tərzdə yazıl-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

mışdır, hər kəsin oxuyub anlayacağı dərəcədə, bu kitabça istər böyük, istər uşaqlar üçün oxumağa əlverişlidir».

“Yaşayış özülü” 1916-cı ildə çap olunub, nəzmlə yazılmışdır. Müəllif burada yaşayışın anlamını açıqlayır. İnsana yaşamaq üçün gərək olanları göstərir. Necə yaşamağın gərəkliyini bildirir və iki xanın həyat tərzini misal göstərir. Müsbətlə mənfini qarşılaşdırır.

“Minbaşı Məhəmməd Tofiq bəyin zopası” 1919-cu ildə çap olunub. Əsər nəzmlə yazılmışdır. Kitabın üstündə aşağıdakı beyt verilmişdir:

Şieyi-ali-Əlini tazə islam etməyə
Zopası …. Zülfüqar hökmündədir.

Kitabxanada Müznibin “Yusif və Züleyxa” romanı da vardır. Kitab həcminə görə başqalarından seçilir. Əsəri İslam Ağayev nəşrə hazırlamışdır.

Kitabxanada yuxarıda adı çəkilənlərdən başqa daha beş əsərin mikrofilmi saxlanılır. “Əşrəfin macərası” 1916-cı ildə yazılmış, nəzmlədir. Burada bir quldurun cahilliyindən söhbət gedir. Hökümətin belə bacara bilmədiyi Əşrəf çox fironluq edir, hamının malını çalıb-çapır, nəhayət camaat yığışıb onu o qədər döyürlər ki, ölür. Ölüsünü belə basdırmırlar, hamı ona lənət oxuyur. Müəllif bundan hamının ibrət almasını istəyir və yenə də bunu cahillikdən irəlr gələn bir hal hesab edir. Hamını elmə, kamala çağırır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

“İnsaf güzgüsü” Sədinin “Gülüstan” əsərindən təbdil olunmuşdur. Kitabın üz qabığında «Məzmunu Sədinin «Gülüstan»ından alınmışdır» qeydi verilmişdir. 1916-cı ildə nəzmlə yazılmışdır. Burada bir əsiri dardan qurtarmaq üçün vəzirin şaha yalan söyləməsi, başqa bir vəzirinsə bu vəziri gözdən salmaq üçün onun yalanını açması, şahın isə xeyirxah vəziri alqışlaması və yaxşı yalanın pis doğrudan daha əfzəl olduğunu düşünməsi əsərin əsas ideyasını təşkil edir.

1919-cu ildə çap olunmuş “Rusiyyə qəhrəmanı Rasputin” kitabında birinci hissə də Rasputinin əməlləri satirik şəkildə təriflənir. İkinci hissədə isə II Nikolayın dili ilə Rasputin tənqid olunur, lənətlənir. Hər bəndin sonunda bu beyt təkrarlanır:

Təxtimi taracə verdin, dad əlindən, Rasputin,
Eylərəm fəryad, min fəryad əlindən, Rasputin.

“Xorasanın topa tutulması”nda iki əsər vardı. «Xorasanın topa tutulması» və «II Nikolayın cəzalanması». Birincisində topa tutulma səhnəsi, onun dəhşətləri açıqlanır. İkincidə II Nikolayın cəzalanması və ona qarşı, törətdiyi cinayətlərə qarşı lənətlər səslənir. Hər bəndin sonunda Müznibin şah beyti təkrarlanır:

Zülm evi bərbad olar gər Kəbətüllah olsa da,
Qan içən zatın içərlər qanın, Allah olsa da.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

"Tac-Mahal" 1916-cı ildə yazılıb, publisistik əsərdir. Müəllif burada Hindistanda şah Cahan tərəfindən tikdirilən, dünyanın ən böyük abidələrindən biri hesab olunan "Tac-Mahal" haqqında məlumat verir. Burada abidənin tikilmə məqsədi, ona sərf olunan vəsait, tikilişdə istifadə olunan daş-qaşların miqdarı, növü və s. göstərilir.

Kitabı çapa hazırlayarkən əvvəl nəzmlə, sonra həm nəzm, həm nəsrlə, daha sonra nəsrlə yazılmış əsərləri verdik. Çevirmədə bəzi fonetik dəyişikliklər etdik. Kitab ən çox məktəblilər, habelə oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## HÜRRİYYƏTİ-BƏŞƏRİYYƏ

*(Axundnümalara, cəlladlara,*
*İrticaiyunlara təqdim olunur)*

Təhəssürlə ey dideyi-giryədar,
Töküb qanlı yaş eylə zib əzar.
Düzülsün meckədə ürək qanları,
Mehrin edə… qəlbi-insanları.
Cəhani-fənadar hirmandı həp,
Həniri-pərvəran zibi-zindandı həp.
Hüquqi-bəşər cümlə məslub olub,
Əməl yarı əğyarə məhbub olub.
Qanatmışdı mir'ati-dəhri kədər,
Yaxar fəqr insana nari-şərər.
Necə uçmasın atəşin ahımız?
Olub bəsteyi-zülm şəhri-ahımız.
Necə çıxmasın naləmiz göylərə?
Müsibət yağar dəmbədəm yerlərə,
Necə olmayaq qərqi-ahü fəğan?
Bizə həbsi-dələtfəzadır cəhan.
Necə etməyək naleyi-cangüdaz
Ki, açmaqda yox qeyrə dəsti-niyaz.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Necə olmasın da bizə qəm füzun?
Bizim tək yox aləmdə qövmi-cəbun.
Bətalətlə sandıq bütün aləmi səhl,
Səfalətlə olduqda sərşar cəhl.
Olunduqca ehsas bu necə məlal,
Edər ruhi-vücudan bunu dərxəyal.
Baxılsa cəhan lövhəsi bimisal
Ki, bir rəq’eyi-qəmdi möhnəti-mənal.
Olur dərnəzər hər tərəfdən sitəm,
Çəkər gözlərə şö’lə nari-ələm.
Səngsər edib öylə cövrü cəfa,
Yanar cövrdən qəlbi-əhli-vəfa.
Edib qəflət olduqda cəhlə hədəf,
Fəna halə qaldıqda olduq tələf.
Nə asari-hümmət, nə kəsbi-məram,
Nə rüxsari-millətdə bir ibtisam.
Nə “huri-əməl” olmayır xəndədar,
Sərapa bizik qərqeyi-əğəbrar.
Qapımız əbədən elmə bir iltifat,
Cəhalətlə səlb oldu bizdən səbat!
Hanı bizdə insana layiq şərəf?
Bizik qəflətü cəhlə puri-xələf.
Hanı bizdə bir zati-şəfqətnişan?
Bizik bir-birə qatilü cansitan!
Hanı bizdə ərbabi-zövqi-səlim?
Bizik bir şərirü ləinü rəcim!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hanı bizdə darayi-elmü ədəb?
Bizik Əhmədü elm üçün Buləhəb.
Hanı bizdə bu müqtədari-zişə'ur?
Bizik cami-nəxvətlə məsti-ğürur.
Hanı bizdə bircə səxi əğniya?
Bizik bir xəsi mübtəzəl ənəsla.
Hanı bizdə bir aləmi-biriya?
Həqiqi səmimi ola rəhnüma.
Hanı bizdə amali- zövqü vəfaq?
Bizik mənbeyi-iftiraqü nifaq.
"İlahi!" Nə məzmən mərəzdir, düçar
Olub millət, olmaqdadır tarmar?
Nə baxmaz ləhəb ilə əxvanına,
Susamış şümr tək bir-birin qanına.
Nə etməzlər insan kimi "ittifaq",
Nə görməzlər aləmdə həzzü məzaq.
Qaranlıqda qalmışlar xəffaş var,
Ziyayi-ədəbdən məbri-dilar.
Nə əzdil əməlmiş bu qəmli həyat,
Nə möhnətli aləm imiş kainat.
Salıb büsbütün aləmi heyrətə,
Tfu! Belə mə'nası yox xilqətə.
Nədir İllətü xəl'ətü bizərur?
Cəfamı, səfamı, ələmmi, sürur?
Məhəbbətdir gər illəti xilqətin,
Hanı bizdə asari ünsiyyətin?

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Bişər parçalar bir-birin çün səbah.
Cəhan ərsəgahi-cidalü nizah.
Baxıldıqca insan zəlil və zəbun,
Cəhan fəna dəşti-dəhşətnəmun.
Bütün xakdan mə'rzü inqilab,
Şəmusi-əməli-mənkəsəfi-dər hicab.
Səma mə'kəsü qəlbi-cihali-dun,
Fələk vəz'i-şahan kimi vacigun.
Səhaibi-tərab üzrə azərfəşan,
Yənabii-ləbrizi-zəhr, rəvan.
Kəvakib gözə parlayır xamə tək,
Dəruni-qəra əbiz əmmamə tək.
Müəmmamıdır bunca əsi-əlasas,
Olub cümlə məzmuni qeyrəz qiyas.
Xəyalati-müzləmlə olduq fəna,
Bizə oldu o hami-əzzü əla.
Bizik didəduzan vəəddi-ədim,
Bizik bircə əhraqi-nari-nədim.
Keçər cümlə işimiz münafatla,
Behişt əhliyik hən xəyalatla.
Axar gündə minlərcə qan nafilə,
Yenə cənnətə bizlərik ailə.
Günüz qardaşın tirə amac edər,
Nəmaz ilə şəb ərşə me'rac edər.
Məşahir cəllad olan əsrdə
Nəbidən şəfaət dilər həşrdə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

O gün mollabazlıq olundu bina,
Yıxıldı evi aləmin bərməla.
Təəssüflər, ey ziqərəz müqtəda!
Fəna oldu sənə edən iqtida!
Bir ağıla aldatdın insanları,
Batırdın qərayə müsəlmanları.
Çəkib dami-təzvirə biçarəni,
Çıxartdın cibində olan parəni.
Edib gündə min hökmlər ictihad,
Cəhani edə cüllab inqiyad.
Nəzərdə tutub şani-şəxsiyyəti,
O cür qiymətə satdı milləti.
Adın seyqəlruh, özün sərf cənin,
Adın saleh, ama özün sərf cənin.
Gəzərkən əbəd şöhrət namilə,
Zəbun eylədin xəlqi o hamilə.
Xurafatla milləti paybənd
Edib, oldun ey pişva nəş'əbənd.
Düçar eylədin aləmi zillətə,
Baxarlar təhəssüratla vücudiyyətə.
Bəşər səncə ziynətmi qəmxanəyə?
Bəşər bumu səncə viranəyə?
Xuram eylədin elmi-əbdanı sən
Ki, təhrif etdikdə ədyanı sən.
Oldun daima millətü naciyə
Uzun bir məqalati-pərvahiyə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Nigun eylədin beydəqi-milləti,
Bütün oldular xaki-ğəm ziynəti.
Sərvi-şövqməndində zövqü sal,
Əzib milləti eylədin paymal.
Gedib əlli il elm təhsil edib,
Qur'ani-islamı təkmil edib,
Oldu müsəlmanlara xidmətin,
Nə məqsədlərə yetdi bu millətin?
Ədu gülmədə, millətin əşkbar,
Olub cümləsi layiqi-ehtizar.
Əgər varisi-ənbiyasan, axund,
Həqiqi bizə rəhnümasan, axund.
Hanı bəs vəzifəlikdə qüdsiyyətin?
Hanı təbqi-qanuni-ülviyyətin?
Plov, pulmudur səncə rahi-səvab?
Plov, pul görüb həqqə çəkdin hicab.
Bəşər ruhini eylədin çün rəsas,
Məgər yoxmudur səncə yövmi-qisas?
Nə vəqtə kimi qeyrə həmmal olaq?
Nə vəqtə kimi bari-kəşmal olaq?
Niyə ibrət almazsan əğyardən?
Müsəlman, aqla bu küffardən.
Düşün bircə bu qəbih imaləni,
Əsir etmə idbarə iqbaləni.
Bu fe'lilə çox olma xorsənd sən,
Aqam can! Həras eylə rişxənddən.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Oxun əldə, gədikdə səyyad var,
Kimi fəhməsir görcək etdin şikar.
Məqambaz olub gözlədin bir məqam,
Yazıq millətə qurdun axırda dam.
Xəyalilə əğfal edib milləti,
Ucuz eylədin onlara cənnəti.
Özinü ikinci xuda eylədin,
Əvamə behişti əta eylədin.
Kimisinə bəxş eylədin Kövsəri,
Kimisinə huriyi-məhneykəri.
Budur zöhdü təqva açılcaq sabah,
Otağə gəlib gözlə əqdü nikah.
Kimisini şayani-nar eylədin,
Kimisini valatibar eylədin.
Kimisinə ətayi-nazi-nəim,
Kimisini əlqayi-nari-cəhim.
Gəhi tutiya eylədin caməni,
Gəhi qübbeyi-ərş əmmaməni.
Yanar od edə həq sənin caməni,
Sarısın əyağinə əmmaməni.
Ağa ləqdə nə yetdi səndən bizə?
Səbəb, söylə, bunca mühəndən bizə.
Məkatibmi etdin cəhandə kəşad?
Mənafe’mi verdin zəhi-ədlü dad?
Hanı yazdığın bir siyasi əsər?
Kimə verdin aləmdə nəf’ü səmər?

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Bütün yazdığın xakə pirayədir,
Hamı rövzəxanlarə sərmayədir.
Oxudun yüz illərlə “fiqhi-üsul”,
Bəyan elə ondan nə oldu vüsul.
Əbəd xəlqə məscidi etdin bəyan,
İbarət məğluq “bəyanü məan”.
Xəyalati-müzləm qəriqü əyub,
Dediniz adına siz “siracəl-qülub”.
Həman elmdən cümləvüz dərs alıb,
Gəlib min cürə hökmə malik olub.
Hərə ani bir növ’i təfsir edib,
Yazıq milləti xar, təhqir edib.
Bəzi əcnəbilər ara paymal
Edib, elədiniz qərqeyi-infial.
Görüb səndə əl açmağı cahilə,
Ümumən dönüb mərdü zən sailə.
Cəhulanə qəsb eləmə minbəri!
Fəna fikrlə cayi-peyğəmbəri!
Nə surətlə sən ehtivayi-ülum
Deyilmişdi zəminində zat məlum.
Bumu, ey cənabi-şəriətmədar
Ki, qanun fərmani-pərvərdigar.
Budur zöhdü təqva açılcaq sabah,
Otağə gəlib gözlə əqdü nikah.
Bumu aləmin feli, ey diləfruz?
Ola kasibin dəstinə didəruz.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Baxınız, əcnəbi millətin alimi
Çıxardır göyə elmlə adəmi.
Cahanda yürür atəşin bir qabar,
Bəli, bir bizik millәti-xərsuvar.
Bütün əcnəbi məsti-nazü ğina
Fəqət bir bizik məhvi-rənci-əna.
Dolub yer üzü ixtiraatla,
Fünunla bədaye' kəmalatla.
Sənaye'lə əğyar baladədir,
Səfalətlə islam candadədir.
Siz olduqca dildadeyi-qəbri-laf,
Şəriətdən etdi bəşər inhiraf.
Həram etdigin işlərə daima
Özün talib oldun nədənsə, ağa?!
Varındırsa nəhində həzzi-lətif
Bu fitvayi-vahi nədir, ay hərif?
Həram eylədin elmi nisvanə sən
Bu xidmətmidir etdin imanə sən.
O məzlumələr oldu məhkumi-ğəm,
Və mey? hökmi-ey aləmi-möhtərəm,
Bir arvad gəlib söyləsə gər sənə,
Axud, eylə bir istixarə mənə.
Deyərsənmi, öldüm ona, ay ləin,
İtil bir kənarə, olurmu əmin?
Bu tövriləmi səndə dini-mübin?
Həzar afərin, afərin, afərin.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Sənin Yəmən şumundan, ey rəhnüma
Axar xakə minlərcə nahəq dama.
Uyub millət olar təbəh də qəflətə.
Baxar çox həqarətlə millətə,
Cəhalətdə qaldıqda gördün zəval.
Görünməz dəxi zərrə hüsnü kəmal,
Əhali düşüb öylə əncamdən,
Edər qeyrilər nifrət islamdən.
Bəşər cəhldən cümlə səyyad olub,
Öz ixvanına qanlı cəllad olub.
Tökərlər yerə gündə minlərcə qan,
Edər övci-balaya ahü fəğan.
Üzarına qan-yaş tökər madəran,
Oğul vay səsilə dolubdur cahan.
Ola ləinü nifrət böylə qatilə
Ki, ağlar qoyub hədsiz ailə.
Atıb qə'ri-nisyanə həp qeyrəti,
Sanar şan kəndisinə sərvəti.
Yaxar aləmi nari-bidadən,
Cahan titrəyir ahü fəryaddən.
Vətən oldu atəşgəhi-ixtilal,
O bidin etməklə yəğmai-mal.
Açar noinə aləti-atəşin,
Yıxar torpağə peykərü nazənin.
Salar xaki-izayə qardaşını,
Tökər aləmin qanlı göz yaşını.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bu vəhşiyyəti ol ləaməti-əsər,
Özünə bilir ən sevimli hünər,
O bidin bunu bir xəyal eyləməz,
Bu bir işdir, sahibkəmal eyləməz.
Edərmi kişi qətl ixvanını?
Tökərmi yerə zülmlə qanını?
Könül vermə ədnalar ən'amına,
Bir ənama aldanma həq namına.
Sağ ol sövtinə uyma nadan kimi,
Yaşa izzilə şanlı insan kimi.
Müsəlman, nədir böylə xunxarlıq?
Fəna iş deyildirmi qəddarlıq?
Kəlami-əlhiyyəni bir aç oxu,
Düşün gör nədir nəhri-la təqətlu!...
Bu qətlü bu qarət müsəlmandan
Göründükcə bir əhli-qur'andan
Gəlir qeyridən sövt hər an tfu!
Tfu! İkruh müsəlman, tfu!
Usan, bircə ey qanlı cəllad, usan,
Usan, çıxdı əflakə fəryad, usan.
Nə olmuş bu cəngi-cidalə səbəb.
Qırarsız bir-birlərin cani-bələb.
Əsarətmi diltəng edib sizləri?
Göründümü hürriyyətin dilbəri?
Edibdirmi "hürri-əməl" əncəla
Bu zülmət nə olmuşmu qərqi-ziya?

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Hökumətmi, artırdı bidadını?
Qoyub zülm biğayə bünyadını.
Nə vallahi cəllad, bir ar qıl,
Edib ar, təğyiri-əfkar qıl.
Bu da sözmüdür, ey ənidi-zülam,
Filankəs mənə verməyibdir səlam.
Gərəkdir onu vacibən öldürəm,
Əyalını nari-qəmə yandıram.
Bumu qeyrətü nəng, namusü ar?
Həzər eylə cəlladi-zülmətşığar!
Var isə əgər qeyrətin, himmətin!
Əlac eylə ələminə millətin.
Düşüb vəhşətə cümlə islamiyan,
Təzəlzəl pəziran etmiş cahan.
Göz aç, eylə İranə ütfi-nigah,
Əsir olmada zati-ğüfranpənah.
Sərü pa ki, əbnayi hər yetən?
Kəsilməkdə yəhyayi-hərbətən
Olub atəşi-zülmü kin iştial
Ədalət sevənlər bütün payimal.
Sitəmpərvəran olmada izdiyad,
Olub şüğli-məzlum fəryadü dad.
Yağar fərqi-insanə narü cəfa,
Məzalim yaşar həclədə basəfa.
Edər təkyə zalimi-mətkalərə,
Bəzək oldu əhrar mənfalərə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məzarından, ey Nuh, dur bir zaman,
Düşüb gör nə tufanə iraniyan.
Tamaşaya gəl, ey kənəmi-xuda,
Bax, İranda Fironə et mərhəba.
Əhalisin etmiş o rütbə qətil,
Axar xun məzlumdən rudi-Nil.
Əminəm bu iman olur möcüzən,
Yıxar heykəli-zalımı təxtdən.
Batar çün əhrarə firovniyan,
Fənayə uyur zalımani-zəman.
Dönər turi-Sinayə ol xaki-pak,
Öyər də olur şəmsi-həqi-tabnak.
Həsəd bəxş olur tirə iqbalımız,
Gülər zövqlə huri-amalımız.
Sərazir olur beydəqi-zülmü kin,
Tutar aləmi afərin. Afərin.
Aman, durma bir dəm kənarə, “qələm”!
De cəlladi-zəmin dübarə “qələm”;
Fəğan, bidətindən fəğanü fəğan!
Əya, zalimü qatilü canistan.
Kömək istəyir aləm əğyardan,
Rəha olmağa zülmi-cəbbardən.
Basıb gör necə cəngü vicdanını,
Vurub öldürürsən öz üğvanını.
Mürüvvətmidir ah!.. Ey naxuda,
Ola şanlı ixvan qəriqi-duma!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Axa qardaşın qanı nahaq yerə,
Bata madərü xahəri qəmlərə.
Bu himmətmidir səncə, ey laşəur?
Külahın qoyub kəc edirsən qürur?
Nə məğrur olursan bu vəhşiyyətə,
Nə fəxarisən böylə ziddiyyətə.
Siyadətmi cəlladlıqla olur?
Cəsarətmi bidadlıqla olur?
Səd əfsus!.. bu hüsni-rəğbətmidir?
Hünərməndi-dövranə qeyrətmidir?
Şikəmpərvəran tək bir ənğamla,
Yaşarsan cahanda min alamla.
Edib noukəsi "mərmiyyatə" nişan,
Olursanmı xəndan həp kamiran?
Gülər əcnəbi vəhşi rəftarına,
Təriz toxunmazmı əfkarına.
Fəna fikirdir kim, cəhalətdəsən,
Olarsan adəm bu səfalətdə sən.
Nəğuzindimi qətli-ixvan sənin?
Mədarındımı zülmü tüğyan sənin?
Tfu! Beylə namusilə qeyrətə
Ki, mail edər sahibin bid'ətə.
Dikləsə hübasında lafü kəzaf,
Açılmış buyur ərsəgahi-müsaf.
Sanırsan əgər kəndini qəhrəman,
Budur qanlı meydan, budur imtahan.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bax, ol yerdə əqvami-əhrarəsən,
Hünərmənd olan şanlı sitarəsən.
Fədayani-hürriyyətə et nəzər,
Qoyublar bu yolda neçə canü sər.
Nədir onlara həp cahü cəlal?
Nədir onlara zövqi-mülkü mənal?
Nədir mal, dövlət, nə kəsbi-dərim,
Durub cümlə əllərdə seyfi-təqim.
Ürək dağlayır ahi-məzlumlar,
Cahan yandırır dadi-məğmunlar.
Həfuq bəşər məhv olubdur bütün,
Olur günbəgün zülm, zillət füzun.
Lay ədalət yıxılmış yerə,
Əhali düşüb dərbədər çöllərə.
Əzilmiş rəiyyət nə bilsin əlac,
Ümumi olub gəşteyi-ehtiyac.
Müavin gərək olmalı bunlara,
Şana verdilər qanlı imanlara.
Tələb etməli həqqini millətin,
Qırıb atmalı qeydini zillətin.
Təbəsbəs nədir qaniçən zalımə,
Salıb zəlzələ zülmlə aləmə.
Edər mütləqiyyətlə daim mədar,
Rəiyyət olub cümlə biixtiyar.
Gəzər, "madmazellər" içində müdam,
Cəmaət əsir gər vəh zülam.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Vəli dövlət olduqca sağəri-bidəst,
Rəiyyət olub cümlə malpərəst.
Qazan fəhlə zillətlə fəsli-şita,
Götür müəllayə, sənə etsin dua.
Bu əf'al insanmıdır? Ah!.. Ah!..
Oyan qatil, aç dideyi-intibah!..
Vətəndə olub qaniçən hökmdar,
Vətənzadələr olmada tarümar.
Olub calisi-təxt Zöhhaklər,
Açıldı bizə dəsti-səffaklər.
Çırağі-həqiqət bulub intifa,
Qalıb əbrdə mehri-taəti-zəda.
Səhabi-sitəm tökdü qəm narini,
Xəzan etdi millət əməlzarini.
Xərab etməyə zülmdən dəmbədəm,
Yetir mülkə dəhşətli seyli-ələdəm.
Tapılmaz əhali üçün qəmküsar,
Təzayid edər günbəgün əngüsar.
O şanlı vətən ol riyazi-vəfa,
Olub haliya kani-zülmü cəfa.
Yanar atəşü qəhrü hükamdən,
Xilas olmayır bir dəm alamdən.
Əhali çəkər naleyi-atəşin,
Vətən sahibi daim işrət gözin.
Təəssüflər ey ğasibi-təxtü tac,
Qan ağlar cəmaət itib ibtihac.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əzaxaneyi-nas olmuş vətən,
Ürək parçalar naleyi-mərdü zən.
Həzin ağlayır cümleyi-mümkünat,
Bir atəşgəhi-zülmdür kainat.
Ədu olmada şövqlə kamyab,
Fəqət milləti-binəva dilkəbab.
Solub qönçə çağında həp gülüstan,
Fəğanilə od yağdırır bağban.
Deyir ah… ey gülşəni-izzətim,
Musərmi oldu sana möhnətim?
Saraldın da soldun da tezliklə sən,
Deyildi adın dildə dari-mühən.
Həqiqətdə, ey kani-nüzhət, səni,
Tutardım xəyalımda cənnət səni?
Səniydin bizə bir tükənməz pənah,
Güşadə dərunundə ümidgah.
Hanı atəşin nitqli natiqin?
Hanı hər əfkarlı sadiqin?
Cahangiri-pərvərdin, ey dari-həq,
Səmavatə salmışdı nurun şəfəq.
Yaxıldınmı, nari-cəfa ilə sən,
Dağıldınmı dəsti-əza ilə sən.
Açıldımı, ey məclisi-atəş, sənə,
Ziyafətgəh olmaqdasan düşmənə.
Yanar qəlblə mən sənə ağlaram,
Eylə ağlaram aləmi dağlaram.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Gözümdən axan yaşı seyl eylərəm,
Bu Fironi mən qərqi-Nil eylərəm.
Budur virdim, ey dari-rəhmət qərin,
Gərək tapdamaq zalımın heykəlin.
Həmiyyətlə olmaq gərək canfəşan,
Yıxılsın yerə dari-zülmətnişan.
Nə qəm, ölməyə daim amadəyik,
Əsirik demə, cümlə azadəyik.
Təməllüq cəfakara yetməz yəqin,
Məkrzadeyi-xəbis əməlləin.
Yolunda əgər doğranam bənd-bənd,
Olur məncə bir taəti-həqpəsənd.
Yolunda mənə zinət olsa rəsən,
Təşəkkür edib eylərəm fəxr mən
Ki, sənsən mənim dari-vəcdiyyətim
Ki, sənsən mənim daimi cənnətim.
Cahan cismdir sən ona ruhsan,
Cahan gənci-zülmət, sən yuhsan.
Həqiqət vücudindi zibi-vətən!
Sənin, ey ziyadar olan əncümən!
Minur olur sənilə ərzi-səma,
Olur sənlə xəffaş zəbani-fəna.
Ki sənsən kövni üfqi-hürriyyətin,
Təbii-nişangahısan xilqətin.
Əsarətdə, qəflətdə qalmış bəşər,
Sənə oldu dildadə bacanü sər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Olub öylə sərməst cami-vüsal,
Ediblər bütün tərkü əhli-əyal.
Nə verməz firib  onlara simü zər,
Olub cümləsi mərkəsinə sipər.
Dönüb dəşti-meynənə İransəra,
Tamaşaya çıxmış Xəlili-xuda.
Yatıb yanbayan canfədayi-vətən,
Məzari-ədəm içrə qanlı kəfən.
Yaraşmaz bizə tifl tək ağlamaq,
Gərək əzmi-rəzmə kəmər bağlamaq.
Necə olmasın zülmə ikrahımız
Ki, cəlladi-xunxar olub…
Səd əhsən, sənə, ey … bədnəcad,
Olub xun cismin sənin əncəmad.
Əsər bəxş olmazmı bunca fəsad,
Sənə, ey ….. zalim, Zey'ənad?
O rütbə yetib millətə zillətin,
Cahan əhlinə fərzdir nifrətin.
Səzadır öyüb müstəbidiyyətə,
Düçar olmasın lənətə, nifrətə.
Xuda namını qoydu zili-xuda
Ki, zallində rahət ola binəva.
Ədalətdi daim vəzifən …..
Ədalətlə millət edə etila.
Müsavat olubdur sənin taətin.
Sərəfraz ola dəhrdə millətin.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Bu təxtü bu tacilə həp ziynətin,
Təkamül olur olsa hürriyyətin.
Hanı səndə bunlardan, ey zülmkar?
Əbəd məstsən daim əşərri-təzkar.
Ədalət odur səncə əhli-vəfa
Ola peykəri zibi-xaki-cəfa?
Müsavat odur səncə əhli-vətən
Ola daimən giryədarü mühən?
Odur səncə hürriyyət, ey məl’unət,
Ola hökmdari-vətən şeytanət?
Yıxılsın sənin heykəli-zülmətin,
Yana atəşi-qəhrlə şövkətin.
Olub mərci-bidət məzacın sənin
Ki, tabut ola təxtü tacın sənin.
Məxrəb: nədir, bu necə bərbadlıq?
Sitəmkar, nədir bunca bidarlıq?
Xərab etdin kişvəri, zülmdən
Vətənzadələr qərqi-dərdü mühən.
Səfabəxş olan kişvər, ey şəhriyar,
Olub zülmlə qəmli viranəzar.
Sən etdikcə övladını giryədar,
Manənd üzü olmada xəndədar.
Əziz eylədin xaini-milləti,
Vətəni-Yusifin çahi-qəm zinəti.
Röyaya qəmü möhnət ilə mihat
Sən aludeyi-zövqü eyşü nişat.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Vətəndə olub şö'ləvər tari-qəm,
Hünəri-pərvəran paymali-sitəm.
Vücudun sən et zibi-bəzmi-şərab,
Əhali ola fərt qəmdən kəbab.
Saqın, eyləmə bunca ərzü fəsad,
Əhali olub paymalü ənad.
Sən olmaqdasan əşirətə dilfirib,
Cəmaət zəlilü zəbun naşəkib.
Olub zülmün ol rütbə atəşfəşan,
Xərab oldu dari-səadətnişan.
Çəkib tiğ xəsmanə ki biqiyas,
Fəna etdin ən gözəl bir əsas.
Ki ondaydı ümmidgahi-millət,
Ani etdin axır düçari-xələl.
Oyan, Xosrovum, getdi Şirini-vətən,
Kəmingahdə gözləyir kufəkən.
Rəqiban olur sahibi-məmləkət,
Keçir dəsti-əğyarə bu səltənət.
Olar əhli-islam, xuvari-zəbun,
Layi-həqiqət olur sərnigun.
Qopar şübhəsiz onda tufanımız,
Vətənmiz olur qəmli zindanımız.
Gülüstani-millət sitəmlə solur,
Vətən həfreyi-nari-zillət olur.
Həqiqət müsibət deyil də nədir?
Bəşərçün əsarət deyil də nədir?

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Olursa əgər .... bu rütbə ənid,
Təbiidir izzət olur napədid.
Götürsə başın qəbirdən “Mustafa”,
Tutar şübhəsiz ümmətinə əza.
Əlinə alır qarə bir dəstmal,
Üzarinə cari edər əşki-al.
Bizə öylə bir halla ağlayar,
Bəli, ağlayar, aləmi dağlayar.
Əminəm çəkər “xətamül-ənbiya”
Yanar qəlblə dadi-vamillətə!..
Xütəba deyər ah,.. ey bədnəhad,
Bu nə zülmü nə fitnədir, nə fəsad?
Nə zəhmətlə kəsbi-məram eylədim,
Ölən milləti zində nam eylədim.
Bu millət yolunda mənə eşqiya
Əbəd eylədilər zülm biintiha.
Şəksiz etdilər kah dəndanımı,
Axıtdılar ruxsarimə qanımı.
Gəhi etdi edamını səngsar,
Sitəm ilə bişanımı zəxmdar.
Ki oldu yerim zülmdən gənci-ğar,
Cahanda ola millətim bəxtiyar.
Düçar oldum aləmdə min zillətə,
Yetə millətim şanü ülviyyətə.
Əbəd kainat içrə dilşad ola,
Qiyudati-izadan azad ola.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əsarətdə məhv olmaya millətim,
Fəna olmaya vəzi-milliyyətim.
Səadətlə etsinlər kəsbi-həyat,
Həmiyyətlə əhrazi-əzmü səbah.
Hər ol millət eyki ola ziri-dəst,
Olar daima zülmdə payibəst.
Olur cümlə məhkumi-ziyqi-cəfa,
Yetər onlara daima min bəla.
Hər ol qövmdə olmaya "ittifaq",
İçərlər əbəd zəhri-hicrü fəraq
Cigər dağlı, göz yaşlı zarü həzin,
Uçar cümləsindən səmaya ənin.
Təəssüf edərkən cənabi-rəsul,
Məzar içrə məhzun zarü məlul.
Olar qəlbi-zarində qəm şö'ləvər,
Tökər gözlərindən üzə əşki-tər.
Sənə hər zaman ləinü nifrin edər,
Nə nifrin edər, bəlkə tövhin edər.
Səzadar sənə nifrət etsin cahan,
Əgər kainat qulsa da lə'ni-xan.
O zülm eyki səndən yetib millətə,
Yezidi səza eylədin rəhmətə.
Əminəm bu göstərdiyin ictihad,
Məzarında güldürdü Zöhhakı şad.
Bu izayi biqayeyi-nabica
Nəsib etdi Fironə çeşmi-bina.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Açıb göz görə zülmünü şümri-dun,
Gümanım budur yendirir əşki-xun.
Əgər hiss edə zülmünü xakdə,
Yanar əzmi-Nəmrud, Zöhhak də.
Həsəd bəxşi-Şəddad olub zillətin,
Şərərpaş olub aləmə bid'ətin.
Vücudunda balzat olan bid'əti,
Hissinin ola calibi-diqqəti.
Fəramuş edər Kərbəla möhnətin,
Əmin ol, əmin ol, əmin ol, əmin.
Dəhan, təəssüf, açar ol şəhid,
Tutar millətə bir əzayi-cədid.
Dur, ey neynəvada yatan qəhrəman!
Tərab içrə qanlı bədənlə yatan.
Aç əqvami-ismamə çeşmi-nigah,
Necə zülmilə, bax, olurlar təbah.
Əsiri-yədü qum səfakdır,
Bəşər cümlə pirayeyi-xakdır.
İtib zülmdən həp səfayi-vətən,
Təzəlləm nəmundur fəzayi-vətən.
Nədir, Müzniba, bunca tuli-kəlam?
Bu beyt ilə əş'arını et xitam:
Yaşa, ey səadətli sərdarımız,
Yaşa, ey həmiyyətli … mız.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## SİBİRYA MƏKTUBLARI

*Oğlum Hüseynə mənfa hədiyyəsi*

### Mənfa hədiyyəsi

Məhəbbət, nəsihət, məzirət,
Ey dili-zarımın qərarı Hüseyn,
Gülşəni-ömrümün baharı Hüseyn.
Gözlərimə işıq, ürəyimə təvan,
Sənsən, ey cism içrə rühi-rəvan.
Sənsən amalımı edən təqib,
Olacaqdır fəna səninlə rəqib.
Edəcəksən sən adəmi ehya,
Çox ləyaqətlə, var ikən dünya.
Sən əgər olmasan fənadır işim,
Nabicadır bu qədri keşməkeşim.
Sənsən axır mənim əməl çiçəyim,
Sevgili nazənin gözəl mələyim.
Asimani-ədəbdə mahımsan,
Kişvəri-mərifətdə şahımsan.
Edəcəksən vətəndə sən, zira,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Tutduğum məsləyi bütün icra.
Oğul, əbqayi-nəslə qüdrətdir.
Ən gözəl, ən sevimli nemətdir.
Atanın izzəti oğludur, oğlum,
Qolunun qüvvəti oğludur, oğlum.
Oğul olmazsa, məhv olur adı,
Dağlanar qəmlə qəlbi-naşadı.
Məqsədin gözləməksə hörmətimi,
Eşit ərz etdiyim nəsihətimi.
Tapmadım başqa şey bu səhrada,
Sənə göndərməyə bu mənfada.
Yazdım ancaq neçə vərəq əşar,
İstəsən arlı san və ya biar.

## Ədəb

Çalış, eylə cahanda kəsbi-ədəb,
Odur insanlığa bunca səbəb.
Xəlq içində olarsa gər ədəbin,
Yad olar rəhmətilə cəddi-əbin.
Ədəbin olsa, töhmətin azalır,
İzzətin, hörmətin dəxi çoxalır.
Hamı gördükdə söyləyir əhsən,
Ən sevimli kişi olarsan sən.
Xoşlayırlar müdam söhbətini,
Saxlayırlar müdam hörmətini.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Səni heç bir zaman unutmazlar,
Daş kimi bir kənara atmazlar.
Xəlq daim qaçar ədəbsizdən,
Əski bir şey kimi düşər gözdən.
Ədəb insanı möhtərəm eylər,
Ədəb insanı zulkərəm eylər.
Ədəb aləm içində gövhərdir,
Cismi-insanda ruhi-cövhərdir.
Ədəb ilə yaşar gözəlcə kişi,
Ədəbi olmasa, fənadır işi.
Mehri-insan, oğul, ədəbdir, ədəb,
Şəmsi-ürfan, oğul, ədəbdir, ədəb.
Ədəb ilə bəşər kəmalə yetər,
Ədəbi olmasa, zəvalə yetər.
Ədəb ilə kişi olur varlı,
Ədəb ilə kişi olur arlı.
Dolan, oğlum, ədəblə dünyanı,
Sənə qurban bu Müznibin canı.

**Məktəb**

Qabil ol, arif olmağa səy et,
Harda məktəb var isə məktəbə get.
Məktəb aləmdə darül-ürfandır,
Məktəb izzətfəzayi-insandır.
Məktəb adəmləri edər insan,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Məktəb eylər çətin işi asan.
Məktəb olmazsa, lal olur aləm,
Cümlə darül-məlal olur aləm.
Məktəb olmazsa, intibah olmaz,
Cəhli-qəflət sönüb təbah olmaz.
Məktəb olmazsa paslanar hisslər,
Törəməz müqtədir mühəndislər.
Məktəbin bəhrəsin görən ərbab,
Daim olmuş nicat üçün rəhyab.
Məktəbin qüdrətü məharətini,
Bilmək istər isən səadətini,
Al oxu xəmsəti-Nizamini,
Şeyx Firdovsinin kəlamini.
Oxu həm Sədinin "Gülüstan"ın,
Anla, oğlum, siyasətin canın.
Məktəb ərbabi cümlə danadır,
Şeyx Loğmanla İbn Sinadır.
Məktəbin iqtidari-adabi
Bəsləmişdir Həkim Fərabi.
Məktəb icad edib cahanda füzun,
Arximed, Ərəstu və Əflatun,
Adəmi adəm eyləyər məktəb,
Elmlə həmdəm eyləyər məktəb.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## Elm

Ey mənim nazənin, gözəl oğlum,
Sənsən əltafi-ləmyəzəl, oğlum.
Zirək ol, həm işində mahir ol,
Gün kimi qüdrətinlə zahir ol.
Elm təhsilinə çalış daim,
Oxuyub-yazmağa alış daim.
Aləmə yoldaş ol, məhəbbət qıl,
Oxu, yaz, aləmə meyli-rəğbət qıl.
Elmi-ikram aləmi qazanır,
Elmdən bax şəməndü fər yaranır.
Elmdir eyləyən balon icad,
Elmdir aləmi edən abad.
Elmdir mənbeyi-fünuni-hənir,
Elmdir məzhəri-səfavü səmər.
Elmlə bəxtiyar olur insan,
Elmlə huşyar olur insan.
Elm qəbul edər bütün bəşəri,
Elm zail edər həmişə şəri.
Elmdir cahili edən alim,
Elmdir xəstəni edən salim.
Elm kəşşaf edib Kolumbayı,
Elm kəşf edib Amerikayı.
Oxu elmi demiş rəsuli-xuda,
Doğulandan ölənədək əbəda.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Çində də olsa get oxu, öyrən,
Ol cahani-hünərdə bəhrə verən.
Oxu yeksər ülumi, dana ol,
Qadir ol, hər ümurə, dara ol.

## Müəllim

Məktəbə getdiyin zaman hər vəqt,
Eylə, oğlum, müəllimə hörmət.
Kainatın gözü müəllimdir,
Kainatın sözü müəllimdir.
Odur insanlara verən təlim,
Odur elmü fənni edən təmin.
Odur əxlaqi eyləyən təhzib,
Odur əfkarı eyləyən tədib.
Ruhi parlaq edən müləlimdir,
Həqqi əhqaq edən müəllimdir.
Qabiliyyət onunla nəsb olunur,
Adəmiyyət onunla kəsb olunur.
Çünki ruhani atadır bəşərə,
Tab edər dürlü-dürlü şurü şərə.
Gər peyğəmbərimiz desəm müəllim mən,
Doğrudur bavər eylə, oğlum sən.
Bəlkə ondan da qədri əladır,
Ənbiyadan müəllim övladır.
Millətinə gözəlcə xidmət edər,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Xəlqi şəhrah elmə dəvət edər.
Qəflət ilə keçirməyir ömrün,
Sərv edir himməmtilə göz nurin.
O kimi zatə ehtiram etmək,
Ən birinci vəzifədir bişək.
Eylə oğlum, müəllimə hörmət,
Qoy mənim boynuma ağır minnət.

**Əxlaq**

Gözəl oğlum, çalış xoş əxlaq ol,
Möhtərəm ol, əziz afaq ol.
Xoş dolan xəlq içində xoş söylə,
Şanlı ol, xəlqə yaxşılıq eylə.
Xoş olarsa cahanda əxlaqın,
Xoşlanır növən ilə xəllaqın.
Birini qəhr ilə usandırma,
Xar, məhzun edib utandırma.
Kimsənin könlünü əzib sıxma,
Beytül-əzimdir, ey oğlum, yıxma.
Acı sözlə danışma, vermə cavab,
Yıxma əxlaq evini, etmə xərab.
Birisi qanmayıb qartsa gözün,
Qəhrilə söylər isə əyri sözün,
Sən dəxi qəhr edib çıxartma gözün,
Qandır islahilə üzarə sözün.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qəhr yaxşı sözü fəna eylər.
Bəşər üçün zərər bina eylər.
Qəhrilə daima yanar insan,
Sözü islahilə qanar insan.
Qəhrdən kimsə yetməmiş xeyrə,
İşi salmış həmişə naxeyrə.
Söylər isən əgər sözü yumşaq,
Lazımınca qanar böyük və uşaq.
Qaç oğlum, qəhr tək pis adətdən,
Səni məhrum edər səadətdən.
Xoş təbiət tapar həmişə nicat,
Xoş təbiət tapar həmişə həyat.

**Təavün**

Mümkün olduqca, ey gözüm nuri,
Füqəraya himayət et fövri.
Düşgünə qıl kömək beduni-sükut,
Yıxılan kimsənin əlindən tut.
İki köynək varınsa, şövqilə
Çılpağa əta eylə,
Yurdu yox binəvaya yatmaq üçün
Yurd ver axır qəmin dağıtmaq üçün.
Deyil insaf səy yeyib-yatasan,
Yurdsuzu dışarə qəhrilə atasan.
Bu deyil hikməti-təbiət, oğul,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bu deyil iqtizayi-xilqət, oğul.
Bir-birə eyləmək üçün imdad,
Olmuş insanlar aqibət icad.
Bir-birinin çətin işin asan
Borcludur etməyə bütün insan,
Budur Allah hökm edən birlik,
Budur insanlara olan dirilik.
Əqila bu işi qəbul etmiş,
Büsbütün arizusuna yetmiş.
Böylə məqul işi gözüm daim,
Elə nazlı vətəndə sən qaim.
Bu iş ilə vətən olur abad,
Bu hünərlə vətən olur dilşad.
Edəcəksən bu iş ilə əfzun
Qəbirdə ruhi-Müznibi məmnun.

## Vətən

Ey canımdan ziyadə sevdiciyim,
Mələyim, sevgilim, gözüm, bəbəyim.
Sağ ikən sərf qıl, eylə himmət,
Vətənə, millətə eylə xidmət.
Vətənin həbyi-cüzvi imandır,
Bəlkə bir qibləgahi-insandır.
Vətəni sev, Vətən səni sevsin,
Sənə min dürlü mərhəmət etsin.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Odur insanlara edən şəfqət,
Odur insanlara verən nemət.
Naz ilə bəsləyən odur bəşəri,
Öyrədən qüdrətilə min hünəri.
Mə`dəni-lütf, mənbəyi-ehsan,
Vətən övladına vətəndir, inan.
Vətəni sev, sevməli canandır,
Aşiqi-cümlə əhli-ürfandır.
Nə qədər xidmət eləsən vətənə,
O qədər iltifat edər o sənə.
Olma sərgərm boş ibadətlə,
Heç pəsənd olmayan itaətlə.
Həzrəti-həq, ey mənə sərtac,
Bu ibadətlərə deyil möhtac.
Qadir Allahımız Vətəndi, Vətən,
Sevgili şahımız Vətəndi, Vətən.

## Əsgər

Vətənin hifzinə həmiyyət et,
Vətən uğrunda bəzli-himmət et.
Vətən övladına Vətəndir ana,
Ehtiram et, oğul, müdam ona.
Vətəni saxlamaq üçün yeksər,
Qəhrəman əsgər olmalı əsgər.
Öylə əsgər ki, hər işə dana,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bütün əsrin ümurinə dara.
Şah lazım olanda şah olsun,
Millətə qüvvəli pənah olsun.
Özünü xilqətə seyrdə qatsın,
Hərb vəqti tüfəng alıb atsın.
Lazımi yerdə etməyib əğfal,
Zabit olsun əsagərə dərhal.
Durmasın hicləgahi-izzətdə,
Üzməsin milləti səfahətdə.
İttifaqən olan işə möhtac,
Cəzidə olsa bilməlidir əlac.
Doktor elmin gərək dəxi, bilsin,
Yaralı xəstəyə dəva qılsın.
Əgər təsadüf edərsə yer ölçmək,
Alıb ölçsün o dəm mühəndis tək.
Ver yeyim, ört yatımla iş olmaz,
Millətin qarnı və cibi dolmaz.
Vətəni saxlamaqsa qəsdin əgər,
Böylə bir əsgər ol, gözüm, əsgər.
Gərək ol vəqtdə kəfən geyəsən,
Ya vətəni- yauləm gərək deyəsən.

**Məşvərət**

Bu neçə nöqtənin məbası, oğul,
Məşvərətdir bütün əsası, oğul.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Məşvərətsiz bu işləri, zira,
Qeyri-mümkündür eyləmək icra.
Məşvərət ən birinci qüdrətdir,
Məşvərət bəhri-zor, qüdrətdir.
Məşvərət göydə bərqi-lamedir,
Məşvərət yerdə tiği-qatedir.
Məşvərət qarşısında gəl cahan
Dura bilməz zəmanədə bir an.
Etmə biməşvərət işə iqdam,
Səni yalqızlıq eyləyər edam.
Şah olsan da, məşvərət eylə,
Zabit olsan da, məşvərət eylə.
Qonşuna, arkadaşına var get,
Görəcək işlərində məşvərət et.
Məşvərətlə fəna olar zalim,
Məşvərətlə vətən qalar salim.
Məşvərət zülmü qaldırar yerdən,
Məşvərət ədli göstərər birdən.
Məşvərətdir nihali-hürriyyət,
Huriyi-bimisali-hürriyyət.
Məşvərətdir bəqayi-hürriyyət,
Dilbəri-məhliqayi-hürriyyət.
Məşvərətlə olar sözün üskün,
Məşvərətlə olar dilin kəskin.
Məşvərətlə cahanda et əmrar,
Müznibi qıl həmişə minnətdar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## İttifaq

Gözəlim, sevgilim, gülüm, mahım,
Əsgərim, zabitim, qəvi şahım.
Qüvvətim, qüdrətim, ələm oğlum,
Sətutim, sülətim, dilim, oğlum.
Çalış əslayi-şanə himmətlə,
İttifaq et hər işdə ümmətlə.
İttifaqilə ömr edən millət
Görəməz dəsti-zalimdən zillət.
İttifaqə edir bizi təkid,
Daim, oğul, məaniyi-tövhid.
Yoxsa tövhidi bir taqım nadan,
Şərh edib həqqi eyləmiş fəqdan.
Ləfzi-tövhid hökmi-birlikdir,
Bəşər üçün binayi-dirlikdir.
Qəlbi-millətdə ittifaq olsa,
İttifaqilə həm məzaq olsa,
Qarşıda zülm bir zaman duramaz.
Hiyləgər hiylə daşını quramaz.
İştə tarix edir bunu isbat,
İttfaq ilədir həyati-səbat.
Hal-hazır dəxi Əliyyül-zahir,
Göstərir bu işi bizə zahir.
İttifaqilədir vüqar, şərəf,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

İttifaq ilədir bəqayi-xələf.
İttifaq ilə xəlq olur məsrur,
İttifaq etməyən olar məqhur.
İstəiyrsən ən gözəl dirilik,
Birlik et, birlik et, oğul, birlik.

**Səbat**

Ey güli-növrəsteyi-əyyam,
Etdiyin dəm ümuri-xeyrə qiyam,
Onu icrayə göstər əzmi-səbat,
Elə əzmi-mətinlə həq isbat.
Süstlük eləmə bətalətlə,
Çalış ömründə son mətanətlə.
Nəfi-bəxşa elmdə sai ol,
Əzdiyadi-ümurə dai ol.
Tutduğun işdə səhlkar olsan,
Zar, rəncur, dilfikar olsan,
Səmərə verməz ol elmin əsla,
Olamaz qürt, izzətin əsla.
İşi cəhd ilə görməli daim,
Səyi-qeyrətlə olmalı qaim.
Səysiz işdə mənfəət olmaz,
Mənfəət olsa da, bəqa bulmaz.
Əzm bir siheyi-həqiqətdir,
Aləti-atəşini-xilqətdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Olmayan kimsədə səbati-qədəm,
Soldurar tez onu şərari-ədəm.
İşi icrayə olmalı şəhbaz,
Etməli qütbi-aləmə pərvaz.
Müşkülat olsa da dəvam eylə,
Özünü məqziyəl-məram eylə.
Bu sözü hökmi - həq edir isbat,
Bəşərin şanıdır cahanda səbat,
Qulaq as, etməsin nəva Müznib,
Sənə qurban bu binəva Müznib.

**Dəlilü isbat**

Bu sifatilə xatəmi-mürsəl,
Etmişdir cahanda kəsbi-əməl.
Mərifətlə, ədəblə ömr etdi,
Büsbütün arizusuna yetdi.
Ədəbi sayəsində oldu əmin,
Xəlq ona rəğbət etdi, oldu müin.
Hamısı ondan aldılar ibrət,
Etdilər qabil olmağa qeyrət.
Az zamanın içində vəhşi ərəb,
Buldular izzət ilə elm, ədəb.
Bir-birin qətl edib gəzən vəhşi,
Oldu dünyada ən birinci kişi.
Məktəbi, elmi eylədi vacib,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Xəlq olsun məhəbbətə rağib.
Yaşasınlar zəmanədə məsud,
Olmasınlar inad ilə nabud.
Qüvvəsi olmayan fəqirə müdam.
Eyləmişdir yemək, geyim ənam.
Məşvərətlə görüb sərasər işi,
Məşvərətlə olub bütün rəvişi.
İttifaqi-ümumla ol həzrət,
Eyləmiş öz məramına xidmət.
Göstərib daima səbati-qədəm,
Asimani-zəfərdə açmış ələm.
Nə qədər müşkülatə uğraşdı,
Tab edib Sabiranə qatlaşdı
O rəsuli-kiram o fəxri-inam,
Oldu axırda hamı islam.

*1913-cü il*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## YAŞAYIŞ ÖZÜLÜ

Yaşayış aləmin lətafətidir,
Yaşamaq adəmın təravətidir.
Xilqətin gülüstanıdır yaşayış,
Qüdrətin bustanıdır yaşayış.
Yaşayışdır təbiətin şahı,
Yaşayışdır cahanın Allahı.
Yaşayış ən böyük səadətdir,
Yaşayış şandır, şərafətdir.
Yaşayış cismlənsə, binazir,
Möhtərəm bir vücud olur zahir.
Kim, ona xəlq ehtiram eylər,
Hamı qul olmağa xuram eylər.
Hələ yoxdur görən, bilən ani,
Cümləni cövr edər ikən qani.
Quludur büsbütün ibadullah,
Bəlkə həp ənbiya ilə Allah.
Yaşamaqdır bu xilqətə məna,
Yaşamaqdır təbiətə məna.
Bu böyük neməti qazanmaq üçün,
Nazlı ağuşinə uzanmaq üçün,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Elmlə qabil olmalı, qabil!
Fənn ilə kamil olmalı, kamil!
Qoymalı taci-sən əti başə,
Yetməli qüdrət ilə yoldaşə.
Yaşayış olmaz, olmasa sən`ət,
Yaşayış olmaz, olmasa sərvət.
Yaşayış özülü ticarətdir,
Elmdir, fənndir, sənaətdir.
Baqilə hər kəsi edər hali,
Nadir ilə Cəlilin əhvali.
"Xanlı"da bu iki böyük düşmən,
Bir-birindən deyildilər eymən,
Bu onu, o bunu ədavətlə
Öldürərdi böyük həqarətlə.
Fürsət olduqda daima hər an
Malü dövlət edərdilər talan.
Bu cinayət, bu qətl ilə qarət
Qoymadı eldə, obada taqət.
Nazlı canlar tələf olub getdi,
Malü dövlət hədər olub bitdi.
Hər ikisi bu ömrə rağib idi,
Qalib olmaqlığına talib idi.
Bu gözəl qəsd, bu böyük nemət
Olmayırdı birinə də qismət.
Yoxsula, cahilə nigahi-zəfər,
Açmaz əsla cahanda çöhreyi-fər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Nadir oldu bu ömrdən məhzun,
Düşdü tədbir fikrinə əfzun.
Tapdı axırda böylə bir tədbir,
Tuta aləm, hünər yolun bir-bir.
Sənətə verdi yarü yoldaşın,
Qoşdu sövdaya qövmü qardaşın.
Hamı məşğul olub ticarətlə,
Cürbəcür işlə, həm sənaətlə.
Açdılar bir neçə böyük şirkət,
Yaydılar kəndə hər tərəf sənət.
Varlanıb həm çoxaldı imdadı,
Çıxdı hər yerdə şöhrəti, adı.
Az zamanda o qan içən cani
Oldu "Xanlı" mahalının xanı.
Lakin ol köhnə adətində Xəlil
Qaldı. Oldu həqir xeyli zəlil.
Yarü yoldaşı birbəbir getdi,
Nadirə əl verib kömək etdi.
Qaldı yalnız o möhtərəm sərtac,
Oldu axırda bir pula möhtac.
Malı tək abirusi oldu tələf,
Nadir oldu fəqət hünərlə xələf.
Hər məkanda sayıldı izzət ilə,
Hər yerə getdi şanü şövkət ilə.
Bu böylədir, anlasın gərək aqil,
Dərk qılsın bu mətləbi kamil.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Yaşayış özülü ticarətdir,
Elmdir, fənndir, sənaətdir.
Yaşamaq istəyən hünərpərvər,
Gərək olsun cahanda sənətkər.
Zavodu, bankı, fabriki olsun,
İş və malı ilə cahan dolsun.
Əlinə şəhri, kəndləri salsın,
Hər kəsi hökmü altına alsın.
Yaşasın ta cahanda namilə,
Şanü şövkətlə, ehtiramilə.

*1334 29 cəmadiyəl-axir*
*19 aprel, 1916.*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**ÇƏKMƏSİLƏN**

Anasız bir uşaq uzun müddət
Çəkdi minlərcə nabəca zillət.
Yeməyə, içməyə olub möhtac,
Yoxdu evlərində mayehtac.
Cıpcırıq paltarı, papağı həm
Hali-vəz`i kimi olub bərhəm.
Yağmura göz yaşilə qalib idi,
Ahilə məhvi-bərqə talib idi.
Yürütdükcə səma üzündə səhab,
Çarə ilə deyərdi, ya Vəhab!
Nədən olmuş səhaibin lərzan,
Nədən olmuş bu badi-zülmü zan.
Həp sadə uçan bulud yeksər,
Mən kimi bir atasıza bənzər.
Ağlı, könlü boğuntu mənzərəsi,
Ruyi zərd, müdəh`ərz olur sərəsi.
Əlqərəz, böylə bir xəyalətlə,
Ən pozulmuş zəif halətlə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Dolanardı, gəzərdi həp bekar,
Tapmaz idi özünə bir qəmxar.
Yemək adın eşitcək, ağlar idi,
Nalə ilə cahanı dağlar idi.
Tazə paltar görəndə ol məsum,
Ah, əfsus edərdi dili-məğmun.
Hər görüşdən alırdı min ibrət,
Hər baxışdan çəkirdi min zəhmət.
Gecə-gündüz qalırdı ac-susuz,
Bağrı qan, dildə naleyi-dilsuz.
Qarnı ac, baş açıq, bədən üryan,
Ürəyi nari-dərdilə büryan.
Atadan irs qalan varis,
Gündə ehsas edirdi min hadis.
Etməz idi ol tifli biiqbal,
Dəhri-dunə ümidi-istiqbal.
Tifl ikən başqaya olub möhtac,
Parəsiz seyr edirdi ac-yalavac.
Qalmamış bir qəpik atasından,
Yox kömək xuyiş əqrəbasından.
Yel-hava görməmiş o tifli-səğir,
Küçələrdə gəzərdi zar, həqir.
Hər nə qədri edərdisə fəryad,
Yox idi eyləyən ona imdad.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Evdə daim bacısı ağlar idi,
Bir qoca kor anası həm var idi.
Bacısı bir zəlileyi-məhzun,
Anası bir zəifeyi-dilxun.
Gecələr hər üçü bu əhvalə
Ağlayıb eyləyirdilər nalə.
Qüvvəsi yox gedib olanı gər,
Sənəti yox ki işləyə yeksər.
Əli qoltuqda, gözləri giryan,
Qaldı məhzun, sinəsi suzan.
Nə əlac eyləsin bu biçarə,
Böylə bir möhnəti-şərribarə.
Ama münhərif sədaqətdən,
Hökmi-qüdsiyyəti-şəriətdən.
Yox vətəndə səxalı dövlətli!
Nə də millətdə bir himayətli.
Hamı olmaqda işrətilə bekam,
Məhv olub həp himayeyi-itam.
Əqniya sərgərdani-nəxuti-naz,
Füqəra məskənət ilə dəmsaz.
Əlqərəz binəva qalıb məəttəl,
Arzu eylər idi daim əcəl.
Axırəlamər tapmayıb çarə,
Getdi yalvardı bircə nəccarə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bir yeşik aldı, bir neçə (şotkə),
Gəzdi tapdı şəhərdə yer (butkə).
Kölgəsində o bütkənin daim,
Oldu kəsb etməyə əbəd qaim.
Deməlidirsə elmə layiq ikən,
Oldu şöhrətli bircə çəkməsilən.
Nə qədər yalvarardı hər gələnə,
İcz edərdi bütün gəlib-gedənə.
Qazanardı qərəz çörək pulunu,
Bağlar idi səfalətin yolunu.
Anasına tuman, bacısına şal
Alar idi o tifli-xoşəhval.
Çörəyini, libasını düzgin,
Eylədi həqq məişətin təmin.
Gəhi köhnə qaloş satıb, gəhi nal,
Etdi təmin hali-əlila-icmal.
Bu qədər qəm içində ol aciz,
Oxuyub yazmağı bilib caiz.
Bildi kim elmdir cahanda hər an,
Şərəfü şanü şöhrəti-insan.
Bu xəyal ani rəğbətə saldı,
Getdi bir rəsmli kitab aldı.
Baxaraq şövq ilə o bikəsü zar,
Oxuyardı qalan zamanda bikar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Həp çalışdığı tək zəxarif üçün,
Çalışardı dəxi məarif üçün.
Bəlkə kəsb eyləsin ülumi-fünun,
Qalmasın elmsiz zəlili-zəbun.
Bir nəfər varlı əzqəza ordan
Sürətilə keçər ikən birdən,
Gördü butkə dibində bircə uşaq
Oturub şövq-zövqlə quvraq.
Bir kitab əldə kim baxır, oxuyur,
Rişteyi-elmdən ələm toxuyur.
Alışıb şövq ilə mütaliəyə,
Çalışır cəhlini müalicəyə.
Qarşısında qara yeşik denilən,
Qoyulub kim misali- çəkməsilən.
Deməli, həm kitabə, elmə baxır,
Həm çəkmə silib çörək qazanır.
Qaldı mumiəliyə heyrətdə,
Bu da insanmıdır bu qeyrətdə?
Mehriban bir ata kimi filhal,
Gələrək yanına, sorub əhval.
Dedi: - Oğlum, mənə bəyan eylə,
Varmı, yoxmu atan, əyan eylə.
Dedi: - Ölmüş atam, əmi, çoxdan,
Çıxmışıq xəlq içində var-yoxdan.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Söylədi varmıdır anan hala,
Dedi var bir zəifə nabina.
- Başqa, bacın, qardaşın necə var?
- Bir də məzlumə bir bacım biyar.
- Daha bir başqası?- Xeyr yoxdur!
- Qohumun, qardaşın? - Bəli, çoxdur.
- Sizə onlar edirmi kim imdad?
- Xeyr, etməzlər ildə bir kərə yad!
- Varmı qeyrətli qonşunuz olan?
- Ah, etdi qəmim yenə tüğyan.
Qonşumuz bir xəbisdir, məlun,
Bizə daim edər cəfayi-füzun.
Əlinə düşsə, malımız aparır,
Həp söküb-tökməyi gözəl bacarır.
Bacıma vurmuş öylə bir sillə,
Göyərib gül üzü olub niylə.
Anamı kim əzib-töküb o qədər,
Bu yaxında yəqin vəfat edər.
Gecə getdikdə iltica üçün,
Bir bəla dəfinə riza üçün.
Yalvarıb yendirəndə göz yaşımı,
Oğlu vurdu dağıtdı göz-başımı.
Qaralıb, bax budur, gözüm, əmican!
Yarılıb qanlıdır başım əlan.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hər qədər də bəla tökərsə qəza,

Naəlac olmuşuq bəlayə riza.

O kişi çəkdi ol zaman bir ah,

Söylədi: - Lailahəillələllah!

Böylə də zülm olarmı dünyadə?

Tfu... böylə binayə bünyadə.

- Nədir oğlum. o baxdığın dəftər?

- Bu əlifba kitabıdır yeksər!

- İndi ki, dərsə etmisən rəğbət,

- Məktəbə get, oxu, eylə qeyrət.

- Məktəbə kim məni aparsın, əmi?

Lən edir məktəbə xəlayiq hamı.

Əhlimiz həp ülumi-kaəlanam,

Yox vətəndə himayeyi-itam.

Əniya doymayır səyahətdən,

Füqəra məhv olub səfalətdən.

Varlımız qeyrə əlili min veriyor,

Fəqrdən bizləri əcəl qoruyor.

Nə vətən əhli eyləyir himmət,

Nə də var  bizdə öylə cəmiyyət!

Ki yetiman üçün açıb məktəb,

Oxuda onlara ülumi-ədəb.

Hamı aludə eyşü işrətlə,

Füqəra can verir əziyyətlə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bu kimi çox şikayət etdi biyar,
Kişi qaldı bu sözlərə heyran.
Dedi,- söylə oxarmısan, oğlum?
Artıcaq xərclə səni oxudum.
Dedi: - Çoxdursa, məktəbə meylim,
Vəli acdır anam, bacım, neylim.
Dedi: - Oğlum, qəm etmə, olma həzin.
Edərəm onlara yemək təmin.
Səni də məktəbə verib təkmil,
Eylərəm cümlə müşkili təhlil.
Onu dərhal ayağa qaldırdi,
Götürüb dərsə, məktəbə verdi.
Xərcinə doğru bir kefil oldu,
Rəhnüma olmağa dəlil oldu.
Evinə verdi çoxlu mayehtac,
Qoymadı başqaya ola möhtac.
Uşağın oldu dinc ana-bacısı,
Qalmadı canlarında fəqr acısı.
O vətənpərvərin səxasından,
O səxa göstərən ədasından,
Qaldı bir ailə səlamətdə
Sayeyi-rəhmətü səadətdə.
Uşaq isə nə səy eyləyinca,
Oxuyub oldu alimü dana.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Kişi alim edincə bir kiçiyi,
Dərdi ömründə min "əməl çiçəyi".
Vəli olsa cahanda himmət edən,
Xazini-elm olur ki çəkməsilən.
Məktəbə meyl edər isə ətfal,
Vətəni, milləti görərmi zəval?
Səyi qeyrətlədir cahanda bəqa,
Xabi qəfrətlədir cahanda fəna.
(Elmdir baisi-nicati-bəşər,
Elmdir mayeyi-həyati-bəşər).
Kim edərsə zəmanədə himmət,
Kəsb edər şanü izzətü şövkət.
Əlaman, biz də himmət etməliyiz,
Kəsbi-elmlə həmiyyət etməliyiz.
Elmimiz olmaz isə, qardaşlar,
Yağacaq həp üzərmizə daşlar.
Dağü daş hamıya "oxu" söylər,
Cahilə daima "tfu..." söylər.
Səy edib əhli-himmət olmalıyız,
Şanlı, qeyrətli millət olmalıyız.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## UŞAQLARA İBRƏT

*(Sabirin yadigarına ithaf)*

### Nadinclik

Bir şəhərdə var idi iki uşaq,
Xeyli nadinc, biədəb, sarsaq.
Gecə-gündüz fikirləri təzvir,
Fitnəvü şərə etmədə tədbir.
Hər ikisi düçari-zillət idi,
Daima işləri əziyyət idi.
Bircə qanmazdılar olar əsla,
Nədir elmü ədəblə arü həya.
Nə böyük şəxsə etdilər hörmət,
Nə kiçik tiflə qoydular rahət.
Küçədə bir uşaq gördülər,
Bir bəhanə edib döyrdülər.
Qonşuya ki, atardılar daşlar,
Sındı bihəd şişələr, başlar.
İşləri vəhşilər kimi bədnam
Söyüşüb davalaşmaqdı müdam.
Toz-torpağın içində hər yanə,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Yüyürürdülər misli-divanə.
Yükünü alsaydı dalına hammal,
Od vurub yandırardılar filhal.
Etdilər xəlqə cürbəcür azar,
Hamı onlardan oldular bizar.
Öylə xəlq içrə oldular çirkin,
Cümləsi etdi onların tərkin.
Adlarından edirdilər nifrət,
Tüpürüb eylər idilər lənət.
Düşünüb bunların bu bəd karın,
Xəlqə vurduqları ziyanların,
Yazmağa, nəşrə eylədim qeyrət,
Ola qeyri "Uşaqlara ibrət".
Şəhr içində o iki qarə xəyal,
Adlanıbmış Həmid ilə Zeynal.

**Ataların balalar üçün çalışması**

Gördülər bünların ataları,
Anlamaz vəhşidir uşaqları.
Eyləyirlər o qədər əziyyətlər,
Qonşudan hey gəlir şikayətlər.
Gəldilər təngə oldular dilgir,
Dedilər etməli gərək tədbir.
Etməsək biz bu vəhşətə çarə,
Qalır axırda bunlar avarə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Yaxşıdır bunları qoyaq dərsə,
Bəlkə düşsünlər bir gözəl nəfsə.
Oxuyub dərs ol iki nadan,
Olalar elmü fənn ilə insan.
Edələr kəsbi-rəhmətü şəfqət,
Tapalar bir məqami-ülviyyət.
Bildilər elmdir cahanda hər an,
Mərəzi-cəhlü qəflətə dərman.

**Uşaqların məktəbə verilməsi**

O məhəldə var idi bir məktəb,
Necə məktəb əlimli dari-təəccəb.
Heyslənib büsbütün çoxləbəsim,
Dərü divarıdır nişani-cəhim.
Nəzm yox, cümlə siniflər məchul,
Molla bielm, dərs köhnəüsul.
Götürüb gəldilər ataları
Ora təlim üçün uşaqları.
Dedilər: - Ey atayi-ruhani,
Sənə qurban avamların cani!
Bizim axır pənahımız sənsən,
Şanlı ümidgahımız sənsən.
Səndə vardır təbii zövqi-səlim,
Bunlara ver gözəl-gözəl təlim.
Öylə bir dərs ki, olmaya əsla,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əsl mənada onlara həmta.
Bəlkə yəmini-mübarəkinlə sənin
Olalar sahibi-ülumü fünun.
Çəkələr əl bu cür vəhşətdən,
Bu bəşərsuz olan cəhalətdən.
Bunlara ol aman "Rəufi-rəhim",
Əti molla sənin, sümüyü mənim.
Quzuya qurdu etdilər raiz,
Etdilər molladan xudahafiz.
Şadlanıb ruhlanırdılar ha-ha,
Ola bilməz bu növi bir molla!
Öylə zənn etdilər bu dünyada,
Ona yetməz ki, Şeyxi-sədra da.

**Uşaqların məktəbə diqqəti**

Atalar getdi şad rahətlə,
Balalar qaldı çox müsibətlə.
Baxdılar həsrət ilə hər yanə,
Gördülər kim düşüblər zindanə.
Əlinə molla bir çubuq almış,
Bir tərəfdə fələqqə asılmış.
Çağırıb onları bərabərinə,
Titrəmə düşdü həm ürəklərinə.
Dedi ən bir gözəl qiraətlə,
Oxuyunuz qayeyi-zəkavətlə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bilməsəniz, zəhmət olsa mollayə,
Salaram sizləri fələqqayə.

**Dərsə başlamaları**

Binəva tifillər, ürəkləri qan
Etdilər dərsə ibtida lərzan.
Molla çəkdikdə mədd "bismillah",
Çəkdilər onlar atəşin bir ah!
Dedi oğlanlarım "hüvəlfəttah",
Dedilər çarə eylə: ya fəttah.
Dərs olan dəmdə ah "rəbbi-yəsir",
Dizlərin kəsdi, əzdi quru həsir.
Ləfzi-əbcədlə sövtəl-Əhmədə,
Dedilər döndü küvəhəlvəndə.
Oxuyan dəmdə yətəccənbihəl,
Oldu zehnü zikrləri münhəl.
Məddü təşdid, cəzmü əl-həmzə
Ki, işarati-mükəmmələtlə rəmzə.

**Köhnə məktəbin faidəsizliyi**

Sərf etdikcə ömri-qiymətdar,
Olma dilardə mənfəətbərdar.
Gücləri yetməyib müəmmayə,
Qıçları düşdü hey fələqqayə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Cəhl çox-çox kəmaldan başqa,
Parlamaq yox zəvaldan başqa.
Bu sitəmlə o iki sadədilan,
Əzilirdi fəna yerə hər an.
Gah hüvəcəcə rəvanə, gahi dur,
Etmişdi bihal fikrəti...
Surə başı hədiyyə mollayə
Gəlməsəydi düşərdilər vayə
Gündə beş dəfə ol iki məhru
Quyudan mollaya çəkərdilər su.
Gəhi paltar aparmaq həmmamə,
Gah çıxardardılar təzək damə.

**Onların Quran çıxmaları**

Bu müsibətlə bir neçə müddət,
Etdilər dərsə, mollaya xidmət.
Ta ki, Quran ötüşdü yarıdən,
Yəni ol əmri-müstəaridən.
Onları bir uşağa bihudə
Tapşırıb molla oldu asudə.
Deyə beş-altı kəlmə səhfə mətni-kəlam.
Edə Quranı beşcə gündə təmam.
Bəli, Quran qurtarlı, xətm oldu,
Arada bir papaq da dağıldı.
Mollaya gəldi qəndilə xonçə,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qarğa bülbül olub edib cəh-cəh.
Oldu şagirdlər o gün azad,
Molla və şagird cümləsi dilşad.
Gecə keçdi, açıldı çeşmi-səbah,
Saçdı nurin cahana mehri-fəlah.

**Ana dili oxumamağın nəticəsi**

Açılıb məktəb əməli-farsa,
Gəldi molla oturdu sədrasa.
Tazə Quran çıxan iki zarı,
Etdi zənciri -qəm dilazarı.
Qanmadı məniyi-dəbistanı,
Hərəyə verdi bir "Gülüstan"ı.
Oxuduqca o tifillər nə qədər,
Cümlə zəhmətləri puç oldu hədər.
Vermədi nəf onlara ol dərs,
Qramafon kimi fəqət quru səs.
Bu gün əzbərlədikləri dərsi,
Bilməyirdi sabah heç birisi.
Nə ki, bunlar beş-altı il oxuyan,
Rişteyi-ömrü dərsinə toxuyan.
Qanmamış böylə dərsdən əsla.
Tək birər kəlmə mətnlə məna.
Getmiş ol rütbə dərslər badə,
Babi-əvvəl də gəlməyir yadə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Tifillər türk, dərslər farsi,
Molla bihiss aləmin qarısi.
Ruhsuz bir fəna hey valadır,
Ancaq ismi-şərifi molladır.
Ver yeyim, ört yatım deyir daim,
Gözləyin ta ki, çıxmaya canim.

**Uşaqların məktəbdən qaçması**

Gördülər mollanı qəribə loti,
Gələcək dərsi də cəhli-tuti.
Dedilər şübhəsiz bu əllamə,
Deyəcək bir də qəhrəmannamə.
Bu məkatib, bu növ elmü ədəb,
Bizi məhv etməyə olubdu səbəb.
Bizə bu elmdən hünər olmaz,
Oxuyaq əlli il, səmər olmaz.
Yaxşı oldur gedək atılmağa,
Yuvadan quş tutub çıxarmağa.
Ta o gün oldular olar rüsxət,
Əllərinə düşüb gözəl fürsət.
Atdılar hər kitabı bir yana,
Vurdular bir təpik qələmdana.
Yenə keçmiş tərtü adətlə
Oynamaq tutdular cəhalətlə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

**Həmid ilə Zeynalın bağa getməsi**

Dedi bir gün Həmid Zeynalə,
Var filan bağçada çox gülü lalə.
Gəl gedək bir qədər ziyan yetirək,
O gülü lalədən dərib gətirək.
Bu işə razı hər iki nadan
Olaraq, oldular o bağa rəvan.
Yetdilər səhneyi-gülüstanə,
Baxdılar diqqət ilə bustanə.
Gördülər hər tərəf gülür güllər,
Oxuyur çox həvəslə bülbüllər.
Uçur əflakə sövti-ruhnəvaz,
Quşlar olmaqdadır tərənnümsaz.
Dedi Zeynal Həmidə bu güldən
Nə olur bəhrə kim solur yeldən?
Gəl bir ağac başına burda çıxaq,
Çoxlu quşlar tutub da həm aparaq.
Oynadıb əldə şad olub gülərik,
Qədirə, İsmətə acıq verərik.

**Bağa atılmaları. Həmidin qıçı sınması
və Zeynalın donu cırılması**

İkisi bu fikirlə xəndan,
Oldular bağə girməyə şadan.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

İttifaqən o bağı dövradövr
Etmişdi raşotkalar məhsövr.
Çıxdılar ta raşotka üstündən
Atılalar bağə o iki bifən.
Atılan dəmdə səhni-gülzarə,
Düşdülər, ah yanar narə.
Donu kim Zeynalın raşotkaya
İlişib gəldi naləvü zara.
Cırılıb büzmədən donu getdi,
Deməli Zeynalın işi bitdi.
Həmidin qatdanıb qıçı sındı,
Bunlara sanki bir ölüm yendi.
Gördülər dərdü möhnəti yan-yan,
Oldular nari-zillətə büryan.
Qıç sınıq, don cırıq iki yoldaş,
Cigəri dağlı tökdülər qan-yaş.
Mat qalmışdılar nə etsinlər,
Quşmu tütsünlar, ya ki getsinlər.

**Anlamazlığın böyüyü**

Bunlar etməkdə naləvü əfqan,
Quşlar oldu cicik-ciciklə əyan.
Görünüb yerdə kölgəsi balın,
Uçdu ruhu Həmidü Zeynalın.
Unudub don cırılmasın Zeynal,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Nə döyülmək-söyülmək etdi xəyal.
Yüyürürdü ağaca çıxmağa,
Quşları çox həvəslə tutmağa.
Qıçı sınmış Həmidi-biqəmxar.
Sovunərdi həzin gözü ağlar.
Öylə uyumuşdu qəflətə Zeynal,
Bilməyirdi Həmiddən əhval.

**Zeynalın huşdan getməsi**

Atılıb-düşdü zövqdən şaşdı,
Gələrək bir ağaca dırmaşdı.
Uzadıb bir quşun yuvasına əl,
Saldı ol binəvalar içrə xələl.
Neçəsin quşcuğazların tutdu,
Cibinə şövqü zövq ilə qoydu.
Yerə düşdü üzari-qəməncam,
Gördü, ey vah, gün olub axşam.
Gəldi dərdü məlali tüğyanə,
Ağladı, ağladı zəlilanə.
Çöl yeri, gecə vəqti, yollar uzaq,
Qorxu çox, ikicə zəif uşaq.
Özü getsin, Həmid bəs nə olsun,
Azca qalmışdı hövldən ölsün.
Yetməyib bircə şey xəyalına,
Aldı axır Həmidi dalına.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

### Atalarının gəlməsi

Sürət ilə gəldilər çox qəmgin,
Tələsik, hövlanak, həm ötkin.
Gözü ağlayır gəh də naləvü ah,
Gördü ataları gəlir nagah.
Hər birinin əlində bir dəyənək,
San itirmişdilər dəli bir inək.
Yetişib onları bu halətdə
Gördülər bir böyük müsibətdə.
Sormamış halların kötəklədilər,
Yıxdılar həm yerə təpiklədilər.
Vay öldüm səsi ucaldı göyə,
Əzdilər ikisin də döyə-döyə.
Evlərinə yetişcəyin eyvah,
Gördülər bir qəribə matəmgah.
Qarışıb bir-birə bütün əqvam,
Bir tərəfdə qalıb da süfrə təam.
Atalar hey vurublar sillə, ağac,
Analar ah-naləyə möhtac.
Qıç sınıq, don cırıq, mədar kərih,
O ki lazımdi gördülər tənbih.
Zeynal ol dəm cibinə əl salmış,
Gördü kim, quşcuğazları ölmüş.
Bu da hədsiz qəmü möhnət,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Yandılar, çəkdilər də çox həsrət.
Mənfəət bunlara əziyyət olub,
Döyülüb, söyülüb məziyyət olub.
Gördülər bu müsibəti onlar,
Etdilər işlərindən əstəğfar.

**Həmid ilə Zeynalın tövbə etmələri və tezliklə geri dönmələri**

Bir də nadinclik etməyib hərgiz,
Olmasınlar cahanda qəməngiz.
Yatdı yorğan-döşəkdə Həmid,
Qaldı Zeynal təkcə fərdi-vəhid.
Dincü asudə, çox gözəl, rahət,
Günbəgün kəsb edərdi kim hörmət,
Ta sağaldı qıçı Həmidin həm,
Qonuşub bir-birə iki nafəhm.
Çıxdı yaddan keçən müsibətlər,
O döyülmək, o zülm, zillətlər.
Yenə əvvəlki tək çü divanə,
Çıxdılar cahılanə meydanə.
Verdilər xəlqə zilləti -bica.
Təngləşib qonşular hamı yekca.
Qızışıb başları cəhalətdən,
Heç utanmazdılar nədamətdən.
Noxtasız dana tək atıb şallaq,
Yerə və göyə salırdılar dırnaq.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## Həmid ilə Zeynalın ikinci nadincliklərinin nəticəsi

Quş tutmağa ediblər həvəs,
Aldılar əllərinə bircə qəfəs.
Gəldilər zövq ilə haman bağa,
Bəs ki, batmışdı əlləri yağa.
Bir ağacın başına kim Zeynal,
Çıxdı çox şadnak, çox xoşhal.
Qorxunu, zilləti bütün unudub,
Bir quşun əl yuvasına uzadıb,
Yuvadan bir ilan atıldı o dəm,
Zeynalın etdi halını bərhəm.
Vəhşət etdi bu zarə san elam,
Getdi huşu, kəsildi nitqi tamam.
Əqli başdan çıxıb, yıxıldı yerə,
Sındı qolu, qıçı, sərildi yerə.
Yarılıb başı, həm axıb qanı,
Deməli gördü ruhi-üqbanı.

## Həmidin naəlac qalması

Qıçı nasaz Həmidi-biçarə,
Qalmışdı həzinü avarə.
Gücü yetmir ki, dalına alsın,
Neyləsin, başına nə daş salsın.
Zeynal ağlar, Həmid həm ağlar,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Aləmi ahü naləlәr dağlar.
Sürüdüb bir təhərlə Zeynalı,
Çıxarıb bağdan o bihalı.
Yol ilə bir nəfər keçən zata,
Açdı dil iczilə münacata.
Əmican, rəhm et bu halıma,
Kömək et ver bu zarı dalıma.
O kişi baxdı gördü Zeynaldır,
Yəni nadinci-mədəni-qaldır.
Dedi, vay budur dəli şeytan,
Tüpürüb ondan oldu rugərdan.
Buna hər giz mən etmərəm imdad,
Məni çox incidib bu bədbünyad.
Düzələndə yola onun ətəyin
Tutdu məhzun Həmid, çox qəmgin.
Yalvarıb and verib, rica etdi,
Ağlayıb ərzü iltica etdi.
O kişi anlayıb xətasını,
Gözləyib xaliqin rizasını,
Götürüb verdi o biruhi
Həmidin dalına o məcruhi.

**Həmidin Zeynalı evə gətirməsi**

Dalına alcağın onu bitab,
Evə gəlməyinə edirdi sətab.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Evə yetdikdə ol dəni xislət,
Deməli gəldi acı möhnət.
Açdılar tazə bir əzaxanə,
Başladı ata-ana fəğanə.
Yatırıb ani rəxti-xab içrə,
Yəni bir atəşi-əzab içrə.
Neçə müddət həkimlər gətirib,
Xərci-bihədlə səhhətə yetirib,
Sağalıb durdu gəzməyə salim,
Nə edib zülm, oldular zalim.
İki nadinclərin ataları,
Oldular elmü fən xiridarı.
Etdilər onlara ətayi-məzid,
Tapdılar məktəbi-üsuli-cədid.

**Həmid ilə Zeynalın üsuli-cədid üzrə oxumaları**

İkisi zəmanəyə dair,
Oxuyub elmlər olub mahir.
Birisi injiner, birisi həkim
Oldular, tapdılar nüfuzi-əzim.
Aldılar çoxluca məvaciblər,
Həzzilə sürdülər gözəl günlər.
Çəkməyib bir qədər iki bizar
Oldular ən birinci sərvətdar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Budur ümdə cəmi-fəlakətimiz,
Dərdimiz, mayeyi-həlakətimiz.
Öylə bir dərs vermədi mollla,
Anlayıb şövq edə uşaqlar ona.
Mənisi dərk olunmayan dərslər,
Mələyi vəhşi və cəri eylər.
Haydı ibrət edək aman, balalar,
Haydı diqqət edək aman, atalar,
Söndü müşkülati-zövqi islamın,
Soldu gülzari-şövqi islamın.
Əcnəbi pəncəsində min zillət
Çəkərək can verir vətən, millət.
Pəndini, Müzniba, tamam eylə,
Bircə bu beytlə xitam eylə:
Yaşasın xadimani-elmü ədəb,
Puç ola baniyani-ləhvü ləəb.

*1911-ci il*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## İBRƏT TAZİYANƏSİ

Belə nəql edir nağılani-zaman,
Kəmali-ədəblə açır dastan:
Dağıstanda bir taciri-nik-nam
Var idi, adı Hacı Mirzə oğlan
İtaətli bir əhli-iman idi,
Səriri-ibadətlə sultan idi.
Oruc tütmaq ilə ümumən təmam,
İşıqlı günü şam edərdi müdam.
Qılardı gecə, sübh olunca namaz,
Edərdi xülus ilə razü niyaz.
Dilində oxardı hədisi-xəfif,
Cibindəydi daim kəlami-şərif.
Dilənçilərin dadxahıydı o,
Müqəddəslərin padşahıydı o.
Fəqət dənivü elmdən bixəbər,
Yaşardı bu dünyada şamü səhər.
Bütün aləmi elm tutmuş ikən.
Fünun gəl dünyanı udmuş ikən,
Bu qəflət quşu sərfi qəflət ilə
Yaşardı həman köhnə adət ilə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Bir az xırda-mırda satardı fəqət,
Yeyərdi, içərdi, yatardı fəqət.
Ətasından Allahi-bimənzilin,
O dindar şəxsin, o sadədilin,
Həbib adlı bir növrəsi var idi:
Əqilli, gözəl, xeyli huşyar idi.
Hacı fövqəladə sevərdi onu,
Qızıl güldən artıq bəzərdi onu.
Cibindən pulun əksik etməz idi,
Qoyub evdə bir yana getməz idi.
Nə etsəydi xahiş, alardı o dəm,
Ki qoymazdı görsün həbibi ələm.
Razı olmaz idi ola əşkbar.
Qona gülzarına qəmdən qübar.
Səmumi-xəzanla sulagül kimi
Düşə nitqdən oğlu bülbül kimi.
Fəqət məktəbə, dərsə qoymaz idi,
Zaman iqtizasına uymaz idi.
Hacının bu bifaidə rəğbəti,
Məhəbbət edib, çəkdiyi zəhməti,
Həbibin fəlakətinə oldu səbəb.
Həbibin həlakətinə oldu səbəb.

Bu cür nazü nemət ilə bəslənən,
Böyük şanü şövkət ilə bəslənən
Ki yəni, Hacının təvanı Həbib,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Gücü, qüvvəti, pasibanı Həbib.
Yetincə iyirmi iki yaşına,
Yığıb cümlə ovbaşı o başına,
Oba, ev kəsib-basmağa başladı.
Əzib doğrunu, oğrunu aşladı.
Qohum, qonşunu etdi yeksər kənar,
Fəqiri döyüb, acizi qıldı xuvar.
Neçə şəxsi qətl etdi nahəq yerə,
Qarışdırdı bikəsləri bir-birə.
Nəhayətdə öldürdü bir taciri
Ki, ol tacir idi vətən faxiri.
Hamını səxavətlə etmişdi ram,
Hamı eylər idi ona ehtiram.
Onun qətlinə cümləsi ağladı,
Yeri, göyləri ahilə dağladı.
Bu fəryadü əfqan ilə, ğülğülə,
Dağıstana saldı böyük vəlvələ.
Hökumət onu istədi həbs edə,
Məbada bu iş şiddət ilə gedə...
Həbib anlayıb qaçdı səhra tərəf,
Bütün aləmə oldu əngəlkələf.
Düşüb çöllərə qaldı eldən uzaq,
Çalıb-çapdı oldu böyük bir qaçaq.
Gələndən-gedəndən alırdı xərac,
Verirdi hamı var-yoxun naəlac,
Ona yoldaş oldu qaçaqlar tamam,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Çalıb-çapdılar, aldılar qanlı nam.
Ən axırda bir karvan soydular,
Malı bölməyə cümlə üz qoydular.
Mal üstündə lakin törəndi cidal,
Vurub bir-birin etdilər payimal.
Həbibin dəyib güllələr canına,
Boyandı qərib ölkədə qanına.
Hacının nazəndə nozadəsi.
Hədər yerdə oldu qəm üftadəsi.
Aman Qafqaz övladı, ibrət edək!
Ülumə tərəf səyü qeyrət edək!

*9 aprel, 1916-1334*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## İNSAF GÜZGÜSÜ

*(Sədinin "Gülüstan"ından təbdil)*

Cənnəti-zövq, bəzmi-ürfanda,
Solmayan daimi "Gülüstan"da.
Şeyx Sədi, o möhtərəm ustad,
Böylə bir vaqeə eləmiş inşad:
Kişvəri-əqlə şah olan bir şah,
Yəni, ən bir həqiqi zilallah.
Bir əsirin o hökmdari-zaman
Vermiş idi ki qətlinə fərman.
Zor ilə çərxi tərsinə dönsün,
Şöleyi-ömrü qəhrilə sönsün.
Anlayınca bu halı yazıq əsir,
Oldu xeyli mükəddərü dilgir.
Gördü yoxdur əsər nicatından,
Kəsdi ümmidini həyatından.
Baxmadı şanə, şövkətə, cahə,
Açdı narazılıq dilin şahə:
Ağzına hər nə gəldi hiddətilə
Söylədi şahə çox cəsarət ilə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Böylədir qaidə demiş əqila,
Bunu təsdiq edər bütün üdəba.
Kim ki, canından əl çəkər yeksər,
Hər nə qəlbində var isə söylər.
Naümid olduğu zaman insan,
Uzadar hər kəsə dilin hər an.
Basılan vəqtdə pişik əzhər,
İtə şiddət ilə hücum eylər.
Şübhəsiz mövqeyi-zərurətdə,
Qaçmağa fürsət olmayan vəqtdə.
Əlbəəl, əlhərasini unudar,
İti, kəskin qılınc ovcini tutar.
Şah əsirin danışdığın gördi,
Mərhəmətlə vəzirdən sordi:
- Söylə bir, ey vəziri-quşmənzər,
Nə deyir bu əsiri-biyavər?..
Dil açıb ol vəziri-paknihad,
Dedi: - Ey padişahi-kişvəri-dad!
Ərz edir bu əsiri-pürmöhnət.
Cənnət ol zatə kim olur qismət,-
Qeyzini həzm edər özü hər dəm,
Xəlq təqsirini bağışlar həm.
Şah olub bu məqamdan dilşad,
Rəhm edib eylədi onu azad.
Keçdi qanından, eylədi məmnun,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Etmədi ol əsiri qərğeyi-xun.
O vəzirin ədusi başqa vəzir
Oldu bu əmrü lütfündən dilgir.
Qızarıb kəsrəti-hərarətdən,
Bozarıb şiddəti-şərafətdən,
Fitnəyə açdı dil o mayeyi-qəm,
Dedi ol mənbəyi-fəsadü sitəm:
- Bizim üçün bu ədl tövrində,
Yaramaz şahlar hüzurində
Doğrudan başqa söz bəyan etmək,
Ən açıq mətləbi nihan etmək.
Pak qılma bu duni-gümrahi,
Bu ki təhqir edir bizim şahı!
Nasəzadır təmam söylədiyi,
Məhz, cürmü xətadır eylədiyi.
Şah bu sözdən ictinab etdi,
Ona həm böylə bir xitab etdi:
- Dediyin doğrudan onun yalanı
Mənə xoş gəldi, ey bəla kanı!
Sözü doğru deyilsə, hökumətdir,
İşi ən məsləhətli xidmətdir.
Sənin ol doğru sözlərin əmma,
Sırf fitnə, fəsaddır bica...
Başa-baş fisqdir, şərarətdir,
Büxldür, büğzdür, xəbasətdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Həkiman söyləmiş bu yolda misal,
Anla, dərk et, var kəsə əqlü kəmal:
Məsləhətli yalan söz əqəldir,
Fitnəli doğrudan çox əfzəldir.
Hər kimin ki, sözünü mahi-zəman
Xoşlayıb cari eyləyər hər an,
Heyf ol zatə kim o dəmdə çalışa,
Yaxşılıqdan kənarə söz danışa...

*5 aprel, 1916 - 1334*
*1334 15 qəmadiyən axır*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ƏŞRƏFİN MƏCƏRASI

Səba şəhrində Əşrəf adlı cahil
Var idi, xeyli biinsaf və qafil.
Minir bir gün atına ol yeganə,
Olur şəhrin kənarinə rəvanə.
Ki bir az at sürüb könlü açılsın.
Ələmli qəlbinə şadlıq saçılsın.
Çıxınca şəhərdən bir az kənarə,
Edib ətrafa diqqətlə nəzarə.
Nə gördü: bir sürü yağlı qoyunlar,
Qəzadan qıçları bağlı qoyunlar.
Gəzirlər, otlayırlar dəstə-dəstə,
Çoban əldə tütək söylər şikəstə.
Küçüklər tirlənib atmış təlaşın,
Qoyublar əlləri üstünə başın.
Tamahlandı o dəm Əşrəf qızışdı,
Qızardı gözləri, halı dəyişdi.
Qarın ac, bostan üstü, bəzmi-xəlvət...
Edərmi onda quldur fövti-fürsət?
Qarı olsa, olar bir mərdi-meydan,
Gələr cövlanə tülkü misali-aslan.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Toyuq qızmış xoruz tək cilvə eylər,
Qoyun qurda dönüb fəxrilə söylər.
Dərə xəlvət olanda tülkü bəydir,
Zarafat sanmayın maldır, yeməkdir.
Qürurundan gəlib həyəcana Əşrəf,
Əqilliykən olub divanə Əşrəf.
Oxun tutdu, kamanın qoldan asdı,
Papağın gözləri üstünə basdı.
Belini bağladı qüvvətlə möhkəm,
Gedir meydanə sanki Zal Rüstəm.
Nə itdən qorxdu, nə baxdı çobanə,
Nə də qıldı nəzər biçarə kanə.
Xudanı saldı birmərrə nəzərdən,
Hücum etdi qoyun fövcinə birdən.
Qoyundan bir qədər böldü, ayırdı,
Çoban gəldi vurub başını yardı.
Küçük cumduqda, ox qoydu kəmanə,
Vurub oxla iti qərq etdi qanə.
Qoyunlar hürküyə düşdü, dağıldı,
Qaçıb ətrafə bilcümlə yayıldı.
Qoyunları sürüb Əşrəf apardı,
Qürurundan gözü, qəlbi qabardı.
Apardı saxladı bir dağ dibində,
Ki, guya nəqd edib qoydu cibində.
Təfəkkür etmədi Allah vardır,
Peyəmbər var, kəlami-Allah vardır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Tutar axır qəzəb, kim olsa cani,
Böyük Tanrı boğar əhli-cəfani.
Bu işdən oldu xeyli şad Əşrəf,
Çıxartdı qanlılıqda ad Əşrəf.
Ki gəldi keyfi, gəldi həm damağa,
Çalışdı çoxluca getsin qabağa.
Birinin kəsdi quldur tək qabağın,
Əlindən aldı xurcunun, ulağın.
Birindən beş öküz, on beş at aldı,
Əlindən xəlq onun lap təngə qaldı.
Neçə ev kəsdi, birdən ilxı basdı,
Neçə acizləri talvardan asdı.
Neçə xərmənləri yandırdı nahəq,
Kəsildi xəlqə bir cəlladi-mütləq.
Darıxdı xəlq zillətdən nəhayət,
Gərəkli yerlərə etdi şikayət.
Nə çarə, olmadı çarə edən bir,
Ümumən oldular qəmgin və dilgir.
Nəhayət, bir yığın qurdu cəmaət.
Bu növi məsləhət gördü cəmaət.
Həmiyyətlə o qeyrəti ərənlər,
Sitəmgər Əşrəfi rədd eyləsinlər...
Bu dəfə Əşrəf etdikdə cinayət,
Gəlib həyəcana bilcümlə cəmaət.
O qədəri döydülər ol bədədanı,
Yıxıldı torpaq üstə, çıxdı canı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

El öz divanını himmətlə etdi,
Şərarət söndü, Əşrəf öldü getdi.
Əzilmiş nəşi qaldı gün önündə,
Zibilli toz içində, it günündə.
Onu dəfn etmədi nadanü dana,
Namazın qılmadı mollalar əsla.
Tüpürdü hər görən, həm lənət etdi,
Hamısı ibrət etdi, nifrət etdi.
Elin divanı bir divandır ali,
Sevər ani kimin varsa kəmali.

*26 aprel, 1916 -1334*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## QAZİ ƏNVƏR PAŞA

O dəm ki, bütün qanə boyanmış dəmir əllər,
Türk ölkəsinin sancmış idi bağrına xəncər.

Ol dəm ki, xilafət sönəcəkdi, batacaqdı,
Türk aləminin yoxluğu olmuşdu müqərrər.

Ol dəm ki, məlal arizinə yırtıcı qartal,
Salmışdı amansızlıq ilə bir qara şəhpər.

Ol dəm ki, səlib əhli edib şiddətü tüğyan,
İstərdi dönə bütkədəyə Kəbeyi-əthər.

Ol dəm ki, Məhəmməd (s) adı məqdir olunurdu,
Quran tutulurdu nə rəzalətlə mühəqqər.

Doğdurdu böyük türk elinə fəzli-əlihi.
Ənvər paşatək fatehü qaziyü hünərvər.

Güldü üzü türk aləminin, oldu fərəhnak,
Buldu qədəmi-paki ilə türk eli zivər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Ənvər paşa, ey calis, örnəyi-rəşadət,
Ənvər paşa, ey qahiri-ədayi-sitəmkər.

Ey Şərqi münəvvər edən Ənvər zəfərlə,
Ey türki edən qüdrətü qüvvətlə müzəffər.

Tariximizi şanladan, ey şanlı igid türk,
Afaqımızı parladan, ey şöleyi-əzfər.

Sərdin yerə bir zərbə ilə heykəli-zülmü,
Bir vəqtdə ki, qalmış idi türk eli bisər.

Kin ilə, cinayətlə dolan evləri yıxdın.
Yapdın bizə firdövs kimi ədllə kişvər.

Bir qəhrlə xainləri, caniləri boğdun,
Bir lütflə verdin vətənə qüvvəti-digər.

Azədəliyin nemətinə dəst-rəs oldu,
Sayəndə bütün şahü gəda, xacəvü nökkər.

Barbarlara mal olmuş idi qərbi Trablis,
Şərq əhlini etmişdi bu iş zarü mükəddər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əzmin orada eylədi izhari-səlabət,
Düşmən üzülüb, oldu tələf zabitü əsgər.

Söyləndi Trablisdə yenə kəlmeyi-tövhid,
Türkün yürüdü hökmü yenə zahirü əzhər.

Balkandakı vəhşət odu məhv oldu əlinlə,
Bir od ki, xəlil ömrünə saçmış idi azər.

Balkanlılara getmiş idi şanlı Ədirnə,
Düşmüşdü çobanlar əlinə daneyi-gövhər.

Sultan Səlimin camei, göstərməsin Allah,
Olmuşdu səlibin şərəfü eyşinə məzhər.

Bir həmleyi-dəhşətvər ilə düşməni pozdun,
Saldın səfi-ədayə peyapey yazar əxkər.

Murdarları əzdin, o müqəddəs yeri aldın,
Yıxdın xaçı, xaç əhli ilə xakə sərasər.

Taxdın yerinə şan ilə şövkətli hilalı,
Xəm oldu ədu qaməti, həm oldu diləfkər.

Dəhşətli cahan hərbinin, ey sahibi-seyfi!
Təzim ediyor namına sultan ilə qeysər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Zira, bu böyük hərbdə bir düşməni-dunə,
Eşq eyləmisən sileyi-tədibi-mükərrər.

Ey türk elinin qüvvəti, biqayə səbati,
Zatınla edər fəxr bu Şərq aləmi yeksər.

Türkün qolu, türkün gücü, türkün qılıncısan,
Minlər yaşa bu şanilə, ey sevgili Ənvər!

Hansı yerə düşdüsə, sənin şöleyi-tiğin,
Qəlbin kimi oldu başa-baş safü münəvvər.

Türkün böyüyü kimdi, soruldudqda təmamən,
Ənvər paşa, Ənvər paşa, Ənvər paşa derlər.

Qazi ləqəbi şanına şayəstədir əlhəq,
Tanrı zəfərin sabit edə ta dəmi-məhşər.

Haqqında budur Müznibin hər ləhzə duası:
Var ol, yaşa minlər, yaşa minlər, yaşa minlər!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## Hilallı Suyəm Bikə qarşısında
## Əməlpərvəranə bir xatirə* *

Ey türklüyün nişanəsi, yüksəl səmalərə,
Yüksəl, səninlə yüksələcəkdir əməllərim.
Yüksəl, başın təmas eləsin ərşi-əkbərə,
Yüksəl, hüzuri-həqqə irişsin əməllərim.
Zira nəbiyyi-məqsədimin Cəbrayılısan,
Ülvi diləklərin əbədi bir dəlilisən.

Ey türklüyün bu ölkədə yüksək minarəsi,
Ey heykəli-məbədi Allahü Əkbərin.
Şərqin səmai-izdə parlaq sitarəsi,
Çirkin əsərini əzmək üçün vəhşi bəbirin.
Girdi hilal şəklinə ruhi-Suyəm Bikə.
Etdi başında qartalı min parça, min tikə.

Oldu cahana türk elinin qüvvəti sübut,
Kinli, inadlı düşmənimiz eylər etiraf.
Dünya üzündə türk eli bir eldi layəmut,
Etməz zəif onları min hərb, min müsaf.
Dünya olunca hökm edəcək türk uluğları,

---

* 1335 - зилщиъянин 10-да (гурбан байрамы эцнцндя) Шимал тцркляри тяряфиндян сялабяти-милийййя иля суйям Бикя минарясинн башына тахылмыш гарталын дцшцрцлцб, йериня севимли щилалын тикилмяси мцнасибятиля.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Dünya durunca həp duracaq turk uruğları.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**BAKI FATEH ƏLİLLƏRİNDƏN, NAMDAR TÜRK QƏHRƏMANLARINDAN MİNBAŞI MƏHƏMMƏD TOFİQ BƏYİN «ZOPA»SI**

1.

Qüdrətindən mədəd cənabi- "zopa",
Himmətindən mədəd cənabi -"zopa",
Baküni fəth elərik olsa
Qeyrətindən mədəd cənabi - "zopa".

2.

Burax inadını, ey zahidi-xocəstəmab,
İtaət et zopaya etmə çox itab-xitab.
Kimin ki arxasında giməmiş zopa şəksiz,
Həkimlər nəzarətində deyil o əhli-səvab.

3.

Fəth üçün istəməriz şah gədadən Tofiq,
Kam üçün bəkləməriz tirə xudadən Tofiq.
Etməriz köylülərə hərbdə ümmidi-zəfər,
Deyəriz Tanrı ilə şanlı zopadən Tofiq.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

4.

Zavallı Qafqaza verməksə məqsədində həyat,
Zopanı möhkəm elə, ondadır ümidi-nicat.
Zopa gər olmaz isə, xatəmənbiya olasız,
Sizə kömək edəməz hörmətilə əhli-dəmat.

5.

Cəhrəsi "Tofiq" bəyin tovfiqi-həq məsbahidir,
Hər sözü dəhşətli bir dərdin böyük cərrahidir.
Tiğdən kəskin zopası, milləti bərbad edən
Xainin, alçaq hərifin qabizalərvahidir.

6.

Şiddəti-fərmani-ali sanmayırsız xəndədir,
Söv'i - zən etmə qəbahət səndədir, ya məndədir.
Şieyi-ali-Əlini tazə islam etməyə
Zopası …. Zülfüqar hökmündədir.

7.

Yardım alsaq nə qədər zor ilə eldən, obadan,
Yox bizi qurtaracaq çarə bəladan, qadadan.
Düşməni-dini basıb eyləriz ehrazi-zəfər,
Cənnicə yardım əgər olsa cənabi-zopadan.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

8.

Türk əsgərini qırmağa ey düşməni-bifər,
Qalxışma əbəs, toplama mərmi ilə əsgər.
Qüvvən var isə qır zopanı, çünki zopasız
Türk əsgərini türklər[1] acından qıracaqlar.

9.

Gərçi sözümüz aləmara əhdə vəfadır,
Lakin işimiz sərfi-hədər, sərfi-xətadır.
Ol vəchlə mosqoflilərin ruhinə düşmən
Qafqazlılara məktəbi-təlimi-zopadır.

10.

Nəzərdə gərçi zopası yamandı Tofiqin,
Vəleyk sayəsi dari-əlamandı Tofiqin.
Baxılsa diqqət ilə hərb işində qitaya,
Zopası zopa deyil, hökmrandı Tofiqin.

11.

Zopaya əsbabi-zəhmət söyləyirlərsə, qələt,
Zərbinə aləm illət söyləyirlərsə, qələt,

Şaxeyi-Tubadır ol Hacəli ondan qız alır,
Canilər gər anə bidət söyləyirlərsə, qələt.

---

[1] Азярбайъан тцркляри нязярдя тутулур

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Nihali-əhdü vəfadır zopası Tofiqin,
Kədərli qəlbə səfadır zopası Tofiqin,

Fəqirə qürb verər, varlıya cəzayi-şərəf,
Əmiri-şahü gədadır zopası Tofiqin.

Elinə, yurduna rəhmət və şəfqət ayəsidir,
Əduyyə bərqi-ciladır zopası Tofiqin.

Nə qədər qorxağa cürət şəfası vermişdir,
Təbibdir, hükəmadır zopası Tofiqin.

Yolundan azmışı işad edər, yoluna salar,
Dəlili-rahi-hüdadır zopası Tofiqin.

Əzib yoğurmağa bir dəmdə xaini-vətəni,
Misali-qəhri-xudadır zopası Tofiqin.

İşini qanmayana qandırar işin feyəlğur,
Həkimdir, üdəbadır zopası Tofiqin.

Həmişə qan içinə "bəzli-iltifat" eylər?!
Kərəmlidir, nücəbadır zopası Tofiqin.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Yedikdə qəz`eyi-cisə fəvadi-şərindir,
Dəvadır, əhli-dəvadır zopası Tofiqin.

Vətən füruşlərin sökdü həp cəhərgahın,
Dəmiri qəl'əgüşadır zopası Tofiqin.

Nə qorxu-hürkü bilər, nə işindən əl götürər
Ki, tiği-şiri-xudadır zopası Tofiqin.

Səlibi-qəhr, hilalı müəzzəm etmək üçün,
Yaşıllı, allı ləvadır zopası Tofiqin.

Beş əsrin acığın bir dəqiqədə aldı,
Nə türfə türkədadır zopası Tofiqin.

Qüdumi paki yüzə buldu rus tülküsü,
Təşəkküranə səzadır zopası Tofiqin.

İlahi, Müznibi andan ayırma bir ləhzə
Ki, hamiyi-füqəradır zopası Tofiqin.

*13 yanvar, 1919*
*1337, 10 rəbbüyəl axir.*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

## XORASANIN TOPA TUTULMASI

Rusun o günkü bəxti dönüb düşdü şeşdərə,
Açdı yədi-təcavüzü övladi-Heydərə.

Peyğəmbərə , Xudaya bu məlun ədu olub,
Bir dəm də olsa baxmadı nəhyi-yəvamərə.

Arı, həyanı, hörməti bilmərrə tapdadı,
Elani-hərb eylədi xəllaqi-davərə.

Yahu, nə etmədi ah o cəlladi-biiman,
Etdi onu ki eyləməz heç kimsə kafərə.

Şahi-qərib rövzəsini basdı gülləyə,
Ağlatdı qan peyəmbərü ali peyəmbərə.

Tağı-şərifi rövzəyə güllə dəyəndə ah!
Tağ oldu qəddü qaməti-islam yeksərə.

Tufan qopartdı dəhşət ilə toplar atəşi,
Nuhun zamanı gəldi mükərrər təsəvvürə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Doldu hərimi-izzətə ifritü div vədəd,
Düşdü cəlali-paki-Rza çirkin əllərə.

Ruisyyənin çobanları, Allah, ədulləri
Qəhra girincə qəbri-imami-mütəhhərə.

Yahu, nə etdi yırtıcılar, ah, min-min ah!
Düşdü bu qəmli nüktədən od qəlbi-əfkərə.

At bağlayıb zərihinə sultani-Məşhədin,
Yəğma əlini atdılar ol dürrü kövhərə.

Məzlumlər nəvası, yanar top gürültüsü,
Səhni-şərifi etdi bədəl dəşti-məhşərə.

Doğrandı tazədən ciyəri şahi-bikəsin,
Zəhri-cəfayi güllə ilə bimühavərə.

Tutdu cahanı naləvü fəryad va qərib,
Yetdi nəvayi-vay, ağa vay ərşi-əkbərə.

Həddən ziyadə arvad-uşaq batdı qanına,
Xudaya, rövzə oldu hədəf tirü xəncərə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Tapdandı zairin cəsədi oldu paymal,
Qan axdı, döndü səhn o gün bəhri-əhmərə.

Ey acizə həmişə təcavüz edən dəni,
Ey xuni-binəvanı tökən camü sağərə.

Ey bikəsin kəsən başını tiği-cövr ilə,
Məsumi, ey müdam edən qul əcamərə.

Ey hiylə ilə dövlətini qüvvələndirən,
Ey fikri-şeytənətlə vuran xəlqi bir-birə.

Ey doğrunu həqarət ilə darə çəkdirən,
Ey oğrunu qəriq qılan xələtə, zərə.

Dini müqəddəsatə təcavüz hünər deyil,
Öylə qəbihdir ki, yaraşmaz o iş ərə.

Zorun var isə çıx kişi tək bir cavab ver,
Hərbi-ümumi fatehi ol qazi öndərə.

Lütfi-Hilali Müznibi etmiş şəciətər,
Səzkar edər bu beyti rəşadətlə əzbərə:

Zata, bu işdə zatına İsa da lən edər.
Rəhmət oxar Vasiliyə Petrov bədəxtərə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## İKİNCİ NİKOLAYIN CƏZALANMASI HEYKƏLİ-İSTİBDADƏ QARŞI

Ey içən məzlumlər qanın, şərirü zülmkar!
Ey edən acizləri çəngəl qəhrində şikar!
Ey qılan Şəddad zülmün şiddət ilə aşikar,
Ey olan nakamiyi-insanla daim kamkar,
Ey yıxan ev, eyləyən ərbabi-həqqi dilfikar,
Böylədir qanuni-həqqi-həzrəti-pərvərdigar,
Zülm evi bərbad olar gər Kəbətüllah olsa da.
Qan içən zatın içərlər qanın, allah olsa da.

Qafqazda yağdırdığın od cümlə peydadır hənuz,
Yıxdığın ev, yaxdığın məscid hüveydadır hənuz,
Neçə min məscid başında xaç, kəlisadır hənuz,
Bax Dağıstan ölkəsi bərbad, rüsvadır hənuz,
Of Cavad xan (1) matəmi hər yerdə bərpadır hənuz,
Ol səbəbdəndir sənə məskən Sibiryadır (2) hənuz,
Zülm evi bərbad olar, gəp Kəbəbüllah olsa da,
Qan içən zatın içərlər qanın, allah olsa da

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Türklüyü məhkum qıldın bisəmər əfsanəyə,
Kəbeyi-islami sənsən döndərən bütxanəyə,
Aşinanı, hiyləgər, sənsən satan biganəyə,
Qulü zənciri-cəfa sənsən vuran fərzanəyə,
Şeyx İbrahim məzarı döndü kömrürxanəyə (3),
Qanlılıqda ey dönən Petrov kimi (4) divanəyə,
Zülm evi bərbad olar gər Kəbəbüllah olsa da,
Qan içən zatın içərlər qanın, allah olsa da.

Nəslinizdən olmadı əmri-xudayə iltifat,
Qalmadı tatar elindən zərrə asari-həyat,
Həbsi-zillətdə acından etdi Ləham xan (5) vəfat,
Daima yağdı Qazan imranına nari-məmat,
Qoymadı zalım Vasili (6) kimsədə səbrü səbat,
Yan, yaxıl əcrindi bağlanmış sənə rahi-nicat,
Zülm evi bərbad olar gər Kəbəbüllah olsa da,
Qan içən zatın içərlər qanın, allah olsa da.

Vəhşiliklə məhv edildi türkmanlar izzəti,
Paymal oldu böyük Teymurləngin şövkəti.
Gülləyə bağlandı, doğrandı Uluğ türk milləti,
Həzrəti-Allahı yandırdı Aleksan (7) vəhşəti,
Bir taqım ovbaşə mal oldı Gəray xan (8) dövləti,
Al, mükafatındı çün indi cəzayi-bidəti,
Zülm evi bərbad olar gər Kəbəbüllah olsa da,
Qan içən zatın içərlər qanın, allah olsa da.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bir cahanlıq ümməti təhqir qıldın bərməla,
Atəşi-qəhrinlə yandı rövzeyi-paki-Rza (9),
Başə vurdu həzrəti-Heydərlə xətmi-ənbiya,
Qan içində naləyə gəldi şəhidi-Kərbəla,
Zülmünə qan ağladı vallah Yezidi-bihəya,
Romanov (10) övladına lənət de, söylə Müzniba!
Zülm evi bərbad olar gər Kəbəbüllah olsa da,
Qan içən zatın içərlər qanın, allah olsa da.

1. Gəncə ruslar tərəfindən zəbt olunarkən zalimanə bir surətdə doğranılan Gəncənin sonuncu xanıdır. 2. Hüriyyət-dən sonra çar Nikolayın Sibiriyaya sürgün edilməsinə işarə-dir. 3. Bakı ruslar tərəfindən fəth olunduqda əhali ziyarətga-hı olan müqəddəs Şeyx İbrahim türbəsi kömrükxanəyə çev-rilmişdir. İçərişəhərin şərqində dəniz kənarında vaqe olan kömrükxanadır. 4. Məşhur Dəli Petrovi-kəbirdir. 5. Tatar xanlarındandır. 6. Rusların ən qan içici yırtıcılarındandır. 7. Bu dəxi rus xanlarının ən qan içici və ən yırtıcılarındandır. 8. Krım-türk xanlarındandır. 9.1912-də rüs saldatları tərəfindən tutulmuşdur. 10. Romanov sülaləsi.

*1337-1919, 10 yanvar.*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

## RUSİYYƏ QƏHRƏMANI RASPUTİN

Ruhuna lənət deməm, min rəhmət olsun, Rasputin!
Məskənin dünyavü üqba cənnət olsun, Rasputin!
Çarını Rusiyyənin yaxşı yetirdin hörmətə,
Nail etdin Saşkanı bilxassə övci-izzətə.
Can qoyub Rusiyyəni böldün otuz-qırx dövlətə,
Gərçi qatlaşdın beş-on gün din yolunda zəhmətə.
Lakin etdin ruhunu layiq mütəntən rəhmətə,
Həqqi-istiqlal verdin mərhəba hər millətə.
Qanını gər tökməsəydin bu müqəddəs türbətə,
Həşrədək həsrət qalardın nazənin hürriyyətə.
Fərzdir odari-millət adın olsun, Rasputin!
Həzrəti-İsa sənin imdadın olsun, Rasputin!

Aşiqi-hürriyyət olduq biz dəxi çəkdik cəfa,
Gah vətəndə hin qayırdıq, gah Sibiryada yuva.
Gah ələ qalxan götürdük, gah ox, gahi cida,
Gahi atdıq top, tüfəng, açdıq cəsarətlə luva.
Tapmadıq azadəlikdən bir əsər biz mütləqa,
Sənlə bildik Saşkanın eşqindədir ol məhliqa (hürriyyət)

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əqlinə qurban sənin bu canım olsun, Rasputin!
Fəhminə qurban sənin cananım olsun, Rasputin!

Menşikovlar naminə əvvəl qopartdın vəlvələ,
Eylədi yavərlərin əlaltı qızğın məlhələ,
Xaneyi-şahanədə axır törətdin gülgülə.,
Aşna, daş qoy üstünə, dinlə, gətirmə heç dilə.
Nəqd can qoymaqla saldın öylə bir canan ələ,
Qibtə verdi qönçəyə ağzı, ləbi-ləli gülə.
Sən dəxi qıllı çobansan, döndün axır bülbülə,
Qəsr, qəsr üstündə yapdın, nuşcan olsun, lələ,
Səndəki əqlə, kəmalə əhsən olsun, Rasputin!
İşrətə, keyfə, vüsalə əhsən olsun, Rasputin!

Sən demə, pərvanətək şəmi-cəfa suzanıyam,
Sən demə, bir Leylinin Məcnuni-bisamanıyam,
Sən demə, Şirinləbin Fərhadi-sərgərdanıyam,
Sən demə, Əzravəşin bir Vamiqi-nalanıyam,
Sən demə, Katrinanın həsrətkeşü giryanıyam,
Sən demə, mən Annanın məczubi-dil büryanıyam,
Sən demə, Fedorovnanın bir xanəsi-viranıyam,
Ağ məmə üstə qoyulmuş saqqalın qurbanıyam,
Ol məmə, ol qönçələb imanın olsun, Rasputin!
Ol öpüş, ol kami-dil ehsanın olsun, Rasputin!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Bir öpüş qurbanı etdin Romanov övladını,
Bir kötək palkalı etdin Corinin əcdadını,
Yandırıb yaxdın bir oxla Petrovun həftadını,
Baxmadın həqqə ucaltdın Saşkanın fəryadını,
Aşna, eşq olsun, yedin sən Kolyanın hər zadını,
Daşkovun şad etdin əlhəq xatiri-naşadını,
Birdi, min etdin o gün Rusiyyənin imdadını,
Yaxşı  abad eylədin moskovların bərbadını,
Qəlbi-bərbadın görüm abad olsun, Rasputin.
Qəmli könlün hər zamanda şad olsun, Rasputin.

Aldığın bu yoldakı fərman, xuda fərmanıdır,
Qıldığın ehsan İvanın sevgili ehsanıdır,
Açdığın meydan, bəli, əhli-hünər meydanıdır,
Verdiyin qiymətli can iffətli Məryəm canıdır,
Etdiyin mərdanə cövlan şiri-nər cövlanıdır,
Əmdinyin ləb Saşkanın gül-qönçeyi-xəndanıdır,
Tökdüyün qan-qanının qurbanı - İsa qanıdır,
Qəm yemə, Rusiyyə həm bir Rasputin qurbanıdır,
Yandığın zülm atəşi gülzarın olsun, Rasputin.
Kolya, Saşka hər zaman qəmxarın olsun, Rasputin.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## İkinci Nikolayın həbsindəki fəryadı

Təxtimi taracə verdin, dad əlindən, Rasputin.
Eylərəm fəryad, min fəryad əlindən, Rasputin.

Hökmrandım, hökmümə tapmadı bilcümlə cahan,
Verdiyim fərmanə dövlətlər qoyardı başü can,
Məşğələm baş kəsmək idi, içdiyim içki də qan,
Həm asardım, həm basardım, həm kəsərdim hər zaman,
Vəhşətimdən tük salardı ağatlı qıllı qaban,
Sən məni bərbad qıldın, dad əlindən, Rasputin,
Eylərəm fəryad, min fəryad əlindən, Rasputin,

Yeddi islam ölkəsin zəbt etdim, aldım canını,
Cümləsin qırdım, dağıtdım, xakə tökdüm qanını,
Darə çəkdirdim sitəmlə xanını, sultanını,
Parça-parça eyləyib sərdim yerə Quranını,
Kolyanın varmıydı icra etməyən fərmanını?
Şanını sən alçaq etdin, dad əlindən, Rasputin.
Eylərəm fəryad, min fəryad əlindən, Rasputin.

İzzətü iqbalıma heyrandı min əhli-cəlal,
Şövkətü övzaimə maildi min əhli-kəmal,
Əsgərim milyardla, həddən ziyadə mülkü mal,
Tökdüyüm qan, kəsdiyim başı edən kimdir sual?
Öylə halə düşməyim bir əmridi, əmri-məhal,
Baisi ancaq sən oldun, dad əlindən, Rasputin.
Eylərəm fəryad, min fəryad əlindən, Rasputin.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Qeyri-rusa vermədim qüvvət, fəlakətdən savay,
Qoymadım bir elmdən bilsin, cəhalətdən savay,
Qoymadım kəsbi-kəmal etsin səfalətdən savay,
Vermədim islamə həq, qətlü cinayətdən savay,
Kimdi haqqımda düşünsün həp itaətdən savay,
Sən törətdin ixtişaşı, dad əlindən, Rasputin.
Eylərəm fəryad, min fəryad əlindən, Rasputin.

Pul töküb hər ölkədə meyxanə açdım millətə,
Qalmasınlar mən var ikən həsrət eyşü işrətə,
Madmazellər bəslədim minlərlə təbi-xidmətə,
Kim Məhəmməd ümməti öyrəşsin hifzi-səhhətə,
Mail idi əhli-aləm bu hünər, bu qüvvətə,
İndi bir aciz uşağam, dad əlindən, Rasputin.
Eylərəm fəryad, min fəryad əlindən, Rasputin.

Vay görüm, Fyodorovna, razı gözlərin tutsun sənin,
Saşkanın işvəylə nazı gözlərin tutsun sənin,
Etdiyi iczi-niyazü gözlərin tutsun sənin,
Çaldığı tənburü sazü gözlərin tutsun sənin,
Açdığın meydani-bazi gözlərin tutsun sənin,
Təxtimi taracə verdin dad əlindən, Rasputin.
Eylərəm fəryad, min fəryad əlindən, Rasputin.

*1919, 10 yanvar.*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# QİRAƏT

*(iqtibas)*

## Şir, tülkü və ulaq

Bir zaman çərxi-dun atıb bir daş,
Şir, tülkü, ulaq olub yoldaş.
Oldular hər üçü şikara rəvan,
Etdilər çox qürurilə cövlan.
Həddən artıq çalışdılar hər üçi,
Çoxlu ov tutdular o üç ovçi.
Şir gördükdə ovları, əl`an,
Ulağa verdi bölməyə fərman.
Ulaq isə o ovları dərhal,
Üç yerə böldü, etmədi ehmal.
Şir bu bölgüdən acıqlandı,
Od kimi qəhrü qeyzdən yandı.
Ulağı vurdu, yıxdı, parçaladı,
Ətini yedi, qanını yaladı.
Sonra əmr etdi tülküyə bölsün,
Tülkü, az qaldı, bölmədən ölsün.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qurudu qorxudan dili, dodağı,
Titrəyə-titrəyə əli, əyağı.
O baxışda kiçik, bilikdə yekə,
Özü üçün götürdü bircə tikə.
Qalanını bəxş qıldı şiri-nərə,
Düşməsin ta ulaq kimi zərərə.
Şir qaldı bu bölgüyə heyran,
Tülküdən sordu keyf ilə şadan:
"De görüm, böylə bölgünü fövri
Kimdən öyrəndin, ey gözüm nuri?"
Dedi: "Ey bimisal sultanım!
Sənə qurban bu müztərib canım,
Dövlətindən əzizi-dilbəndim,
Ulağın ölməyindən öyrəndim".

## Hindli və ingilis

Hindlilər ingilislər ilə müharibə edəndə onlardan bir nəfər qısaboylu adamı əsir eləmişdilər, məzkuru ağaca bağlayıb güllə ilə vurmaq istəyirdilər. Bu əsnada bir qoca hindli irəli yürüyüb dedi:

—Onu öldürməyin, mənə rüxsət verin.

Onlar isə buna rüxsət verdilər, mərhəmətli hindli o ingilisi ağacdan açıb öz damxasına götürdü. Onu yemək verdikdən sonra yatacaqda yatırtdı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

O biri günü hindli onu da özüylə götürüb yola düşdülər. Hər ikisi birgə xeyli yol getdilər. İngilis ordugahına bir az qalanda hindli gülə-gülə dedi:

—Sizin ingilislər mənim oğlumu öldürdülər, mən isə səni azad edirəm. Ama sən indi gedib o əsgərlərə qoşul və bu yaxşılığımın əvəzində məni öldür. İngilis bu sözə təəccüb edib dedi:

—Sən mənə neçün gülürsən? Mən bilirəm sənin oğlunu ingilislər öldürmüşlər, sən dəxi oğlunun əvəzində məni tezlik ilə öldür.

Hindli: — Xeyr, mən sənə gülmürəm. Bəlkə səni onlar öldürmək istəyəndə oğlumu yada salıb sənə yazığım gəldi. İndi öz adamlarının yanına get, məni bu hörmətimin əvəzinə qətl elə, — deyə qoca hindli onu azad elədi.

## İki yoldaş

İki yoldaş, iki cavan həmtay,
Dalına aldı hər biri bir tay.
Birisi alcağın ötüb getdi,
Dinc, rahat məkanına yetdi.
Nə yoruldu, nə düşdü taqətdən,
Nə də qaldı dala rəfaqətdən.
O biri gah gedib, gahi durdu,
Gah yükü, gah özün yerə vurdu.
Yükünü hər küçəbaşı düşürüb,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bir qədər dincəlib, yenə götürüb,
Bu götür-qoy salıb onu gücdən,
Qaldı daldan-dala rəfiqindən.
O qədər kim yoruldu bu bifər,
O birisi yorulmadı o qədər.

## Tülkü

Bir gün bir tülkü tələyə düşdü. O qədər dartındı ki, quyruğu üzüldü. Quyruğu üzüldüsə də qorxudan lap uzağa qaçdı. Lakin buna gəh zühuri — qəziyyədən çox fikrə düşdü. Bir qədər fikirləşdikdən sonra yoldaşlarından neçəsini çağırdı və quyruğunun üzülməyi xüsusində söhbət elədi. Tülkülərdən biri dedi:

—Quyruq toppuz deyil ki, dava edəndə gərək olsun! Fəqət artıq və ağır yükdür. Hər yana gedəndə gərək həmmal kimi özün ilə aparasan.

O biri tülkü buna cavabən dedi:

—Gərək bu sözü deməyəydin, çünki quyruq olmayanda lümək olub yaraşığı olmayır.

Quyruqsuz tülkü daha xəcalətindən bir söz demədi. Dərhal qalxıb bunların yanından qaçdı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## Palıd ilə qoz ağacı

Palıd ağacı özünü öz qozaları ilə qoz ağacının altına yerə yıxdı. Qoz ağacı bunu gördükdə dedi:

—Məgər sənin budaqların az yer tuturmu? Sən özünü qozaların ilə tərtəmiz yerə yıxdın; burada mənim təzə göyərmiş qıçalarımı qırdın. Ama mən onları gözləyib qozlarımı yerə tökməyirəm. Adamlara yeməyə verirəm!..

Palıd: — İki yüz ildir ömr edirəm və başqa palıdlar dəxi qozanın sayəsində bu qədər ömür edirlər.

Qoz ağacı bu sözdən acıqlanıb dedi:

—Sənin palıd yoldaşlarını öylə qatlaram ki, iki gün də yaşaya bilməzlər!

Palıd daha buna cavab vermədi. Öz qol-qıçalarına, qozadan çıxıb böyüməyi əmr elədi. Qozalar sulanıb çatladı. Və yerə bir qarmaq uzadıb yeri qarmaqladı. Ama yer onun qarmağını yuxarı qaldırdı. Qoz ağacı isə buna paxıllıq edib üstünü örtdü ki, gün düşməsin. Ama palıd qoz ağacının kölgəsində böyüyüb günbəgün qutlandı. Yüz il keçdi. Qoz ağacının çox yeri qurudu. Lakin palıd ağacı daha da uzanıb qol-budağını ətrafa yaydı.

## Arslan və ulaq

Səlabətli, qutlu bir arslan
Olanda ova sətut ilə rəvan,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Apardı özü ilə böyük bir ulaq
Ki, yəni gödəkəql uzunqulaq.
Keçərkən yeyin dağları, düzləri,
Bu yandan- o yandan düşüb sözləri.
Uladı neçə vəqtlər həm bəyan
Sözün ortasında ona arslan
Dedi: "Ey mənim dadxahim ulaq!
Yarım, yoldaşım, padşahım ulaq!
Amandır, mənə lazım olmuş yemək,
Kömək istərəm səndən, eylə kömək".
Ulaq söylədi: "Ey şəhi-kamiran!
Buyur, əmrini hökmün ilə rəvan.
Buyursan mənə hər qədər əmr sən.
Başımla onu eylərəm cari mən".
Dedi şir ulağa: "Gözəl yoldaşım!
Sənə qurban olsun qohum-qardaşım.
Görürsən bu qiymətli, sıx ormanı,
Bu gün bundadır dərdimin dərmanı.
Bu ormanda var yağlığa, can rəfiq!
Bu ormanda var zorba ceyran, rəfiq!
Gəlib rəhm çağı, mürüvvət çağı,
Gəlib ormana, başla anqırmağı.
Əgər bir kərə səsləsən survar,
Çıxar bayıra meşədən hər nə var.
O vəqt onları cümlə xürdü kübar
Yığıb öldürüb eylərəm tarmar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Yığıb bir qədər tox olarsam əgər,
Vurub elərəm ərşi zirü zəbər.
Fəqət indi hökmən yəqin eylə kim,
Sənin sövtinə bağlıdır dirilik.
Əgər qorxuluq noxtasın qırmasan,
Gedib ormana bircə anqırmasan,
Edər dərdü qəm bağrımı çak-çak,
Yəqinən, məni aclıq edər həlak".
Eşitcək bu ovsafı nadan ulaq,
Fərəhləndi, həm oldu şadan ulaq.
Qulaqlarını şəkləyib, quyruğunu diklədi,
Gəhi qaçdı, gah dəvə tək lüklədi.
Təbii tarın tellərin etdi saz,
Gedib ormana başladı şahnaz.
Bir anqırmaq ilə hamın çaşdırıb,
Salıb cümləni xofə çaxnaşdırıb,
Kəsib səbrini vəhşi heyvanların,
Filin, ayının, bəlkə arslanların.
Xilas olmağa min cığır açdılar,
Durub hər biri bir yana qaçdılar.
Bu dəmdə tutbu onları arslan,
Yeyib zövq ilə eylədi nuşcan.
Doyandan sonra şad, həm kamiyab,
Ulağa bu növ ilə etdi xitab.
Cahanda, əzizim, ulaq varsa çox,
Sənin tək gözəl anqıran yoxdu, yox.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Onunçün səni can kimi istərəm,
Nə can, bəlkə canan kimi istərəm.
O gündən ulaq hey bu vəqtə qədər
Nə qədər anqırıbsa, olubdur hədər.
Nə tərif edən var onu, nə sevən,
Nə yoldaş deyən var, nə halın bilən.

## Qurd və qarı

Bir ac qurd kəndin kənarında dolanıb ov axtarırdı. Yol ilə keçdiyi halda gördü bir yerdə uşaq ağlayır. Və nənəsi ona böylə deyir: — Əgər ağlamağını kəsməsən səni verərəm qurda aparsın.

Qurd bu sözü eşidincə dayandı. Və gözlədi ki, uşağı ona versinlər. Qaranlıq çökdü. Axşam oldu. Qurd isə gözləyirdi. Lakin bir azdan sonra gördü ki, həman nənə uşağa deyir:

—Ağlama balam, səni qurda vermərəm. Əgər qurd buraya gələrsə, tutub başını üzərik.

Qurd bunu eşidincə: — Görünür ki, bu evdə bir cürə deyilir, başqa cürə əməl edilir, — deyib çıxıb getdi.

## Axmaq ördək və ay

Bir ördək çayda üzüb ov axtarırdı. Tamam günü gəzdi. Bir danə də olsun balıq tapa bilmədi. Axşam oldu. Ayın işığı

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

suya düşdü. Ördək öylə zənn etdi ki, balıqdır, suyun dibinə baş vurdu. O biri ördəklər bunu gördükdə:

—Axmaq ördək, bu vəqtədək bir danə olsun balıq tapa bilməmişdir. Hətta suyun altında balıq görürdüsə də tənbəlliyindən suyun altına girməyirdi. Amma indi ayı balıq sanıb suya cumur.

Yazıq ördək isə o gecə acından öldü.

## Ən gözəl armud

Bir tacir qulluqçusuna dedi:

—Get bazardan mənim üçün dadlı və yaxşı armud al. Qulluqçu bazara getdi. Bir dükançıdan armud istədi. Dükançı da istədiyi qədərdə çəkib verdi.

Qulluqçu:

—Xeyr, lap yaxşısını istəyirəm.

Dükançı:

—Bircə dişlə, gör sənə necə armud verirəm.

Qulluqçu birisini götürüb:

—Baxın, bunu dişlərəm. Yaxşı olsa bilərəm ki, hamı yaxşıdır.

Dükançı razı oldu. Qulluqçu birini dişlədi. Gördü yaxşıdır. Armudları alıb yola düşdü. Evə gəldikdə yolda armudların hamısını az-az dişlədi. Sonra götürüb ağasına verdi. Ağası isə armudları qəbul etməyib qulluqçunu qovladı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

## Dəli və bıçaq

Bir dəlinin var idi bir bıçağı,
Çağdı daim onunla dil-damağı.
Saf idi, parlaq idi, ötkin idi,
Yaraşıqlı, gözəl və kəskin idi.
Bir gün oldu bıçağına məğrur,
Etdi əlhəq səfahəti ona zür.
Başladı ol bıçaq ilə şadan,
Bir yoğun mıxı kəsməyə cərran.
Çəkdi, çəkdi bıçağın nə qədər,
Etmədi mıxa zərrə qədər əsər.
Dedi: "Yandı bu gün mənim dəmağım,
Gicəlib çünki bu gözəl bıçağım".

***

Yenə bir gün həman bıçaq ilə,
Keyf ilə, zövq ilə, dəmağ ilə,
Xəşili kəsməyə edib iqdam,
Edə ta ki o zar, kəsbi-məram.
Hər qədər kəsdi, doğradı xəşili,
Görmədi bir kəsik xəşildə dəli.
Çünki, yumşaq idi xəşili - əkmal,
Bitişirdi bıçaq yeri dərhal.
Gördü kəskin bıçağı kim o dəli,
Kəsməyir nə mıxı, nə də xəşili.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

"Mənə lazım deyil bu növ bıçaq",-
Deyə atdı bıçağı xeyli uzaq.

## Alim və quldur

Bir quldur hökumət məmurları çoxdan axtarırdılar. Lakin ələ sala bilməyirdilər. Bir gün yenə həman quldur şəhərə gəldi. Məmurlar bunu gördülər. Tutmağa qəsd etdilər. Dalısınca düşüb qovmağa başladılar. Quldur dəxi qaçırdı. Qaça-qaça girməyə yer axtarırdı. Çünki, özünü tutulmaqdan qurtarmaq istəyirdi. O halda bir alimin qapısı açıq idi. Quldur fil-fövr o alimin həyətinə girdi. Alim onu həyətində görüncə:

—Sən kimi istəyirsən?

Quldur çaşdığından bilmədi nə cavab versin, dərhal bəhanə edib:

—Mən alimi istəyirəm!

Alim: — Axı buraya nə üçün gəlmisən?

Quldur: — Mən quldurам, məni tutmaq istəyirlər, qaçıb buraya pənah gətirmişəm. Allah xatirinə tez ol məni gizlət. Əgər gizlətməsən ölməyə hazır ol.

Alim: — Mən qocalmışam, ölümdən qorxmuram. Lakin sənə yazığım gəlir, rəhm edə bilərəm. Get o dəhlizdə bir az dincəl, çox yorulmusan, mən dəxi sənin üçün çörək gətirərəm.

Polis məmurları isə alimin evini axtarmadılar. O cəhətlə quldur bir az dincəldi. Sonra alim yanına gəlib:

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

—Oğul, sənə aclıq və soyuqdan titrəməməyin üçün rəhmim gəldi, bir tərəfdən it qurdu qovan kimi səni qovurlar. Ama hamısından artıq bu işinə təəssüf edirəm ki, çox cahilsən, öz canının qədrini bilməyirsən. Gözəl diriliyini zay etmə, bu pis əməllərdən əl çək,- dedikdə quldur isə:

—Pis olsa da, əl çəkmək olmaz, quldur olan böylə yaşayıb, böylə ölər,- deyə cavab verdi.

Alim qalxıb yatmağa getdi və qapılarını büsbütün açıq qoydu. Gecə yarısı quldur qapıların açıq olduğunu bildi. Dərhal qalxıb bir şey oğurlamaq üçün dəhlizi axtarmağa başladı. Böyük bir gümüş şamdan tapdı. Şamdana baxıb fikrə getdi və öz-özünə dedi:

—Bu şamdanı oğulrlayıb artıq qiymətə sataram. Və rahətcə buradan çıxıb gedərəm, dəxi bu qocanı öldürmərəm.

Böylə də elədi.

Polis məmurları alimin evindən şübhələnmişdilər. Onlar qapısını kəsib durmuşdular. Quldur şamdanı götürüb qapıdan çıxdıqda onu əhatə etdilər. Axtarıb şamdanı onun ətəyinin altından çıxartdılar. Quldur çox yalvardı, buraxmağını xahiş elədi.

Polis məmurları buna cavabən:

—Əgər bundan iləri xahiş etsəydin, qurtara bilərdin. Lakin indi səni buraxmaq olmaz. Çünki, alimin də şeyini oğurlamısan. Gedək alimin yanına, o da səni müqəssir edəcəkdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məmurlar qulduru aliimin yanına gətirdilər. Və alimlən soruşdular:

— Bu şamdan sizinkidirmi?

Alim: - Bəli, mənimkidir!

Məmurlar: — Sizin bu şamdanınızı bu oğru oğurlamışdırmı?

Quldur isə sakit durmuşdu. Arabir quldur kimi o yan-bu yana baxırdı. Alim heç bir söz söyləməyib evinə qayıtdı. Dəhlizə gəlib şamdanın o birisini götürdü, quldura verib dedi:

—Dostum, neçin şamdanın birini götürməmisən? Al mən sənə ikisini də bağışladım!

Quldur xəcalət çəkib ağlamağa başladı. Ağlaya-ağlaya məmurlara yalvardı və xilas olmağını təvəqqe elədi.

Sonra üzünü alimə çevirib:

—Allah xatirinə, məni bağışla və mənim üçün Allaha dua elə, — dedi.

## Miras bölgüsü

Bir nəfər əhli sövmi-sələvat,
Xəstələndi, nəhayət etdi vəfat.
Qaldı ondan hesabsız sərvət,
At, qatır, mal, simü zər, dövlət.
İki də oğlu var idi bifər,
Durdular malı bölməyə yeksər.
Lakin ol simü zər, o mali-mənal

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Oldu oğlanlarına vəzərü bal.
Bölgü üstündə etdilər qovğa,
Açdılar bisəbəb böyük dava.
Saldılar evlərinə şur ilə şər,
Qurdular bir keşakeşi-məhşər.
Birinə düşdü bağ, birinə zəmi,
Birinə araba, digərinə gəmi.
Birinə düşdü ev, birinə qoyun,
Əymədi heç biri bu əmrə boyun.
Yorulub axır ol iki biqəm,
Tikdilər qonşunu bir həkəm.
Qonşu isə tamam simü zəri,
Yorğanı, yastığı, döşəkçələri.
Zəmini, bağı, bağçanı, yurdu
İkiyə böldüyü kimi vurdu.
Kasanı, nimçəni, küpü, küpəni,
Lampanı, çayniki və susəpəni,
Büsbütün qab-qacağı əlqissə,
Sındırıb eylədi iki hissə.
Sonra da qatırı, atı, ulağı,
Kudunu, qarpızı, evi, eşiyi,
Yığdı kəsdi həm eylədi pamal,
Şabbalatdı tamamını filhal.
İkiyə böldü ol əqilli həkəm.
Olmasın ta ki, işləri bərhəm,
Lakin öldü tamam heyvanlar,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Oldu nahaq tələf gözəl canlar.
Sındı qab, şişə qalmadı heç zad,
Yıxılıb oldu evləri bərbad.
Naümid ol iki nəfər məzlum,
Oldular cümlə ərşdən məhrum.
Müxtəsər ol həkəmlər ustadı,
Yoxsul etdi o varlı övladı.

## Bəxşiş

Bir kəndli yol ilə gedirdi. Yoldan qiymətli bir daş tapdı. Padşahın yanına apardı. Kəndli həyətə girdi. Padşahın məmurundan soruşdu:

—Padşahı nə növ görmək olar?

Məmur: — Padşah ilə nə işin var?

Kəndli əhvalatı ona bəyan elədi.

Məmur: — Yaxşı, mən səni padşahın yanına apararam. Bu şərt ilə ki, padşah sənə hər nə bağışlarsa, yarısını mənə verəsən. Əgər qəbul etməz isən, səni padşahın yanına buraxmaram. Kəndli bu şərtə razı oldu. Məmur onu padşahın hüzuruna gətirdi. Kəndli kəmali-ehtiram ilə daşı padşaha təqdim etdi. Padşah daşa baxdı, bəyənib dedi:

—Sənə bunun əvəzində nə bağışlayım?

Kəndli: — Dövlətli şahım, əlli qamçı vurmaqdan başqa bir şey istəmirəm. Çünki sənin məmurunla öylə şərt etmi-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

şəm, padşah həzrətli mənə hər nə əta edərsə, yarısını ona verəcəyəm.

Padşaha bu söz xoş gəldiyi üçün gülümsünüb kəndliyə min manat pul bağışladı, məmuru isə qovladı.

## Kəndli və turp

Bir nəfər kəndli turpu sevməz idi,
Onun üçün də turp əkməz idi.
Turp lakin çıxardı öz-özünə,
Baxmaz idi  o kəndlinin sözünə.
Kəndli də bostana gəlib tez-tez,
Yolar idi o turpları gəz-gəz.
Yolduğu turpları o xoşkirdar,
Ətəyinə yığıb atardı kənar.
Lakin ol köhnə turplar, yenidən
Çıxar idi o atdığı yerdən.

## Tamahkar pişik

Bir uşaq bıçaq ilə bir qədər pendir doğradı. Sonra bıçağı yerə qoyub pendiri atası üçün apardı. Uşaq gedincə pişik gəlib pıçağı yalamağa başladı. Pıçaq isə dilini kəsdi. Pişiyin əsla xəbəri olmadı. Nə qədər dilindən qan axdısa hamısını yaladı. Axır pişiyin dili şişib ağzında dolanmadı. O vəqt bildi ki, dili yaralanmışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## Tum

Bir arvad şaftalı aldı ki, xörəkdən sonra uşaqlarına versin. Götürüb mətbəxdə bir qab içinə qoydu.

Oğlu Səməd əsla şaftalı yeməmişdi. Ona görə yeməyə çox çalışırdı. Gözü şaftalıda qalmışdı. Ağzının suyu axırdı. Gördü ki, mətbəx xəlvətdir. Heç kəs yoxdur. Daha tamahını saxlaya bilmədi. Şaftalının birini götürüb yedi.

Anası gəlib xörəkdən irəli şaftalıları saydı. Gördü biri əksikdir. Filfövr bu işi ərinə söylədi. O isə dayanıb xörəkdən sonra uşaqlarından soruşdu:

—Balalarım, biriniz evdəki şaftalıdan yemişmi?

Uşaqlar hamısı yemədiklərini söylədiyi kimi, Səməd dəxi alma kimi qızarıb dedi.

—Xeyr ata, mən yeməmişəm.

Ata:

—Yəqinən, biriniz şaftalıdan yemişdir. Yaxşı iş görməmişdir. Ama, bu çox çətin iş deyil. Lakin çətin orasıdır ki, şaftalının böyük tumu vardır. Şaftalı yeyən səhv edib tumunu da yemiş olsa bir neçə saatdan sonra öləcəkdir. Mən də bunun üçün qorxuram.

Bu halda Səmədin rəngi ağarıb dedi:

—Bəli, mən şaftalını yedim, tumunu da çıxarıb pəncərədən bayıra atdım.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

## Qarğa və göyərçin

Qarğa gördü ki, göyərçinləri çox yaxşı bəsləyirlər. O dəxi rəngini ağardıb göyərçinlərin yanına uçdu. Göyərçinlər onu həmcinsləri hesab edib yanına yüyürdülər. Ama, qarğa göyərçinləri unudub qarıldamağa başladı. O vəqt göyərçinlər onu dimdikləyib oradan qovdular. Qarğa həmcinsi olan qarğaların yanına uçub getdi. Lakin qarğalar onun ağlığından ürküb yanlarından qovdular.

## İt və qurd

Bir arıq it həyətdə qəmgin,
Uzanıb yatmış idi ol miskin.
Gəldi ol dəmdə yanına bir qurd,
Gördü bomboşdu ev-eşik, həm yurd.
Fikrə düşdü ki, qəsdi-can etsin,
O arıq iti nuşican etsin.
İt onun anlayınca niyyətini,
İstədi rədd edə əziyyətini.
Dedi: ey qurd lələ, bir az səbr et.
Arığam mən hələ, dayanma get.
Qoy bir ay dincəlib, yeyib, kökəlim,
Yağlanım, çağlanım, özümə gəlim.
Sonra gəl ye məni dəmağ ilə,
Həzz apar, keyf qıl məraq ilə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qurd inanıb sözünə çıxıb getdi,
Gəldi, bir ay tamam olub yetdi.
Bu səfər gəldi, gördü it usanıb,
Bir uca damda tir çəkib uzanıb.
Dedi: "Ay canım, ey yürəyimə səfa,
Vədənə, gəl aşağı, eylə vəfa".
İt dedi: "Çəkmə boş yerə zəhmət,
Kərəm et, qurd lələ, məni əfv et.
Get dolan keyf qıl bu dünyada,
Dərədə, düzdə, dağda, səhrada.
Hər zaman ki, gəlib üzə durdun,
Məni yalnız həyətdə gördün,
Onda bir ləhzə vermə sən aram,
Ye məni, vəssalam vəlikram.

## Fil

Bir hindlinin bir fili var idi. Hindli filini yaxşı saxlayırdı. Amma çox işlədirdi. Bir dəfə fil acıqlandı, hindlini vurub öldürdü. Hindilinin arvadı bunu görüncə dadü fəryad elədi.

## Su adamı və mirvarid

Bir kişi dənizdə qayıq ilə gəzdikdə bir kisə mirvaridi dənizə düşdü. Kişi qəmgin qırağa çıxdı. Çıxınca dənizin suyunu çəllək ilə çəkib qırağa tökməyə başladı. Bu növ ilə üç gün

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

çəllək ilə su çəkməyə məşğul oldu. Dördüncü gün dənizdən su adamı çıxıb soruşdu:

—Bu suyu nə üçün çəkib qırağa tökürsən?

Kişi:

—Buraya bir kisə mirvaridim düşmüşdür. Onun üçün suyunu çəkib qırağa tökürəm.

Su adamı:

—Nə vəqt dayanacaqsan?

Kişi:

—Dənizin suyu qurtaranda dayanacağam!

Su adamı bu sözü eşidəndə suya baş vurdu. Kişinin mirvaridini çıxarıb ona verdi.

## Tülkü quyruğu

Bir dəfə bir adam tülkünü tutub soruşdu:

—Quyruq ilə itləri aldatmağı sizə kim öyrətdi?

Tülkü:

—Necə aldatmaq? Biz heç vəqt itləri aldatmayırıq. Adi qaydamızca var qüvvəmiz ilə qaçırıq.

Adam:

—Xeyr, siz həmişə itləri quyruq ilə aldadırsınız. Çünki, itlər sizi qovur, quyruqlamaq istədikdə siz quyruğunuzu o yan — bu yana buluyursunuz. İtlər də quyruğunuzun dalınca yüyürür.

Tülkü gülüb dedi:

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

—Bir quyruğumuzu itləri aldatmaq üçün bulamayırıq. Ancaq istədiyimiz tərəfə dönmək üçün bulayırıq. Çünki, biz görürük ki, itlər bizi qovduqda düz gedə bilməyəcəyiz. O vəqt bizə dönmək lazım gəlir. O halda dönmək üçün quyruğumuz bizə çox kömək edir. Necə ki, insanlar yüyürəndə əllərinin köməkliyi ilə dönür. Bu isə bizim fikrimiz deyildir. Bunu Allah-Təala həzrətləri bizi yaradanda fikir eləmişdir ki, itlər tülkülərin hamısını tuta bilməsin.

## Maymun və noxud

İki ovuc dolusu, bir maymun,
Götürdü noxud, evə məmnun.
Sürüşüb düşdü bir noxud birdən,
İstədi qaldıra onu yerdən.
Daha da bir çoxu töküldü yerə,
Düşdü həddən ziyadə dərdi-sərə.
Püfləyib, küfləyib alovlandı,
Şiddəti - hirsdən acıqlandı.
Qalanın da səpib biyabana,
Tapdayıb qaçdı getdi bir yana.

## Quduz it

Bir arvad kiçik tula (it balası) aldı. Həman tulanı dəri kiminin qolu içinə salıb kəndə götürdü. Arvad tulanı çox sevir-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

di. Ona görə də onu yaxşılıqla bəsləyirdi. Bu tövrilə tula böyürdü. Arvad onun adını, "Alabaş" qoydu. Alabaş isə gah ağası ilə ova gedirdi, gah evdə keşik çəkirdi. Arabir uşaqlar ilə də oynayırdı.

Bir kərə uşaqlar bağın içində oynayırdılar. Bir köpək bağa tərəf yüyürüb gəldi. Lakin köpəyin quyruğu sallanmış, ağzı açılmış, ağzının suyu isə tökülməkdə idi. Kişi quduz iti görüncə uşaqlara tərəf qışqırıb dedi:

—Ey uşaqlar, quduz it var, tez evə qaçınız.

Uşaqlar atalarının səsmini eşidincə yüyürüb qaçmağa başladılar. İti görmədiklərinə görə bir baş itin üstünə yüyürürdülər. Quduz it bunları görüb istədi birisinin üstünə atılsın, bu halda Alabaş macal verməyib, özünü quduz itin üstünə atdı. Dalaşmağa başladılar.

Uşaqlar tez qaçıb evlərinə getdilər. Bir azdan sonra Alabaş alqana boyanmış evə gəldi.

Yaralarının ağrısından bərk zingildəyirdi. On gündən sonra Alabaş qəmlənməyə başladı. Heç bir şey yeyib-içməyirdi. Alabaşı bir boş evə salıb qapısını bağladılar. Ama uşaqlar bilməyirdilər ki, Alabaşı neçün evə salmışdılar. Bir gün yavaşca gedib qapını açdılar. Nə qədər "Alabaş, Alabaş" çağırdılarsa da etina etmədi. Heç bir əlini də tərpətmədi. Bir azdan sonra Alabaş yerindən durdu. Bir baş bağa tərəf getdi. Bağa çatınca bir külək altında uzandı. Arvad Alabaşı görüb nə qədər çağırdısa da, qulaq vermədi. Nə quyruğunu buladı, nə də ona məhəl qoydu. Lakin Alabaşın gözü

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qızarmış idi. Ağzından su axırdı. Arvad bunu görüncə filfövr ərini çağırdı:

—Tez ol, buraya gəl, Alabaş qudurmuşdur. Sən Allah, buna bir çarə eylə?

Kişi tüfəngi götürdü. Ama atanda əli titrəyib güllə Alabaşa dal tərəfdən dəydi. Yazıq Alabaş zingildəyib ulamağa başladı. Kişi bir az yaxına gəldi, gördü Alabaşın arxası qanilə qızarmış, güllə isə iki dal qıçlarına dəymişdir. Alabaş sürünüb kişinin ayağını yalamağa başladı. Kişinin ona yazığı gəlib təəssüf elədi. Pərişan ağlaya-ağlaya evinə qayıtdı. Sonra qudurmuş Alabaşı özü öldürə bilmədiyindən, bir nəfəri çağırıb ona əmr elədi ki, Alabaşı öldürsün. O şəxs dəxi aparıb kənarda Alabaşı öldürdü.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## DƏRVİŞ KƏHKƏŞAN

Gözəldir, çox gözəldir, çox gözəl,
Afərin söz deyən ərbabə, yüz min afərin.
Gər gözəllik bu isə xəlqə bu surət göstərir
Söylərəm mən lənətullah-əleyhim-əcmənin.

Sənətim ərəbə bağlamaq idi. Bütün məişətimiz, hətta ata-anamın dolanacağı onun qazancından idi. Atamın qoyduğu qərara görə hər gün səhər saat səkkizdə dükana gəlib axşam saat altıda evə gedirdim. Atamın ancaq axşam saatı azan idi. Azandan yarım saat keçmiş evə getsəydim atam mənə çox nalayiq sözlər söylərdi. "Bir də gec gəlsən, səni evdən qovaram"- deyə acıqlanardı. Mən dəxi qaidə üzrə dediyinə əməl edirdim.

İttifaqən bu gün dükanı bağlayıb evə getdiyim halda gördüm bir yasavul Məşhədi babanı tutub döyə-döyə götürür. Məzkurun nə səbəblə döyülməyini bilmək istədim. Bundan, ondan soruşub xəbər bilənə qədər yarım saat çəkdi. Axırəlamər bildim ki, bu hərif Huri adlı fəqir bir qarının gözünün ağı-qarası olan qoyununu oğurlayıbmış. O dəxi şikayətlə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

polisdən qoyununu tələb edirmiş. Ona görə polis tərəfindən tutulub döyülə-döyülə götürülürmüş.

Mən bu halı görüncə təəccüb etdim. Əli-ayağı sağ, özü salamat ola-ola nə səbəbdən işə getməyir, oğurluq kimi çirkin əməllərə həvəs edir. Mən isəm onun elmsiz olduğunu bildiyimə görə onu təqsirli hesab etmədim. Çünki, elmsiz idi. Ancaq "Allah övladını oxudan ata-anaya rəhmət eləsin" deyə keçdim. Bir küçə getməmiş qonşumuz Nadirə rast gəldim. Bir-birinə salam verdik. Amma Nadir salam verdikdə o dəm bir "ah" çəkib salam verdi. Məndən keçdi, məni onun "ah"ı təəccübə götürdü. Nə səbəblə ah çəkdiyini bilmək istədim, hətta məni qayıtmağa məcbur etdi. Qayıtdım, sis-sis edib məzkuru dayandırdım. Məndən xeyli uzaqlaşmışdı. Ona zəhmət verməmək üçün yüyürdüm, özümü ona yetirdim. Əhval soruşdum, orda çəkdiyi "ah"ın səbəbini xəbər aldım. O isə: — Ah çəkməkdən nə olacaq özümü öldürmək istəyirəm. Mən: — Nədən ötrü, nə olubdur? O: — Nə olacaq? bilməyirəm müsəlmanlar nə vaxta qədər insanlığı vəhşilikdə biləcəklər. Nə vaxta qədər biri-birini nahaq öldürüb tələf edəcəklərdir? Keçən gecə İsgəndər ilə Xosrov qumar oynayır, Xosrov uduzur. Yarım manat İsgəndərə borclu qalır. Bu gün İsgəndər yarım manatı istəyir, o isə vermək istəmədikdə İsgəndər iki güllə vurub küçənin içində Xosrovu öldürdü — əvvəlkindən daha şidətli bir "ah" çəkib yola düşdü. Mən isəm məhzun oldum. Bu şeiri oxuya-oxuya getməyə başladım:

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Ey cani, əya ləini-kimsənam,
Lənət sənə, səd həzar lənət.
Zalım ikən ah adı islam,
Lənət sənə, səd həzar lənət.
İslamı edən cahanda bədnam,
Lənət sənə, səd həzar lənət.

Amma Nadir ilə çox söhbət etdiyimə görə yarım saat azandan keçdi. Qorxudan bədənim titrəyirdi. Fikrim pozulmuş, zehnim dağılmışdı. Özümü yer ilə göyün arasında görürdüm. Atamı sakit etməyə bəhanə tapa bilməyirdim. Tapsaydım da qəbul etməyəcəkdi. Qorxunc bir hal ilə yüyürdüm. O halda rəfiqim Abidə rast gəldim. Salamlaşıb bir-birimizdən əhval sorduq.

Mən: — Doğrudurmu, deyirlər italyanlar günahsız ərəbləri qırırlar.

Abid nəhayət, qəmli bir surətdə başına hərəkət verib:

—Bəradər, italyanlar ərəbləri qırmaqda müqəssir deyildirlər. Zira dini dinlərindən, canı canlarından deyildir. Öylə olan surətdə (ədalət yox) milliyət cəhətincə haqlıdırlar. Onların əlacısa mümkündür. Lakin böylə halda müsəlmanın müsəlmanı nahaq yerə öldürməyinin mənasını bilib etməliyik. Ən əlacsız dərdimiz həman dərddir. Çünki, nə bizdə qeyrət, nə də onlarda namus vardır.

Mən müşarəleyhdə ki bu müsibətdə görüb keçdim. Azandan bir saat keçdi, evə yetişdim. Allahdan kömək istə-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yib qapını döydüm. Kiçik qardaşım qapıya gəldi. Atam dəxi pillənin üstündə dəstəmaz alırdı. Qardaşım "Kim"-deyə sordu. Mən: — Mənəm, aç qapını- dedikdə atam ayaqlarına məsh çəkə-çəkə: — Zəhrimar mənəm, dərd mənəm. Bu vəqtə qədər harada ölmüsən? — deyə pillələrdən aşağı düşdü. Mən qorxumdan heç bir tərəfə gedə bilmədim, divarın dibinə sıxıldım. Atam yetişib bir-iki təpik qarnıma, bir-iki sillə (toqat) yumruq başıma, gözümə vurduqdan sonra qapıdan bayıra çıxardı: — Get, hər yerə gedirsən — deyərək, qapını bağladı.

Ama məni bir tərəfdən atamın döyüb qovlamağı ağladırdısa, o biri tərəfdən güldürürdü. Çünki, çoxdan idi, bayır üzünə həsrət qalmışdım və bu qovmaq mənim üçün Allahdan oldu. Bir neçə qədəm evimizdən uzaqlaşdım. Haraya gedəcəyim üçün fikir edirdim. Bir yer tapa bilməyirdim. Sanki bacım, qardaşım, əmim, dayım, xalamgilin evləri yox imiş. Fəqət cavan olduğumdan çayçı dükanından başqa bir yer yadıma düşmədi. Yuxarıda denilən qövm-qardaşımın evlərini evimizin yanında qoyub on küçə uzaqda olan Hacı əminin çayçı dükanınıa getməyə başladım. O dükanda isə dərviş Kəhkəşan hər gecə nəql deyirdi. Məni də çox həvəsləndirən həman dərvişin nəql söyləməyi idi. Xülaseyi-kəlam başsız uşaq kimi bu küçə mənim, o küçə sənin gəlib həman çayçı dükanına yetişdim. İçəri girib nə gördüm, heç gözlər görməsin, dükanın dörd tərəfi xınca-xınc mömin qardaşlar ilə dolmuş, azından səksən danə qəlyan ortada düzülmüşdür. Xor-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

haxor aləmi bürümüş, tüstü cəmaətin üzünü qara pərdə kimi tutmuşdur. Orda oturanlar bir-birlərini görmürdülər, desəm xəta etmərəm,- orada dərviş Kəhkəşan əynində uzun ləbbadə, başında qələndəri papaq, qolları çirmənmiş, gözləri hədəqədən çıxmış, alnından qətrə-qətrə tər tökülür, qızğın bir halilə, şiddətli bağırtilə deyir: "Cəmaət!"

Toplaşar isə bütün ağcaqanad,
Güclü olan fili vurarlar yəqin.
Birləşər isə hamı qarıncalar,
Şiri-jəyanın dağıdarlar gönin.

Bəli, doğrudan da böylədir. Beş şəxsin birliyi bir böyük bina yapar və ən möhkəm binanı da yıxa bilər. Bu dediklərimi isbat etmək üçün sizə bir nağıl söyləyəcəm, bir səlavət deyək.

Cəmaət: — Allahüm-məsəlli-əla Məhəmməd və ali Məhəmməd.

Dərviş: — Günlərin bir günündə bir cinik (sərçədən də kiçik quşdur) ağaca yuva edib balaların bəsləyirdi. O meşədə dəxi böyük bir fil var idi və ətrafda axar sudan yığılan bir göl əmələ gəlmişdi. Həman fil hər gün su içdikdən sonra gəlib yanını, arxasını cinikin yuvası olan ağaca sürtərdi. Ağac tərpənib ciniki və balalarını narahat edərdi. Axırəlamər, cinik balalarının zəhmətlərinə davam edə bilməyib, filin dəfinə çarələr axtarmağa başladı. Öz-özünə dedi: — Fil güclü bir düşmən-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

dir. Onu tədbir ilə dəf etmək lazımdır və bir də demişlər "Tək əldən səs çıxmaz". Bir daha başqasını tapmalıyam. Zira, güclü düşməni dəf etmək üçün əl-ələ vermək lazımdır. Əlhal ağcaqanadların rəisi yanına gedib onunla məsləhət və məşvərət etməliyəm. Çünki demişlər məşvərət həqiqətin yolgöstərənidir. Məşvərət ilə olan iş fəna olmaz. Hərədə bir əql, bir tədbir olur. Kiçicik iynənin gördüyü işi böyük biz görə bilməz. Bunlardan əlavə ağcaqanad dəxi filin böyük düşmənidir. Düşməni isə həqir sanmamalıdır.

Dərhal xəyal ilə ağcaqanadların rəisi yanına gəldi. Nəhayət, kəmal məlaimətilə:

—Bəradər, yıxılmışa kömək yoldaşlarından, əvvəllər keçmişdə aramızda cüzi bir düşmənçilik olmuş və əsgərlərinə sui-qəsd edib balalarıma yedirtmişəmsə də, lakin böylə vəziyyətdə sülh edib məəlittifaq fil kimi böyük bir düşməni rədd etməliyik. Bələks, biz o böyüklükdə düşmənin hücumu əsnasında birləşməyib bir-birindən ayrılar isək o vəqt hamımız tələf olarıq, nəslimiz kəsilər, vətənimiz özgələrə mal olar. Bədəuzilə filin macərasını bəyan etdi.

Ağcaqanadların rəisi isə ağıllı və şüurlu olduğuna görə onun dediklərini təsdiq etdi və nə tədbir ilə dəf edəcəyini sordu.

Cinək: — Siz əsgərlərinizi yığıb filin üstünə gətirməlisiniz, ancaq filin gözünü və qulağını qan axana qədər yaralamalısınız.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Ağcaqanadların rəisi dərhal əsgərlərini yığıb getdi. Cinəkin tədbirini əmələ gətirib qayıtdılar. Cinəkə məlum etdilər, cinək filfövr milçəklərin rəisi yanına gəldi, irəlidəki sözlərdən buna da söylədi, imdad istədi. Milçəklərin rəisi onunla bir məahidnamə əqd etdi ki, bundan sonra daha onun əsgərlərinə zərər yetirməsin. O dəxi qəbul etdi, sonra milçəklərin rəisi ondan nə tədbir ilə iş görəcəyini sordu.

O: — Ağcaqanadlar filin qulağını,gözünü yaralamışlar. Siz dəxi kor olmaq üçün onun gözlərindəki yaralara fəzləniz-dən buraxmalısınız, daha ondan sonra çölə çıxıb yeyib-içə bilməz, canımız asudə olar.

Milçəklər dəxi onun dedikdərini əmələ gətirib müraciət etdilər.

Ana cinək fili tezlik ilə həlak etmək qəsdində idi. Filin gözləri isə milçəklərin fəzləsindən çirk bağlayıb kor oldu. Susuzluqdan ciyəri yanırdı, cinək həman saat qurbağaların yanına gəlib əhvalatı bəyanla, "Axırıncı əlacımız sizdədir" deyə imdad istədi. Qurbağalar ondan nə yolla iş görəcəklərini sordu.

O: — Fil bu gün dörd gündür gözləri kor olub qalmışdır, bir tərəfə gedə bilməyir. Siz ancaq gedib suyun ən dərin yerində quruldasanız, o vəqt fil su üçün sizin dalınızca gələr. Gəldikdə həman dərin suda boğulub həlak olar, bizim dəxi vətənimiz əlimizdə qalıb asudə yaşayarıq.

Qurbağalar həman saat cinəkin tədbiri mövcibincə gəlib suyun ən dərin yerində quruldamağa başladılar. Fil susuzluğun şiddətindən qorxusuz səsin dalınca getdi. Getdisə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

də həman dərin suda boğulub həlak oldu və balacalıqda uçucular fil böyüklükdə güclü bir düşmənə birləşməklə qələbə çaldılar, böyük müzəfforiyyət qazandılar. Vətənlərini dəxi əllərində saxlayıb asudə yaşadılar. Odur ki, demişlər:

Toplaşar isə bütün ağcaqanadlar,
Güclü olan fili vurarlar yəqin.
Birləşər isə hamı qarıncalar,
Şiri-cəyanın dağıdarlar gözin.

Dərviş nitqini qurtarandan sonra pul yığmağa başladı. Hərədən 5 qəpik, 3 qəpik aldı. Bədə saydı, üç manat, 88 qəpik yığmışdı. Yığdığı pulları əlində tutub dedi:

—Cəmaət, birləşməyin gözəl sifətlərindən biri də budur ki, hərəniz 5 qəpik, 3 qəpik verməklə sizə bir şey olmadı, lakin mənim üçün həftəlik xərc yığışdı. Binayi-aliyə bütün xeyir işlərdə böylə olmağı sizə tövsiyə edirəm, - dedikdən sonra, "Əladiyat, əl bərəkət, fatihə-məəsələvat"- deyə, məclisi təmam etdi. Cəmaat "Həmdsurə" oxuya-oxuya dükandan dışara çıxdılar.

*Yazılan tarixi 1911.*

Bu əsərin məzmununu balkan müharibəsi təsdiq etdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

## ÜRƏK YANĞISI

İran şahlarının Qacar sülaləsinin ikinci Fətəli şahın zamanı idi (hicri 1219). Təbrizdə Hacı İslam adlı bir şəxs var idi. Bu şəxs çox himmətli idi. Həmişə sərvət və dövlət qazanmağa çalışardı və çalışmaqla arzusuna da yetişərdi. Binai-aliyə əvvəldən yoxsul olan Hacı İslam axırda himməti sayəsində varlı olduğu kimi böyük ailə sahibi də olmuşdu. Bütün doğulan övladları göz açdıqda özlərini var-dövlət içində görmüşdülər, kəmali-asudəliklə rahət yaşayıb böyüyürdülər. Daha zəhmət çəkənlərlə əllərindəki dövlətin qədərini bilmək üçün zəhmət, məşəqqət, yaxud başqaların xidmətində olub əziyyət çəkməmişdilər. Bu cəhətlə büsbütün təcrübə və tərbiyəsiz dolanırdılar. Hacı dəxi övladları böyüdükcə alış-verişini artırırdı.

Müşarəleyh Hacının ən böyük oğlunun adı İman idi. On altı yaşında onu özü ilə bərabər Xorasana Həzrəti İmam Rza əleyhissəlamın ziyarətinə aparıb Məşhədi İman eləmiş idi, zira, onu çox sevirdi. Təəssüf ki, çox sevdiyindən onu bədbəxt etmişdi, çünki, kamalınca sevməyin nə olduğunu başa düşməmişdi, ona görə də elmsiz saxlayıb lazımınca oxutmamışdı. Guya məhəbbət ziyan verməkdən ibarət imiş.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məhəbbətdən mənfəət hasil olarsa da, lakin Hacının məhəbbətindən zərər əmələ gəlirdi.

Hacı İslam oğlu Məşədi İmanı on səkkiz yaşında olanda alış-veriş etməyə öz yerində qoyub başqa bir şəhərə getdi. Bu ticarətə getməyinə də səbəb oğluna xatircəm olmağı idi. Yoxsa Hacını öldürsəydilər də, öz yerindən tərpənən deyildi. Lakin ticarətə getdiyi şəhərdə bə'zi səbəblərə görə bir qədər yubandı. Bu yubanmaqdan çox sıxılırdı, evindən, övladlarından, ələlxüsus Məşədi İmandan nəhayət dərəcədə nigaran idi. Zira bilirdi ki, elmsiz, tərbiyəsiz böyümüş və göz açdıqda hazır dövlət görmüş bir uşaq dövlətin qədrini bilməz, əliəlakəsər naxələf olmuşlardır, ona görə də oğlana bir məktub yazıb bə'zi şeyləri bildirməyi özünə vacib bilirdi.

Dərhal əlinə qələm alıb oğluna bir məktub yazdı, məktubu bir zərf içinə qoydu, o vaxt İranda tərtibli, nizamlı poçta olmadığına görə qasidə verdi.

Qasid bir neçə gün dolanıb beş-on məktub yığdı. Neçə gündən sonra yığdığı məktubları yerinə yetirmək üçün yola düşdü. Qasidin məktubları qoymağa məxsusi bir çantası olmadığından çörəyi, libası və məktubları hamısını bir yerə bağlayırdı və hər yerdə çörək yeməyə oturanda həmən apardığı məktublar süfrənin kənarında olurdu. Ona görə Hacı İslamın məktubu necə oldusa, aradan düşüb itdi, qasidin əsla xəbəri olmadı. Məktubun itməyindən xəbərsiz olan qasid isə var qüvvəsi ilə tələsik yol gedirdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əliabbas Müznib*

Əri ölmüş bir qarı var idi. Ərindən sonra üç qız, iki oğlan övladlarının pərəstarı olub, ikinci ərə getməmişdi. Qızın birini də ərə verib iki qızı ilə bir oğlu ölmüş idi, ancaq beş övladından qalan bir ərdəki qızı və bir də yanındakı Əmin adlı tək bircə oğlu idi. Bu Əmini çox sevdiyindən bir dəfə də olsa buraxıb əsla ərə getmək istəmirdi. Bəlkə heç xəyalına da gətirməyirdi.

Bunların heç bir yerdən mədaxilləri yox idi və bir kimsə də onlara müavinət etməyirdi. Vaqeən məzkurə qarı çox qeyrətli idi, heç kimə dilənməyə əl açmaz idi, çünki namus, iffət və ismət sahibi idi, ona görə namusu ona dilənçiliyə getməyə yol vermirdi (Həqiqətən də na mussuzluğun axırıncı dərəcəsi dilənçilikdir).

Ancaq məişətləri keçmək üçün yalnız Əmin gedib çöldən odun gətirib bazarda satardı və hasil olan pul ilə dolanardılar.

Bir gün yenə adətinə görə, Əmin oduna getmişdi. O gün isə qışın şiddətli zamanı idi, hava çox tutqun idi. Külək adamı kəskin qılınc kimi kəsirdi. “Acizin ahilə zalımın qılıncından” – o təkin idi. Müxtəsər, bütün dünya bir tozlu ayinəyə dönmüşdü. O dəhşətli gündə odunun tapılmadığındanmı, ya soyuğun şiddətinə davam edə bilmədiyindənmi, axır nədənsə Əmin gecikdi, gündəki vaxtında gəlmədi. Anası ürəyini ovuşdurmağa başladı. Bir saat çəkdi qarının qəmi çoxaldı. Nigaranlıq səbrini kəsdi. İki saat keçdi – “Vay, oğlum soyuqdan dondu, ümidim kəsildi, məni kim

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

saxlayacaq" kimi fikirlərə düşdü, aqibət ağladı. Ağladısa da, evdə dura bilmədi, bir qədər həyətdə dolandı, olmadı, evə girdi, olmadı, nə oturmağa qərarı, nə səbrə davamı var idi. O zəifə davam edə bilmədiyindən, çarşab ilə başını, şalı ilə belini möhkəm sarıyıb oğlunun dalınca getməyə başladı. Bir qədəm gedib bir qədəm dayanırdı, gözlərinin yaşı yağışa macal verməyirdi. Oğlu üçün çəkdiyi ahı, şiddətlə əsən küləyi pərişan edirdi, nə zəhmətlə şəhərin xaricinə çıxdı. Dörd yolun ayrıcına rast gəldi, hansıyla gedəcəyinə məəttəl qalmışdı: bu yoldanmı getsin, bəlkə oğlu o biri yoldan gəldi. O birisindənmi getsin, bəlkə bu birisindən gəldi. Biçarənin ürəyi qana dönmüşdü. Peydərpey odlu ahlar çəkirdi, Allahını dəmbədəm iltica edirdi, oğlunun salamat gəlməsinə nəzir-niyazlar deyirdi.

Axır-əlamər, «pənah Allaha» deyə bu yolun birisi ilə yürüməyə başladısa da, özünü qanlı bir dənizdə çapalayan hiss edirdi.

*Gözü ağlar, ürəyi qan yazıq arvad,*
*Çıxardırdı səmaya ahü fəryad.*
*Götürdükcə oğulsuzluq xəyalə,*
*Sızıldardı, edərdi ahü nalə.*
*Deyərdi, görməsin dünyada daha*
*Oğul dağını bir kimsə İlaha.*
*Oğulsuz anaya hörmət edilməz*
*Nə hörmət, ölsə də, rəhmət edilməz.*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Oğuldur izzətin ümdə əsasi,*
*Oğuldur nəslin aləmdə bəqasi.*
*Oğuldur valideynin ehtiramı,*
*Oğuldur valideynin ehtişamı.*

Qarı həzin-həzin, qəmli-qəmli yürüyürdü. Başdan-ayağa islanmışdı. Soyuqdan ağac yarpağı kimi əsirdi. Yü-rüməyə taqəti qalmamışdı. Lakin oğlunu görmək ümidi onu artıq bir qüvvə ilə yürüdürdü. Çölün dörd bir tərəfinə baxırdısa, oğlundan bir əsər görməyirdi. Duman aləmi bürümüşdü, ən hündür dağlar görünməyirdi. Ancaq anaların oğuldan ümidini kəsən duman görünürdü. Duman isə yer üzünü göy kimi göyərtmişdi. Bu tərəf-o tərəfə baxmaqdan biçarə arvadın gözü şövqdən düşmüşdü. Yerə baxmaqdan başqa çarəsi olmadı. Yerə baxmaq dəxi qəm gətirən bir xasiyyətdir. O səbəblə yerə baxmaq arvadın daha da qəmini artırmışdı. Fikir edə-edə gedirdi. O halda yerdə gözünə bir ağartı toxundu. Qarı əlacsız bir surətlə əyilib ağartını yerdən götürdü, gördü zərf içində bir məktubdur. O vaxtlarda pulu zərf içinə qoyub göndərmək adət imiş. Qarı sevincək zərfi cırdı, lakin içindən heç bir şey çıxmadı, fəqət bircə məktub çıxdı. Deməli, qarı üçün ondan da bir növ peşimançılıq hasil oldu. Məktubu cırıb atmaq istədi. Lakin bir tərəfdən məktubun böyüklüyü, bir tərəfdən də savadlı olmağı məktubun cırılmağına mane oldu, cırmadı. O böyüklükdə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

məktubun nə mə’na ilə yazıldığını bilmək istədi, açıb oxumağa başladı, gördü yazılmışdır:

*1219-cu hicri, 20 şaban-elm müəzzəm. Gözümün işığı Məşədi İman, əvvəla sənin səlamətliyindir və saniən bu tərəfin əhvalını bilmək istəsən, səlamət varam, ömrünə duaçıyam. Götürdüyüm malları satdım, artıq mənfəət etdim. Lakin sən nə qazanmısan, bilməyirəm. Qazancın bəhri-təqdir, əlində olan sərmayəni yaxşı saxla. Oğlum, burada yubandığıma görə sən nəsihətimdən məhrum olmusan. İndi sənə məktubən bir neçə nəsihət və tarixi əhvalat söyləməyi özümə borc və vacib bilirəm.*

*Oğul, sən göz açıb dövlət görmüsən. Hazır dövlət isə zəhmət çəkməyən adamın nəzərində heç hesab olunar. Ələlxüsus sənin üçün. Çünki, mən əvvəldə fəqir olmuşam, bu dövləti artıq zəhmətlə sonralarda qazanmışam. O sayədən səni və qardaşlarını əziz bəsləmişəm. Sizə sıxıntılıq verməmişəm. Və zəmanəyə görə səni oxutdurmamışam. Amma sən qardaşlarını oxutdur. Tə’lim və tərbiyə görmüş ata-anan olmamışdır. O cəhətə sən dövlət qədri bilməzsən.*

*Oğlum, əqilli ol. Nəsihətimi qəbul et. Vəqt o vəqt deyildir. Mən bu dövləti zor ilə qazanmışam. Nə qədər fəhləlik, nökərçilik etmişəm. Gah küçələrdə zənbilçilik, gah gəmilərdə muzdurluq edib qəpiyi qəpik üstünə qoymuşam. Öyləliklə əlimə bir az maya salıb alış-verişlə məşğul olmuşam. Demək, elmsiz adamın böylə əziyyətlə qazanıb pul yığmağı böyük hünərdir. Lakin hünər deyildir, ona görə*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*ki, o vəqtlərdə elm-sənət bu qədər də deyil idi. İndi hər bir iş elm ilədir. Elmsiz heç bir iş yürüməyir. Elmsiz adamı qulluğa qəbul etməyirlər. Ona görə də sən bu dövlətin qədrini bilməlisən. Mən heç, mənim işim tamam olub gedibdir. Bu gün varam, sabah yox. Amma dövlət sənə lazımdır, sənə.*

*Sən dəxi bu sərvəti həmişəlik saxlamaq üçün qardaşlarını oxutdur, təğazayi-zəmanədən xəbərdar et, yoxsa beş-on il keçməmiş Hacı Salman oğlanları kimi vardan-yoxdan çıxıb bunun-onun əlinə baxıntı olarsınız!*

*Zira, bizim bu dövlətimiz qılınc və nizə gücü ilə saxlanan səltənət kimidir. O səltənət sahibi tədriclə məmləkəti mühafizə etmək üçün qüvvəsini artırmaz isə, axırı fəna olar. Hakəza, bu dövləti saxlamaq üçün sən dəxi kiçik qardaşlarını oxutdurmasan, saxlaya bilməzsiniz, əldən çıxar isə, elm-maarif əsrində elmsizlər bir daha əziyyətlə dövlət qazana bilməzlər!*

*Oğlum, nizə və qılınca məğrur olan səltənət sahibi məmləkətini əldən çıxararsa, dübarə məmləkətini geri alıb düzəltmək onun üçün çətin olar! Zira, indi məmləkət saxlamaq üçün cürbəcür şinidir, meytərəlyüz (saçma top) şarapnil kimi toplar və insanları toz kimi havaya sovuran bombalar icad edilmişdir, odur ki, səltənət sahibi yaşadığı dövrdə böylə qüvvələrin lazım olduğunu bilməlidir ki, özünü mühafizə etmək üçün alıb saxlasın. Onlara e'tina etməz isə, axırda mənqərəz olar, aradan götürülər. Necə ki, …….. İ ….. indi ……. Allah-billah ……… ki, ……. Ə A …. meşka….*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məktubun burasını qarının gözlərindən axan qanlı yaşlarmı, yaxud yağışmı yuyub aparmışdı, oxumaq olmurdu.

*Keçmiş əsrlə indiki əsrin təfavütü yerdən göyə qədərdir. Babam Məhəmməd ağa danışardı ki, Kərbəlayi Salman dönə-dönə sınıq çıxdı, malının qədərini bilməyib tələf etdi. Amma yenə bir-iki ilin ərzində özünə sərmayə qazandı. Çünki, əsr cahil əsri idi, daha müqabildə bizdən elmli millət yox idi, onun oğlu, nəvəsi dəxi həmən yolu getdilər, malı-dövləti tələf elədilər. Əgər zəmanədən xəbərdar olub, qafil yaşamasaydılar, dövlətləri tələf olmazdı. Odur ki, hər vaxtın bir hökmü, hər əsrin bir təğazası vardır; onları öyrənmək diqqət və e'tina istər.*

*Həmçinin, səltənət saxlamaq dəxi əsrin təğazası ilədir. Bu sözümü isbat etmək üçün keçmişdə olan tarixi vaqeələrin birini sənə söyləyim, sən dəxi diqqət ilə dərk et!*

*Hicrəti-nəbviyyədən 1716 il irəli yunanilərlə tərviyyəlilərin vuruşması vaqe olur. (Bax, diqqət et, özün təfavütünü anla).*

*Bir vaxt tərviyyəlilər yunanilərdən bir qız götürüb qaçırlar, yunanilər isə bu işi özləri üçün həqarət hesab edərək, yüz min nizədar ilə Tərviyyəni mühasirə edirlər, bir şey edə bilməyirlər, o mühasirə on il şiddətlə davam edir. Faidə verməyir. Tərviyyəni almaqdan aciz qalırlar. Zira, yunanilərin nizədən başqa bir hərbiləri yox idi. Tərviyyəlilər isə bürclərdən daş tökməklə müdafiə edilirdilər. O vaxtdaki*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*hücum edənlə dəf edənin silahlarına özün diqqət et, gör, nə imiş, indiki nədir!*

*Axırda Vəlis adlı bir qəhrəmanın tədbiri ilə taxtadan bir at heykəli qayırırlar. İçinə qırx nəfər kişi qoyub qaçırlar. Tərviyyəlilər öylə zənn edirlər ki, yunanilər qaçırlar.*

*Cür'ətlənib onları qovurlar. O heykəli qənimət hesab edib Tərviyyə şəhərinə gətirirlər. Gecə olduqda heykəlin içində olan qırx kişi dışrə çıxıb şəhərin qapısını qaçmış hesab olunan yunanilərə açırlar, onlar isə tökülüb zəbt edirlər.*

*Oğlum, indi bu tədbirlər fayda verməz. Uzaqdan öylə bir heykəl qaraltısı görərlərsə, dərhal saçma toplar ilə üstünə yüzlərcə güllə yağdırıb darmadağın edərlər.*

*İndi həmişəlik yaşamaq istər isən, dediklərimi qəbul etməlisən. Vəssalam və iləkram.*

*Çox-çox ərzi-salam anana, sənə və qardaşlarına.*

*Əldai Hacı İslam*

Qarı məktubu oxuyub məzmunundan mütali olduqda dərdinin üstünə daha da bir dərd artdı. Acığından məktubu cırıb yerə atdı və dedi: — “Ah, mən nə dərddəyəm, Hacı İslam nə dərddədir. Mən bu gün oğlum odun satmayıb ac qaldığımın dərdini çəkirəm, Hacı İslam isə indiki asudə yeyib-içməyinə qane olmayıb iki yüz il bundan sonra üçün oğluna vəsiyyət edir, dilbədil demək üçün səfərdən qayıtmağına qədər davam etməyib özü də məktubən yazıb mə'lum eləyir” — dedikdən sonra ikiəlli başına vuraraq —

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

“Vay, oğulsuz canım, vay, vay, həsrəti ürəyində qalan canım, vay” – deyə yola düşdü. Beş-altı qədəm yürüdü. Duman bir tərəfdən, yağışın şiddəti bir tərəfdən, qarı get-gedə qaib oldu. Bəli, qaib oldu! Lakin hərdənbir vay.., vay-vay… səsi eşidilirdi. O da getdikcə kəsildi. Qarı haraya getdi, kim desin?

Qarı necə oldu? Bir özü, bir də Allah bildi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## TAC-MAHAL — BANU BƏYİM MƏZARI

«Tac-mahal» dedikdə zənn olunmasın ki, gördüyümüz məscidlər, ziyarətgahlar türbələr kimi sadə bir binadır. Hindistan dünyada təbii sərvəti, dövləti ilə birinci məmləkət olduğu kimi Tac-mahal da ki, gərək Avropada, gərək Asiyada birinci binadır. Onun varlığı islamın varlığından əlamət, mahiranə tikilişi, fövqəlxəyal nəqşər və tərtibatı, mədəniyyəti-islamiyyədən birinci nişanədir. Mədəniyyət-islamiyyənin dünya abadlığına bəxş etdiyi bu qiymətli bina Əkbərabad, yaxud Əkrə şəhrindədir. Əqrə Hindistanın ən məşhur şəhərlərindəndir. Bu şəhərlər ancaq sərvəti, mədəniyyəti ilə məhşur olmamış, bəlkə «Kəbir şah Cəlaləddin», «Şah Cahan» kimi ağıllı, kamallı müqtədir hökmdarların biliyi sayəsində məşhur olmuşdur.

Bütün dünya səyyahlarının nəzər-diqqətini cəlb edən Əkbərabad isə, məşhur türk-tatar cahangirlərindən Teymurləng sülaləsinə mənsub olan Əkbər şah Cəlaləddin tərəfindən binalanmış və paytaxt qərar verilmişdir. İbtidadə Əkbərabad adlanmış isə də sonra Əkrə adı ilə məşhur olmuşdur. Köhnə hasarından anlaşıldığına görə ibtidadə Əkrənin nəhr boyunca uzunu altı yarım, eni beş kilometr olmuşdur. Sonralar da törənən fəsadü

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

müharibələrdən xeyli kiçilmiş, əhalisi dəxi azalmışdı. Bu şəhərdə xeyli məscidlər, camelər və sair asar ilə abadlıqlar var isə də ən gözəli Tac-mahal — Banu bəyim türbəsidir.

Bu türbə Cümnə nəhrinin bir kilometr yarım sağ tərəfində vaqedir. Öylə bir tərhü tərzdə tikilmiş ki, hər tamaşa edənin əzəmət və ehtişamına nəfasətü lətafətinə heyran edər. Güya bu mütəntən binanın hər daşında bir cazibeyi-memariyə vəz edilmişdir. Bu gün Hindistanda islamın olduğunu kəmalınca bildirən bu ali və möhtəşəm bina Hindistandakı türk dövlətinin beşincisi olan Şah Cahan tərəfindən təsis olunmuşdur.

Şah Cahan Səlim şahın oğlu Cəlaləddin Kəbir şahın nəvəsidir. Hicrətin birinci ilində Lahur şəhrində doğulmuşdur. 1037-də atasının vəfatında təxtə cilus etmiş və Ucarə hakimi olan «Taci-gənc»i tərvic etmişdir. Müşarəleyhə Mümtaz Sultan və Tacbibi dəxi deyilir. Ondan 16 övladı olmuşdur. Şah Cahan Mümtaz Sultanı çox sevərdi. Nə çarə ki, bu sevmək onu qane etməmiş, Mümtaz Sultan xan ikən vəfat etmiş, şah Cahanı tükənməz bir məhəbbətlə şiddətli bir müsibətə düçar eləmişdir. Şah Cahan onun bu daimi fərağına dözə bilməmiş, onun hərəkəti və ətvarı ilə məşhur olmuşdur. Zira, zövcəsi haqqında bəslədiyi məhəbbət bərkamal idi. Bu kamil məhəbbətinə şahid olmaq üçün qəbri üstündə dünyada mutlu olmayıb və olmayacaq dərəcədə məsnə və müzəyyən bir türbə tikdirmişdir ki, hər kəsi valeh və heyran etməkdədir.

Bu türbənin tərz və tikilişinin surəti haqqında bütün Şərq memarları səbqət etməyə çalışmış, şahın hüzurunda

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

diz çöküb çəkdikləri nəqşə və rəsmləri təqdim etmişlərdir. Axırda məşhur Türkiyə memarı Memar Sinan əleyhələr həmə tərəfindən Məhəmməd Əysa Qalfanın tərzü tərtibi bəyənilib işə başlanılmışdır.

Hər yeri mərmərdən tikilmiş dörd güşəsində ərəb qaidəsi ilə dörd minarəsi vardır. Ancaq qübbəsinin (gümbəzinin üstündə aypara nəsb edilmişdir. Bu binada 120 000 nəfər əmələ, fəhlə, nəqqaş və sənətkar işləmişdir. Türbə məhəllinin uzunluğu 298, eni 99 metrdir. Qapısının hündürlüyü 93, qübbəsinin hündürlüyü 81 metr yarım və onda işlənən daşlar dünyanın müxtəlif məmləkətlərindəki daşlardandır. Daşlar isə bunlardır.

| **Daşlar:** | **gətirilən şəhərlər** |
|---|---|
| 1. Qırmızı mərmər | «Hind-Racputana»dan |
| 2. Yeşim daşı | «Pəncab»dan |
| 3. Əqiq | «Bərac»dan |
| 4. Həcəri-mabi | «Bundelkin»dən |
| 5. Qaya bülluru | «Maluvə» qitəsindən |
| 6. Almas | «Pənah» məmləkətindən |
| 7. Göy yaqut | «Kolumb»dan |
| 8. ….. | …….. |
| 9. Ləli-Yəmani | «Yəmən»dən |
| 10. Laciverd | «Seylon» (Sərandib) cəzirəsindən |
| 11. Mərcan | «Ərəbstan»dan |
| 12. Sarı əqiq | «Anadolu»dan |
| 13. Nəcəf daşı | «Əcəmistan»dan |

Bu daşları gətirdikdən sonra məzkur türbənin tikilməsinə 40 milyon manat sərf olunmuşdur. Muzduz işləyən işçilər bu

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

hesaba daxil deyildir. Tac-mahala sərf olunan maddiyyatin (yəni mərmər və məcuhrat kimi şeylər) bir qismi pulsuz, bir qismi padşahlıq vergiləri əvəzində alınmışdır. Cümnə nəhri boyundan «Tac-mahal»a məxsus 5 metr yarım hündürlüyündə mərmərdən hasar çəkilmiş, hasarın içi əhatə olunmuşdur. Bu bağın içində böyük və uzunsov bir hovuz vardır. O hovuz isə hədsiz fəvvarələri havidir. Və Tac-mahalın dal tərəfində mər-mərdən qayrılmış arxdan həmişəlik elə axıb gələn sular bağa başqa təravət və başqa lətafət verməkdədir. Bunlardan əlavə Tac-mahalın ağlığı mərmər üstündəki nəqş və ziynətləri o misilsiz binanı xəyala gəlməyəcək dərəcədə qiymətləndirmişdi. Hind səyahətnaməsində yazıldığına görə o türbənin ziynət və tərtibatı nə qədər gözəl isə tikilişi on o qədərdir. Zira, o böyüklükdə binanın şərq tərəfi gəzilsə, zərrə qədər tikiş tapılmaz. Sanki bir daşdan qayrılmışdır. Səyyah  Trap Baptist Tavernanın yazdığına görə, o türbəyə sərf olunan daş-qaş min altı yüz beş milyon girvənkə ağırlığındadır. Bu bina 22 ilə tamam olunmuşdur. Rəsmdə görülən böyük qübbə Mümtaz Sultanın və şah Cahanın qəbrləri üstündədir. Hər ikisinin məzarı qiymətli və rəngli daşlar ilə «müzayiq» kimi bəzənmiş, dövrələrinə mərmərdən barmaqlıqlar çəkilmişdir. Bu ali bina dünya var ikən Hindistanda islam hökmdarlarının varlığını isbat edəcək və nəzərlərdən uzaq durmayacaqdır.

*18 aprel, 1916/1335*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MÜNDƏRİCAT

Əliabbas Müznib və əski nəşrlər ....................................................3
Hürriyyəti-bəşəriyyə ...........................................................................15
Sibirya məktubları ..............................................................................39
Yaşayış özülü .......................................................................................55
Çəkməsilən ..........................................................................................59
Uşaqlara ibrət ......................................................................................68
İbrət taziyanəsi ....................................................................................85
İnsaf güzgüsü ......................................................................................89
Əşrəfin məcərası .................................................................................93
Qazi ənvər paşa ...................................................................................97
Bakı fateh əlillərindən, namdar Türk qəhrəmanlarından
Minbaşı Məhəmməd Tofiq bəyin «Zopa»sı ..........................102
Xorasanın topa tutulması ...............................................................107
İkinci Nikolayın cəzalanması heykəli-istibdadə qarşı .......110
Rusiyyə qəhrəmanı Rasputin ........................................................113
Qiraət ...................................................................................................118
Dərviş kəhkəşan ................................................................................141
Ürək yanğısı .......................................................................................149
Tac-Mahal — Banu bəyim məzarı ................................................159

eated by Neevia Personal Converter trial version http://www.neevia.c